www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 3 avqust 2015-ci il Bazar ertəsi № 167 (6195) Qiymət 40 qəpik

**Xəbər**

## "Qarabağ"-"Seltik" cavab oyunu təhlükə altında

yazısı səh.14-də

**Gündəm**

## Ölkədən qaçmaq istəyən rektor şok ifadələr verdi


Akif Süleymanov

"Məni korrupsiyaya Gəncənin icra başçısı Elmar Vəliyev məcbur edib..."; "Başçının göstərişi ilə abadlıq işləri aparmışam, bu işlərə 1 milyon xərclənib"

yazısı səh.3-də

## Kremlin Qarabağ separatçılarına yeni jestinə sərt təpki gəldi

yazısı səh.9-da

*Fazil Mustafa:*

## "Real təhlükə artıq qapıdadır..."

yazısı səh.7-də

## Mənzil bölgüsünə etiraz edən köçkünlər avtomobil yolunu bağladılar

yazısı səh.2-də

## İşgəncə ilə öldürülən məhkumun işində adı keçən şahid-məhkuma daha bir cinayət işi açılıb

yazısı səh.10-da

## Tanınmış müxalifət namizədləri seçki dairələrində toqquşacaqlar

yazısı səh.6-da

## Adı kimi bahalı olan "Mirvari" restoranı - əməkdaşımız müştərilərin burada necə "soyulduğundan" yazır

yazısı səh.13-də

*Ekspertlərdən həyəcan təbili:*

## "Rusiyadan göndərilən vəsaitlərin azalması sosial gərginlik yarada bilər"

yazısı səh.12-də

## Kəlbəcərin icra başçısına 300 min manatlıq rüşvət ittihamı

yazısı səh.13-də

## Azərbaycandan Türkiyəyə turist axını azalıb

yazısı səh.3-də

## Ölkəmizi qarışdırmaq üçün qiyamçılar bir araya gətirilir

# İMRANOV-ABBASOV-HÜSEYNOV TRİOSU AZƏRBAYCANA QARŞI TƏHLÜKƏLİ OYUNDA

Keçmiş milli təhlükəsizlik naziri Nəriman İmranovun "Avrasiya hərəkatı" yaratması ölkəmiz əleyhinə daha bir təhlükənin anonsu kimi qiymətləndirilir; projedə qiyamçı polkovnik Surət Hüseynovun və Abbas Abbasovun da yer aldığı iddia edilir; Rusiya rəsmi Bakını yenidən provokasiyaya çəkir...

yazısı səh.5-də




# Obama prezidentləri Nyu-Yorka toplayır

Qarabağ danışıqlarında gerisayım başlayır; Əliyevlə Sərkisyanın Amerika görüşünə Putinin də qatılacağı iddiası ciddiləşir

yazısı səh.8-də



## Murad Köhnəqaladan "Yeni Müsavat"a hücum edənlərə şillə kimi cavab

yazısı səh.6-da


Hafiz Məmmədov

## "Hafka" müsadirə təhlükəsinə görə əmlaklarını "əridir"

yazısı səh.4-də



## Emin Milli qohumları ilə bağlı yeni bəyanat yaydı

yazısı səh.4-də

# 3 avqust




# Klinton İlham Əliyevdən nə istəmişdi

**ABŞ-ın sabiq dövlət katibi Hillari Klintonun mediaya sızan e-poçtları dünya mətbuatında əsas müzakirə predmetinə çevrilib. Axar.az xəbər verir ki, məhkəmənin qərarı ilə ictimaiyyətə açıqlanan bu e-poçtlar arasında Türkiyə ilə bağlı bir sıra qaranlıq məqamlar üzə çıxıb.**

Xanım Klintonun elektron məktublarında Türkiyədəki azlıqlara qarşı baş verən şiddəti yaxından izlədiyi, Prezident İlham Əliyevə "Türkiyə-Ermənistan barışığını reysdən çıxarmamaq" xahişi etdiyi aşkar olunub.

ABŞ Dövlət Departamenti Klintonun etibarsız e-poçt xidməti istifadə etdiyi üçün xalqa açıqlanmasına qərar verilən və ümumilikdə səhifə sayı 2 min 200-dən artıq, daha əvvəl nəşr olunmamış e-poçtlarını ictimaiyyətlə paylaşıb.

Klintonun xüsusi elektron poçt hesabındakı 2 min 206 səhifəlik 1300-dən çox yazışması nazirlik tərəfindən ictimaiyyətə açıqlandığında Türkiyə ilə əlaqədar bəzi yazışmalar da ortaya çıxmış olub. Təhlükəsizlik səbəbindən 37 yazışmada 64 bölüm gizlədilib.

Klintonun paylaşılan son yazışmalarının arasında Türkiyədəki dini azlıqlara bağlı 2001-2009-cu illər arasındakı xəbərləri əhatə edən bir sənəd var. Təxminən 30 səhifəlik bu sənəddə italyan rahib Andrea Santoronun Trabzonda öldürülməsi, Malatyada "Zirvə" nəşriyyat evində 1-i alman olmaqla 3 nəfərin öldürülməsi və Kipr patriarxı Bartolomeosa qarşı etirazların yaradılması aşkar olunub.

Bundan əvvəl nəşr olunan e-poçt qrupunda olduğu kimi, Türkiyə ilə Ermənistan arasında normallaşma prosesi ilə əlaqədar 2009-cu ilin oktyabrında imzalanan protokollardan öncə Klintonun bəzi yazışmaları da üzə çıxıb. Bu yazışmalarda qeyd olunur ki, Klintonun köməkçisi Huma Abidi Ermənistan-Türkiyə barışını reysdən çıxarmaması üçün Hillari ilə Azərbaycan lideri İlham Əliyev arasında bir telefon danışığı təşkil edib.

# Yaponlar Şəkinin kəndinə su çəkdilər



**Avqustun 2-də Şəkinin Suçma kəndində içməli su problemi həll olunub. 2700 nəfər əhalisi olan kəndə su çəkilişi Yaponiya hökumətinin "Ot kökləri və insan təhlükəsizliyi" qrant yardımı proqramı çərçivəsində həyata keçirilib.**

Axar.az xəbər verir ki, kənddə su təchizatı sisteminin tikintisi layihəsinin başa çatması münasibətilə mərasim keçirilib. Tədbirdə Yaponiyanın Azərbaycandakı səfiri Tsuquo Takahaşi, şəhər rəhbərliyi və kənd sakinləri iştirak ediblər. Şəkinin icra başçısı Elxan Usubov Yaponiyanın ölkəmizdəki səfirliyi ilə icra hakimiyyəti arasında əməkdaşlığın 15 ildir ki, davam etdiyini bildirib. Şəkidə bu layihə də daxil olmaqla, ümumi dəyəri 1 milyon 260 min dollar olan 15 layihə reallaşdırılıb. Bu layihələr məktəb tikintisi, tibb, ekologiya, su təchizatı və digər sahələri əhatə edib.

Layihə üzrə Yaponiya hökumətinin qrant yardımının ümumi məbləği 102,5 min dollar təşkil edib.

Layihə çərçivəsində yeni drenaj sistemi yaradılıb, 24 tonluq su anbarının inşa ilə Suçma kəndinin su problemi birdəfəlik həlli tapıb.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012)421-10-46; (012)323-55-21; (055)660-60-95;
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74; (055) 660-07-05

Az-Nar-Turizm
Aviabiletlər və turlar
Tel: (012) 408-44-43; (077) 355 05-85

# Mənzil bölgüsünə etiraz edən köçkünlər avtomobil yolunu bağladılar

## "Hökumətin tikdiyi evi vermək üçün bizdən pul istəyirlər..."

**Bərdə rayonunda Xocalı, Ağdam, Ağdərə, Laçın rayonundan olan məcburi köçkünlər etiraz aksiyası keçiriblər. Məcburi köçkünlərin etirazlarının səbəbi Bərdə-Yevlax yolunda qaçqınlar üçün nəzərdə tutulmuş mənzillərin verilməməsi olub.**



Şəhərin mərkəzində Heydər Əliyev prospekti 105 saylı peşə məktəbinin yataqxanasında məskunlaşan məcburi köçkünlərin bir qismini köçürüblər. Lakin təqribən 30-a yaxın ailə evlə təmin olunmayıb. Sakinlər bildiriblər ki, 125 məcbur köçkün ailəsi mənzillə təmin olunub. Qalan ailələrə isə müxtəlif bəhanələrlə mənzil verilməyib. Bu səbəbdən köçkünlər toplaşaraq etiraz aksiyası keçiriblər. Onlar prospektin əsas magistral yolunu bağlayıblar və nəqliyyatın hərəkəti dayandırılıb. Hadisə yerinə xeyli sayda polis və Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri gələrək sakinləri sakitləşdirməyə çalışıblar.

Məsələ ilə bağlı məcburi köçkünlərin bir neçəsi ilə telefon əlaqəsi yaradırıq. Xocalı rayonundan köçkün Süleyman Cavadov mənzillə təmin olunmadığını bildirib. "Burada köçürümə 2 dəfə olub. 1 il əvvəl köçürmə oldu. Bu ay köçürülmə yenidən başlayıb. Təqribən 90 ailəni Yevlax yolunda tikilən mənzillərə köçürüblər. Lakin 25 ailəni köçürmədilər. Hər iki aydan bir siyahıya alırdılar, həmin ailələrində adı var idi. Mənzil verilən vaxt çox adamın adı çıxmadı. Elə ailələr var ki, onlara iki otaq düşdüyü halda, 1 otaq verildi. Həmin ailə isə köçmürdü. Ailədə 5 nəfərik. Mənim adım qaçqınlar olan siyahıdan çıxmayıb. Halbuki qaçqınlıq vəsiqəsini, arayışları Bərdə rayon "Qaçqınkom" un sədri Sərdar Zeynalovdan götürmüşəm. Bizi tanıya-tanıya göz yumur. Çəkiliş qrupu da gəlmişdi. Lakin çəkməyə icazə vermədilər. "Qaçqınkom" un nümayəndəsi Elman İsmayılov çəkilişə müdaxilə etdi. Özüm şəxsən Elman İsmayılovla danışmışam, rədd cavabı verib. Avqustun 1-də icra hakimiyyətində olduq, oradan da rədd cavabı verildi. Qalmışıq bu sökük daxmaların altında. Xahiş edirəm ki, bu haqda bir tədbir görülsün".

III qrup Qarabağ əlili olan Xocalı rayon qaçqını Yelmar adlı şikayətçi isə yoldaşı ilə ayrıldığı üçün ev ala bilmədiyini deyir: "Mən qalmışam ortalıqda. Xahiş edirəm mənim hüquqlarımı təmin edəsiniz. Heç kim gəlib mənimlə maraqlanmayıb. Nə demişəmsə rədd cavabı almışam. Cənab prezidentdən və nazirmizdən kömək istəyirəm".

Məqalədə adları çəkilən şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.

❑ **M.SALMANOV**

# "Veysəloğlu" jurnalistləri səfərə apardı

**"Veysəloğlu" Şirkətlər Qrupu və "Ulduz" Şokolad Fabriki ötən ildə olduğunu kimi bu il də jurnalistlər üçün Qəbələ və Oğuz rayonlarına iki günlük infotur təşkil edib. Budəfəki infotur Milli Mətbuatın 140 illiyinə həsr edilib və əsas məqsəd KİV nümayəndələri üçün maraqlı və yadda qalan səyahət təşkil etmək olub.**



Əvvəlcə müxtəlif mətbuat orqanlarını təmsil edən 45-ə yaxın jurnalist Qəbələ şəhərinin mərkəzində yerləşən "Qafqaz Karvansaray Otel"də yerləşdirilib. Nahar fasiləsindən sonra jurnalistlərlə birgə qısaca tədbir keçirilib. Tədbirdə "Veysəloğlu" Şirkətlər Qrupu və "Ulduz" Şokolad Fabriki haqda mətbuat nümayəndələrinə geniş məlumat verilib, şirkətin uğur yolunu əks etdirən tanıtım filmi göstərilib. Daha sonra Şirkətin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri İlham Məmmədov rəhbərlik adından səfərdə iştirak edən, həmçinin müxtəlif səbəblərdən iştirak edə bilməyən bütün jurnalistləri bir daha Milli Mətbuat günü münasibəti ilə təbrik edərək onlara bu çətin və şərəfli yolda uğurlar arzulayıb.

İ.Məmmədzadə həmçinin bildirib ki, təmsil etdiyi qurum ölkədə ən böyük disrtribütör şirkət sayılır və dünyanın 100-dən artıq fabrik məhsullarının ölkəmizdə dağıtımı ilə məşğuldur. Şirkət eyni zamanda xeyriyyə yardımları da edir, o cümlədən bir sıra tanınmış idmançılara beynəlxalq yarışlarda iştirak etmək üçün və Qarabağ əlillərinə köməklik göstərir.

Çıxışdan sonra tədbirin sonunda hər bir jurnalistə qiymətli hədiyyələr təqdim olunub. Bunun ardınca media təmsilçiləri şəhər ərazisində gəzintiyə çıxıblar. Jurnalistlər gəzinti çərçivəsində "Tufandağ Qış-Yay Turizim Kompleksi" ilə də yaxından tanış olublar.

Səfərin ikinci günü isə media nümayəndələri Oğuz rayonunun Xal-xal meşəsində istirahətlərini davam etdiriblər. Günün sonunda infotur iştirakçıları Bakıya geri dönüblər.

Səfərdə iştirak edən jurnalist heyəti maraqlı səfər proqramı üçün "Veysəloğlu" Şirkətlər Qrupunun rəhbərliyinə dərin təşəkkürünü bildirib.

❑ **Xalidə GƏRAY**

# Türkiyənin Baş Qərargahı ittihamlara cavab verdi

**Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargahı İraqın şimalında həyata keçirilən əməliyyat zamanı mülki əhaliyə hücum edilməsi barədə xəbərləri təkzib edib.**

Virtualaz.org bildirir ki, bu barədə "Milliyet"qəzeti xəbər yayıb. Xatırladaq ki, daha əvvəl Türkiyənin bəzi KİV-ləri İraqın şimalında PKK-çılara qarşı keçirilən əməliyyatlar zamanı guya mülki əhali arasında da yaralananların olduğu barədə məlumat yaymışdılar.

# "Hamı bizdən qorxur, Rusiya imperiya olmalıdır"

**Rusiya Dövlət Dumasının deputatı Vladimir Jirinovski ölkəni Rusiya imperiyası adlandırmağı və dünyanın yarısını "dizi üstə çökdürməyi" təklif edib.**

Oxu.az xəbər verir ki, bu barədə o, "Rus xəbərlər xidməti" radiosuna Rusiyaya qarşı sanksiyaların sərtləşməsini şərh edərkən bildirib: "Bütün iqtisadi əlaqələri dayandırmaq, sanksiyaları dəstəkləyən ölkələrlə bütün iqtisadi, ticarət, turizm əlaqələrini kəsmək, dünyanın yarısını "dizi üstə çökdürmək" lazımdır. Biz ən güclü hərbi bazaya malik olan ölkəyik, bizdən hamı qorxur. ABŞ-dan başqa digər ölkələr müharibə etməyi bacarmır. Fransızlara və almanlara elə dərs keçmişik ki, onlar bizimlə heç vaxt müharibə etməzlər".

Rusiyalı deputatın sözlərinə görə, Qərblə gərgin münasibətlər şəraitində sərt tədbirlər görmək lazımdır, güclü repressiya aparatı yaratmaq, DTK-nı (Dövlət Təhlükəsizlik Komitəsi) bərpa etmək və sonda Rusiyanın adını dəyişmək lazımdır.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Azərbaycandan da Türkiyə və Ukraynaya turist axını azalıb

## Səbəb terror, müharibə və biletlərin bahalığıdır; **iqtisadçı ekspert:** "Təəssüf ki, turizm sektorunda qiymətlərin yüksək olması, aviabiletlərin bahalığı Azərbaycana bu boşluğu doldurmağa imkan vermir."...

**Dünyada cərəyan edən siyasi hadisələr Azərbaycanda fəaliyyət göstərən turizm şirkətlərinin işinə təsirini göstərməkdədir. Belə ki, bir çox ölkələrdə terror, müharibə kimi hadisələrin baş verməsi oraya turist kimi səfər etmək istəyən vətəndaşları tərəddüdə salıb.**

Xüsusən Ukraynada daxili gərginlik və bu ölkənin Rusiya ilə müharibə şəraitində olması, son günlər Türkiyədə baş verən terror hadisələri həmin ölkəyə dincəlməyə gedənləri qorxuya salıb. Adı çəkilən ölkələrdə baş verənlər Azərbaycan əhalisinin bu ölkələrə gedişinə mane olubmu? Son anda Ukraynaya, Türkiyəyə səfər etməkdən imtina edənlər varmı? Bu suallarla bağlı paytaxtın "28 may" metrostansiyası yaxınlığında "Aviakasslar"a baş çəkib vəziyyətlə maraqlandıq.

Məsələ ilə bağlı "28 May"da yerləşən "Aviakassalar" da vəziyyətlə maraqlanırıq. Aviakassaların bir neçəsinə yaxınlaşırıq. Satıcı bildirdi ki, Krıma bilet satışı dayanıb: "İki il öncə sistem bağlanıb bizdə. Satış həyata keçirmirik. Türkiyəyə isə satış əvvəlki qaydadadır. Alıcıların azalması müşahidə olunmur. Biletləri daha çox istirahət zonalarına gedənlər alır".

Digər bir satıcı bütün aviakassalarda Krıma bilet satışı dayandırıldığını bildirdi: "Baş verən müharibələr Krıma gedənlərin sayını azaldıb. İnsanlar qorxuya düşürlər. Lakin Krıma getmək üçün Bakı-Moskva-Simferopol ilə getmək mümkündür. Alıcılar "Şeremetyeva" aeroportunda enib digər nəqliyyat vasitəsi ilə Krıma gedə bilərlər ".

Satıcı qonşu Türkiyədə də eyni halın mövcud olduğunu vurğulayıb: "Əvvəllər İstanbuldan gediş var idi, indi Krıma uçuş bizdə olduğu kimi dayandırılıb".

Başqa bir aviakassada isə satıcı AZAL-ın qoyduğu qiymətlərdən narazılığını bildirdi: "Satış monopoliyası bizimdə vəziyyətimizi ağırlaşdırıb. Biletlərin baha olması alıcılığı azaldıb. AZAL-ın qiymət artımı "aviakassa"larda vəziyyəti pisləşdirib. Xaricə baxanda bizdə xidmət haqqı yüksəkdir. Bu isə həm ölkədaxili, həm də xaricdə gələn turistlərdə "qiymət xofu" yaradır, alıcılığın azalmasına səbəb olur".

*****

Məsələ ilə bağlı "Yeni Müsavat" a danışan iqtisadçı-ekspert Vüqar Bayramov bildirdi ki, terror və münaqişələr turizmə həmişə mənfi təsir göstərəcək: "Nəzərə alsaq ki, Türkiyə dünyanın aparıcı ölkələrindən biridir və bu ölkənin illik turizm gəlirləri 6-7 milyard dollardan çoxdur. 2015-ci ildə Türkiyə turizm sekorundakı gəlirlərlə bağlı 7 faizə yaxın artım proqnozlaşdırırdı və bu artım ölkəyə gələcək turistlərin sayının artması ilə izah olunurdu. Bu il Türkiyə 40 milyondan artıq turisti qəbul etmək niyyətində idi. Lakin son terror hadisələri praktik olaraq Türkiyəyə gələcək turistlərin sayına ciddi şəkildə mənfi təsir göstərəcək və bu artıq hiss edilməkdədir. Aparılan araşdırmalar göstərir ki, artıq bəzi Avropa ölkələrində turistlər öz səfərlərini təxirə salmaq məcburiyyətində qalıblar. Azərbaycanda Türkiyə gündəmindən xəbərdar olanların bir qismi də bu ölkəyə səfər etməkdən imtina ediblər. Azərbaycandan Türkiyəyə gedən turistlərin sayı 2014-cü ildə 700 mindən artıq olub və bu ildə Türkiyəyə gedəcək turistlərin sayında 10 faizə yaxın artım proqnozlaşdırılırdı. Lakin son terror hadisələri bu artımın reallaşmasına imkan verməyəcək. Türkiyə də proqnozlaşdırılan iqtisadi artıma nail olmayacaq. Eyni zamanda, Ukrayna da ən çox turist cəlb edən ölkələrdən biri idi. Lakin bu ölkədə gedən siyasi proseslər Ukraynan turizm potensialını sıfıra endirib. Orada nəinki turistlərin sayında azalmalar var, hətta Ukraynanın gənclərinin bir qismi artıq miqrasiya etmək məcburiyyətində qalıb. Onların bir qismi Mərkəzi və Şərqi Avropa ölkələrinə miqrasiya ediblər. Bu ölkənin turizm bölgələri artıq heç bir turistik xidmət göstərmir. Ukraynada vəziyyət Türkiyə ilə müqayisədə daha acınacaqlıdır. Çünki Türkiyə terrora qarşı mübarizə aparırsa, Ukraynada daxili münaqişə, müharibə və vətəndaş müharibəsi faktiki olaraq turizmi iflic edib".









Ekspert onu da vurğuladı ki, əslində bu durumu Azərbaycan turizmi üçün bir şans hesab etmək olar: "Türkiyə və Ukraynanın turizm sektorundakı geriləmələr fonunda Azərbaycan həmin xarici turistləri cəlb edə bilər. Türkiyəyə və Ukraynaya getməkdən imtina edən həm xarici, həm də yerli turistləri Azərbaycan potensial baxımından cəlb edə bilər. Amma təəssüf ki, bizdə turizm sektorunda qiymətlərin yüksək olması, aviabiletlərin bahalığı Azərbaycanın bu imkandan yararlanmasına imkan vermir. Tədqiqatlar göstərir ki, hələlik bu durumdan yararlanan yeganə ölkə Gürcüstandır. Bu da Gürcüstanda qiymətlərin kifayət qədər aşağı olması, viza sisteminin liberallaşması ilə bağlıdır. Ancaq son olaraq Azərbaycan prezidentinin tapşırığı əsasında ölkəmizdə turizm sektorunda qiymətlərin aşağı salınması, keyfiyyətin artırılması, vizanın alınması ilə bağlı prosedurların liberallaşması ilə bağlı fəaliyyətin gücləndirilməsinə ehtiyac var. Bu halda Azərbaycan regionda terror təhlükəsi altında olan və turizm baxımından itirən ölkələrə gedəcək turistləri cəlb edə bilər".

**❑ Məğrur Salmanov**
**Fotolar müəllifindir**


Akif Süleymanov

# Ölkədən qaçmaq istəyən rektor şok ifadələr verdi

## "Məni korrupsiyaya Gəncənin icra başçısı Elmar Vəliyev məcbur edib..."; "Başçının göstərişi ilə abadlıq işləri aparmışam, bu işlərə 1 milyon xərclənib"

**Tələbələr adına saxta təqaüd kartları açaraq külli miqdarda pul mənimsəyən Azərbaycan Texnologiya Universitetinin Gəncə filialının rektoru Akif Süleymanov ölkədən qaçmağa çalışarkən hava limanında saxlanılıb. Bu barədə adıçəkilən universitetin tələbələri "Yeni Müsavat"a məlumat verib.**

Məlumata görə, Akif Süleymanov saxlanılaraq Baş Prokuror Yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinə aparılıb və haqqında cinayət işi qaldırılıb.

Qeyd edək ki, aparılan araşdırmalar zamanı məlum olub ki, rektor A.Süleymanov universitetin dərsə gəlməyən tələbələrinin və əmrdə olmayan yaxın qohumlarının adına pul kartları açdıraraq bir milyon manat dövlət büdcəsini mənimsəyib. Eyni zamanda tələbələrin illik təhsil haqqı üçün ödədikləri pulların "Kapital Bank"ın Gəncə şəhərində yerləşən filialına ödənilmədiyi üzə çıxıb. Rektor pulları özü mənimsəyərək saxta bank arayışlarını tələbələrə təqdim edib.

Akif Süleymanov bu barədə Korrupsiyaya qarşı Mübarizə İdarəsinin əməkdaşlarına ifadə verərək bildirib ki, bütün bu işlərə onu Gəncə Şəhəri İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev məcbur edib.

"Pulun bir qismini Gəncə şəhərinin abadlaşmasına xərcləmişəm. Elmar Vəliyev məni məcbur edib ki, universitetin qarşısındakı yeraltı keçidi təmir edim, eyni zamanda, şəhərin abadlşamasına yaxından köməklik göstərim. Bütün bunlar üçün, həmçinin şəhərin binalarının qarşısına vurulan aqlay, tamet, qum, sement və fəhlələrin zəhmət haqqına görə bir milyon manat ödənilib.

Bir milyon manatın 500 min manatını universitetin baş mühasibatçısı dövlət büdcəsinə ödədiyindən, yerdə qalan hissəsi icra başçısı Elmar Vəliyevlə mənim üzərimə düşürdü".

Rektor eyni zamanda ifadəsində bildirib ki, ona bu işlərdə yardımçı olan, korrupsiya faktlarını, saxta sənədləri ört-basdır edən, universitetin hüquqşünası Şakir Əliyevə "şapka" kimi 100 min manat verib: "Şakir Əliyev mənim dövlət büdcəsindən külli miqdarda pul çəkdiyimdən xəbəri olduğundan və saxtalaşdırdığım sənədlərə hüquqşünas kimi qol çəkdiyindən hər sənədin "şapka"sını istəmişdi. Buna görə də hissə-hissə hesablayaraq ona 100 min manat pul vermişəm".

Qeyd edək ki, Akif Şamil oğlu Süleymanov 2013-cü ildə Azərbaycan Texnologiya Universitetinin rektoru təyin edilib. O da məlum olub ki, 2013-cü ildən başlayaraq 3 il ərzində xeyli sayda tələbəyə saxta diplomlar verilib.

Yayılan məlumatlara görə, universitetin adı korrupsiya qalmaqalında hallandığından, ali məktəbə qəbul olmaq arzusunda olan abuturuyentlər ixtisas seçimində bu universiteti seçməyiblər. Universitet fəaliyyətini 2015-ci ilin sonuna kimi davam etdirəcək. 2016-cı ilin yanvar ayında isə universitetin tələbələri digər universitetlərə köçürüləcək və beləliklə, universitet fəaliyyətini dayandıracaq.

Xatırladaq ki, artıq Gəncə şəhərində ikinci ali məktəbdir ki, korrupsiyada adı hallanır. Belə ki, 2014-cü ildə Gəncə Müəllimlər İnstitutu da korrupsiya qalmaqalı ilə əlaqədar olaraq bağlandığından, tələbələr digər universitetə köçürülmüşdü.

**❑ Xalidə Gəray**

***Redaksiyadan:** Yazıda adı hallanan Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevi və digər şəxsləri dinləməyə, onların mövqeyini qəzetdə dərc etməyə hazırıq.*

YENİ MÜSAVAT
N 167 (6195) 3 avqust 2015

**"İndi öyrəndim ki, bir neçə gün qabaq mənim əmim oğlu Polad Abdullayev həbs edilibmiş. Qohumlarımın mənimlə qohumluqdan imtina bəyanatı onu azad etdirmək üçün məcburi atılan bir addım idi. Polad indi azad olunub. Qohumlarıma qarşı kütləvi repressiyaların tətbiq olunması davam edir. Bir çoxu bu barədə danışmaq belə istəmir". Bu sözləri Meydan TV-nin rəhbəri Emin Milli öz Facebook hesabında yazıb.**

# Emin Milli qohumları ilə bağlı yeni bəyanat yaydı

## "Onlar əmim oğlunu azad etdirmək üçün..."

O qeyd edib ki, qohumlar məcburi şəkildə prezidentə məktub yazdıqlarını inkar edirlər: "Əcəb edirlər. Qınamıram. Başqa qohumlar da məndən imtina eləsinlər. İncimərəm. Amma mən heç bir halda öz yolumdan dönən deyiləm. Mənim yolum haqq yoludur və bu yolu da mən sona qədər gedəcəm. Bunu hər kəs bilsin və öz qərarını indidən versin". Meydan TV-nin direktoru daha sonra hakimiyyəti sərt tənqid edib. Eyni zamanda, bildirib ki, hakimiyyət haqlıdır, hədəfləri də düz seçiblər: "Amma mənim kimi hədəfləri vurduqca zəifləyəcəklər və daha çox insanı söz azadlığı uğrunda mübarizəyə qoşulmağa vadar edəcəklər. Son iki gündə yüzlərlə insan mənə və Meydan TV-yə dəstək olacaqlarını bildirdilər".

Qeyd edək ki, Meydan TV-nin direktoru Emin Millinin qayını Nazim Ağabəyovun və "Azadlıq" qəzetinin baş redaktoru Qənimət Zahidin qohumlarının həbsi artıq bir sıra beynəlxalq təşkilatlar tərəfindən tənqid edilməkdədir.

Emin Millinin və Qənimət Zahidin qohumlarının son günlərdə onlardan imtina etməyə başlaması isə yaranmış vəziyyəti bir qədər də tündləşdirib.

Bu mövzuda danışan hüquq müdafiəçisi Novella Cəfəroğlu xaricdə yaşayan Qənimət Zahidə və Emin Milliyə görə onların Azərbaycanda yaşayan qohumlarının həbs olunmasının bəzi məmurların hakimiyyətə "ayı xidməti" olduğunu bildirdi. Onun sözlərinə görə, bu hadisələr hakimiyyətin zərərinədir, beynəlxalq təşkilatlarda Azərbaycana münasibəti sərtləşdirir: "Kiminsə mövqeyinə görə onun qohumlarının cəzalandırılması, qohumların da həmin şəxslərlə qohumluqdan imtina etməsi qətiyyən xoş deyil, ölkəyə başucalığı gətirmir. Ata övladının, övlad atasının siyasi mövqeyinə görə cavabdeh deyil, nəinki kənar qohumlar cavabdeh olsunlar. Bəzi məmurlar özlərini göstərmək, guya hakimiyyətin keşiyində durduqlarını nümayiş etdirmək üçün məlum zərərli addımları atırlar, guya düşünürlər ki, Qənimət Zahidi, Emin Millini qohumlarını həbs etməklə qorxudacaqlar. Daha düşünmürlər ki, xaricdə olan həmin adamların heç veclərinə də deyil ki, Azərbaycanda qohumları var, ya yox... Açıqlamalarından da bu görünür. Onların qohumlarının həbs olunması məmurların özbaşınalığıdır və ölkəmizin ziyanınadır. Qəti surətdə bu iş pislənməlidir və buna son qoyulmalıdır. Bacarırlar xaricdə olan həmin adamlarla mübarizə aparsınlar. Qohumluqdan imtina edənləri isə müəyyən dərəcədə başa düşürəm. Azərbaycan xalqının canında 60-70 il öncənin qorxu hissi hələ də yaşayır. Həmin insanlar həbs növbəsinin onlara çatmaması üçün, özlərini xilas eləmək naminə qohumluqdan imtina edirlər. Əslində bununla həm də özbaşınalığı pisləyirlər. Hər bir halda yaranmış durum ölkəmizin imicinə mənfi təsir edir. Emin Milli və Qənimət Zahidin qohumlarını cəzalandırdıqca beynəlxalq təşkilatlar daha çox təzyiqi Azərbaycana göstərəcək, həmin adamlar da daha sərt danışacaqlar, yazacaqlar. Bu, Azərbaycana lazımdırmı? Xeyr! "


Emin Milli

Politoloq Razi Nurullayev isə hesab edir ki, məsələyə bir neçə aspektdən yanaşmaq lazımdır.

Birincisi, qohumundan hakimiyyəti tənqid etdiyinə görə imtina etmək yaraşan hərəkət deyil. Amma əgər qohumlar da ciddi təzyiq ilə üzləşərək və çarəsizlikdən ediblərsə, o zaman bəlkə də onları da başa düşmək olar: "Yəni doğrudanmı onların digər çıxış yolu olmayıb? Emin Milli hakimiyyəti sərt tənqid edir. Amma o, xalq düşməni deyil axı. Belə görünür ki, biz də qohumlarımızı gərək təlimatlandıraq. Amma məsələnin ədalətli bir tərəfi də var. Emin Milli və Qənimət Zahid Avropada təhlükəsiz yaşayırlar. Onların əvəzinə isə hakimiyyət məhrumiyyəti və həbsi onların qohumlarına yaşadır. Bax bu nə qədər ədalətlidir? Təbii ki, bu, cəmiyyətin problemidir, siyasi sistemin repressiyasıdır. Amma hər kəsin iradəsi, hər kəsin yaşayışı və baxışı eyni deyil. Qohum da olsan belə.

Emin Milliyə münasibətim çox müsbətdir. O, həbsxana həyatı da yaşayıb. Geriyə dönsə, yeri yenə də həbsxanadır. Onun qohumları ilə bağlı münasibətini hələ bilmirəm. Amma Qənimət Zahidin münasibəti isə qıcıqvericidir. Münasibətini heç bəyənmədim və düşünmürəm ki, kimsə aydan arı, sudan durudur".

R.Nurullayev də baş verən hadisələrin Azərbaycanı sıxışdırmaq üçün bir sıra beynəlxalq təşkilatların əlinə fürsət verəcəyini düşünür.

Hakimiyyət təmsilçiləri və hüquq-mühafizə orqanları isə Qənimət Zahidin və Emin Millinin qohumlarının həbsinin həmin şəxslərin siyasi mövqeyi ilə bağlı olmadığını, həbs olunanların konkret qanun pozuntularına yol verdikləri üçün həbs edildiyini bildirirlər.

❑ **E.SEYİDAĞA**

# "Hafka" müsadirə təhlükəsinə görə əmlaklarını "əridir"

## Müflis elan edilən "Baghlan Group"un tərkibinə daxil olan "Firs Class Tuors" və "Meredian Hotel" "yoxa çıxıb"; Virgin adaları məhkəməsinin qərarının icra edilə bilməməsi beynəlxalq qalmaqal yarada bilər

**Borc qalmaqallarından heç cür qurtula bilməyən iş adamı Hafiz Məmmədov "Baghlan Group Limited"i də itirir. Xəbər verildiyi kimi, iyulun 29-da Şərqi Karib Ali Məhkəməsi (Britaniyanın Virgin adaları) müflis olması ilə bağlı "Baghlan Group Limited" şirkətinin ləğv edilməsinə başlayıb. Məhkəmə "PricewaterhouseCoopers (BVI) Limited" şirkətinin nümayəndəsi Con Ayresi təsviyyəçi təyin edib.**


Hafiz Məmmədov

Bundan əvvəl Virgin adalarının Kommersiya Məhkəməsində "BNP Paribas Trust Corporation UK Limited" şirkətinin "Baghlan Group Limited"ə qarşı iddiasına baxılaraq, cavabdehin ödəmə qabiliyyətinin olmaması faktı təsdiq edilib.

Borcla bağlı tarix "Hafka"nın nəqliyyat naziri Ziya Məmmədovla biznes şəriki olduğu vaxta təsadüf edir. Belə ki, 2012-ci ildə "Baghlan Group" "BNP Paribas Trust Corporation UK Limited" şirkətinin iştirakı ilə Kayman fond birjasında $150 mln. məbləğində istiqrazlar yerləşdirib. Qiymətli kağızlar yüksək faizlə yerləşdirildiyindən (və ya cəlb olunan vəsaitin istifadəsinin səmərəsizliyindən) bir müddət sonra "Baghlan Group" üzərinə düşən öhdəlikləri yerinə yetirməkdə çətinlik çəkib. "Baghlan" 2013-cü il, dekabrın 27-də istiqrazlar üzrə 19 milyon dollar həcmində faiz ödənişini həyata keçirməyib. İstiqrazlar 150 milyon dollar həcmində olan kreditdə iştirakı təmin edir. 2014-cü il martın 7-də isə 8 milyon dollar həcmində kiçik ödəniş edilib. Halbuki iyun ayında istiqrazların tam ödənilməsi baş verməli idi.

Azərbaycan qanunvericiliyinə görə, şirkətin müflisləşmə davası açılarkən, iddia tələbini yerinə yetirmək üçün cavabdehdə kifayət qədər pul vəsaiti və digər əmlak olmazsa, o zaman borc üzrə öhdəliklərin icrası üçün tələb olunan vəsait ona məxsus digər əmlaklara da yönəldilə bilər. Virgin adalarının qanunvericiliyi də Hafiz Məmmədova məxsus başqa ölkədəki əmlakın satışa çıxarılmasını istisna etmir.

"Baghlan Group" inşaat, nəqliyyat, yük daşımaları, hasilat və s. sahələrdə çalışır. Qrup milli bukmeyker kontoru olan "Topaz" şirkətində də marağı olduğunu bildirir.

Bundan başqa, Hafiz Məmmədov biznesinin bir hissəsini oğlanları Sənan və Kənanın adına ötürüb. Şirkətlərin bir hissəsi "KSM Group of Companies" adı altında birləşib. Qrupa gəmiçilik və yük daşımaçılığı, nəqliyyat, turizm, tikinti, idman, xidmət sahələrinə aid bir neçə şirkət ("Alfa Caspian Shipping", "Logestics group", "BQ trans", "City Bus", "Ramada Hotel & Suites Baku", "Baku fans", "Elit Catering", "Kono Pizza", "Candy Boquet" və s.) daxildir. Əlavə olaraq qardaşlar "Bank of Azerbaijan" ASC-yə birgə nəzarət edirlər.

Ləğvetmə işlərini aparmaq həvalə olunan C. Ayres bildirib ki, iyulun 29-dək kreditorlar öz tələblərini təqdim edəcəklər. Bir gün sonra isə PWC-nin Virgin adalarındakı ofisində ləğvetmə komissiyasının yaradılması məqsədilə kreditorların və onların nümayəndələrinin görüşü keçiriləcək. Qərarın qəbul edilməsi üçün borc sahiblərinin yarısının iştirakı tələb olunur.

"Fitch Ratings" beynəlxalq reytinq agentliyi hələ ötən il "Birləşmiş Ərəb Əmirliklərində qeydiyyatdan keçmiş və Azərbaycanda neft daşımalarından tutmuş "London taksiləri"nin istismarına qədər bir çox biznes sahələrində fəaliyyət göstərən "Baghlan Group"un defoltunun uzunmüddətli reytinqini B-dən RD-dək (məhdud defolt) aşağı salıb. Kreditorların konkret hansı qərar verdikləri barədə hələ ki məlumat yoxdur. Amma aydındır ki, "Baghlan Group" hazırda borcunu ödəmək gücündə deyil və ləğv ediləcək. Beynəlxalq Bankdan götürdüyü kreditə görə həbs təhlükəsilə üzləşən və buna görə ölkəni tərk edən, daha sonra isə yenidən Azərbaycana dönən "Hafka"nın da hazırda harada olduğu bilinmir. Bir mənbəmizin iddiasına görə, iş adamı "problemlərini həll etmək" adı ilə yenidən ölkəni tərk edib.

"Baghlan Group Limited" şirkətinin ləğv edilməsindən sonra borca görə "Hafka"nın əmlaklarının satışa çıxarılması bir qədər problemli görünür.

Şirkətin rəsmi saytında qısa araşdırmamız zamanı məlum oldu ki, "Baghlan Group Limited"in tərkibinə daxil olan "Firs Class Tuors" (http://www.fct.az/) və "Meredian Hotel" (http://www.meridianhotel.az/) saytları bağlıdır. Mümkündür ki, şirkətə aid bu markalar artıq "Baghlan Group Limited"in tərkibindən bilərəkdən çıxarılıb, bəlkə də başqa adamın adına artıq rəsmiləşdirilib də. Çünki ötən ilin oktyabr ayında "Nikoyl" banka borca görə "Hafka"nın "Milyonerlər məhəlləsi"ndəki (keçmiş Teymur Əliyev, indiki Məmməd Araz küçəsi) villasının boşaldılması barədə məhkəmə qərarı çıxarılsa da, evin sahibinin başqa adam olduğu məlum olmuşdu. Qeyd edək ki, iş adamının həmin ərazidə bir yox, bir neçə villası var və böyük ehtimalla, yenə də öz adına rəsmiləşməyib. Bu səbəbdən də Şərqi Karib Ali Məhkəməsinin çıxardığı qərarla "Hafka"nın əmlaklarının müsadirəsi çətin olacaq. Bu isə yeni beynəlxalq qalmaqala səbəb ola bilər.

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 167 (6195) 3 avqust 2015

# Ölkəmizi qarışdırmaq üçün qiyamçılar bir araya gətirilir

**Ötən saylarımızda keçmiş milli təhlükəsizlik naziri Nəriman İmranovun və Rusiya Ədliyyə Nazirliyinin keçmiş əməkdaşı, ikinci dərəcəli dövlət müşaviri İlqar Qasımovun Azərbaycanın "Avrasiya hərəkatı" yaratmaları haqda məlumat vermişdik. Azərbaycan mətbuatı bu hərəkatı birmənalı olaraq Rusiyanın ölkəmizə qarşı növbəti provokasiyası kimi təqdim edir. Xatırladaq ki, 2013-cü ildə Moskvada Rusiya Azərbaycanlıları Təşkilatları İttifaqı (RATİ) adlı təşkilat yaradılmışdı.**







## İmranov-Abbasov-Hüseynov triosu Azərbaycana qarşı təhlükəli oyunda

Keçmiş milli təhlükəsizlik naziri Nəriman İmranovun "Avrasiya hərəkatı" yaratması ölkəmiz əleyhinə daha bir təhlükənin anonsu kimi qiymətləndirilir; projedə qiyamçı polkovnik Surətin və Rusiyanın əsas adamlarından olan Abbas Abbasovun da olduğu iddia edilir; Rusiya rəsmi Bakını yenidən provokasiyaya çəkir...

Bu təşkilatın Kremlin iradəsiylə yaradıldığı haqda iddialar sonrakı proseslərdə özünü tam doğrultdu. Sonradan mətbuatın "Milyarderlər İttifaqı" adı verdiyi təşkilat prezident seçkisində öz namizədi ilə iştirak edib hakimiyyəti götürməyi planlaşdırırdı. Bunun üçün Bakıda Milli Şura adlı təşkilat da quruldu. Həmin təşkilata Abbas Abbasovun yaxın adamı, kinodramaturq Rüstəm İbrahimbəy gətirildi. Azərbaycan hakimiyyətinin davamlı basqılarından və hədələrindən sonra Rusiya bu proyektini həyata keçirə bilmədi. Rüstəm İbrahimbəyov həbs təhlükəsi qarşısında Bakıya gəlməkdən imtina etdi. Bunun ardınca - 2013-cü ilin avqustunda Rusiya prezidenti Vladimir Putin Bakıya rəsmi səfər etdi. Onun prezident İlham Əliyevlə görüşündən sonra Moskva Milli Şuranın arxasından qismən çəkildi və birmənalı şəkildə hakimiyyəti və onun namizədini dəstəkləmək qərarı verdi. Lakin məlum olduğu kimi, bu "dəstək" Azərbaycana baha başa gəldi. Rusiya ölkəmizlə xərac alan yolkəsən kimi rəftar etdi...

Görünür, Rusiya hər seçkidə Azərbaycanı, onun iqtidarını hədələməkdən, rəsmi Bakı ətrafında gərginlik yaratmaq kursundan birdəfəlik imtina etməyib. Bunun üçün də davamlı təzyiq rıçaqları yaradır.

***

Yeni elan olunan "Avrasiya hərəkatı" ilə "Milyarderlər İttifaqı"nın ssenarisi eyni mərkəzdə - Moskvada yazılsa da, aralarındakı fərq ciddidir. RATİ daha çox ictimai-siyasi proseslərə təsir etməklə Azərbaycanı Rusiyanın təsir dairəsinə qaytarmağa can atırdısa, "Avrasiya hərəkatı" adı altında yaradılan yeni təşkilatın hərbi-siyasi üsullarla buna nail olmağa çalışacağını istisna etmək mümkün deyil. "Milyarderlər İttifaqı"nın rəhbərləri biznes adamları idisə, "Avrasiya hərəkatı" adı altında yaradılan yeni təşkilatın rəhbərləri Rusiya güc strukturlarında çalışmış, birbaşa Rusiya hərbi-siyasi hakimiyyətinə bağlı şəxslərdir. Parlament seçkiləri ərəfəsində, eyni zamanda, Rusiyanın Azərbaycanı Avrasiya İttifaqına qoşmaq üçün böyük səylər göstərdiyi zamanda adları Rusiya kəşfiyyatına, hərbi dairələrinə bağlı olan şəxslərin təşəbbüs qrupu yaratması təsadüfi deyil.

"General" ayamalı İlqar Qasımov Azərbaycanı yenidən Kremlin təsir dairəsinə qaytarmağa çalışan siyasətçilərdən biri kimi tanınır. O, 1996-cı ildən bu yoldadır. "Azərbaycan Yolu" Siyasi Hərəkatının (AYSH) sədri olmaqla yanaşı GUAM ölkələri siyasi partiyaların Koordinasiya Şurasının sədri kimi də bunu heç vaxt gizlətməyib. Rusiya hərbi-siyasi dairələrinə bağlı İ.Qasımov ən müxtəlif illərdə Azərbaycanda siyasi səhnədə peyda olub. Hər dəfə də gəldiyi kimi də siyasi səhnəni əliboş tərk edib və bu, onun qeyri-ciddi fiqur kimi qəbul olunmasına gətirib çıxarıb.

Onun yeni ideyadaşı, sabiq milli təhlükəsizlik naziri Nəriman İmranov haqda isə bunu demək olmaz. Ömrünü Rusiya Dövlət Təhlükəsizlik Komitəsinin (DTK-KQB) divarları arasında keçirən çekist N.İmranov 1992-ci ilin yazında, fəxri təqaüdə çıxmasına 6 ay qalmış doğma DTK divarları onu sıxmağa başlayıb. 24 il 6 aylıq xidmətdən sonra N.İmranov istefa verib və Azərbaycana gəlib. N.İmranovun bu hərəkətinin vətənpərvərlik hisslərindən qaynaqlandığını deyənlər az keçmədi ki, yanıldıqlarını başa düşdülər. Hərbi xidmətdə olanlar səbirsizliklə sakit və qayğısız həyatlara başlamalarını gözləyirlər. Belə bir imkan isə 25 illik xidmətdən sonra verilir. N.İmranov Azərbaycana xidmətinin bitməsinə 6 ay qalmış qayıdıb, üstəlik istefa verməklə, özünü təqaüddən məhrum etməklə. Ölkədə siyasi gərginliyin olduğu bir vaxtda N.İmranovun dönüşü haqda o dövrün siyasi hakimiyyəti, AXC iqtidarı da məlumatlı olub. Bu dönüşün heç də yaxşı nəticələr verməyəcəyini təxmin etsələr də, lazımi addım atmağa tələsməyiblər. Hakimiyyətdəkilər qərar qəbul etməyə tələsmədikləri bir vaxtda N.İmranov gözlənilənlərin əksinə olaraq Gəncəyə yollanıb. Milli hakimiyyət devrildikdən sonra məlum olur ki, N.İmranov qiyamçı polkovnik Surət Hüseynovun əsas məsləhətçilərindən olub. Yeri gəlmişkən, S.Hüseynovla N.İmranovun qohumluq əlaqələrinin olması haqda da məlumatlar var. Hər iki şəxs kökəncə Qərbi Azərbaycandandırlar. N.İmranov 1944-cü ildə Qərbi Azərbaycanın Basarkeçər rayonunun (indiki Ermənistan Respublikası) Şişqaya kəndində anadan olub. 1961-1969-cu illərdə Azərbaycan Pedaqoji İnstitutunda təhsil alıb. 1975-ci ildə Naxçıvan MR-də komsomolun 1-ci katibi vəzifəsindən SSRİ DTK-nın ali məktəbinə oxumağa göndərilib. Məktəbi bitirdikdən sonra DTK orqanlarında fəaliyyət göstərib, 1986-cı il oktyabrın 4-də Azərbaycan DTK sədrinin müavini təyin edilib. 1988-1993-cü illərdə SSRİ təhlükəsizlik orqanlarında müxtəlif vəzifələrdə çalışıb.

1993-cü ilin yayında AXC hakimiyyətinin süqutundan sonra, iyulun 3-də Nəriman İmranov milli təhlükəsizlik naziri vəzifəsinə təyin edilib. 1994-cü ilin may ayının 15-də ona general-mayor rütbəsi verilib.

1994-cü il oktyabr ayının 15-də N.İmranov bir qrup şəxsin MTN-in təcridxanasından qaçırılmasının təşkilində iştirakda, vətənə xəyanətdə təqsirləndirilərək həbs olunub və ömürlük azadlıqdan məhrum edilib. 2002-ci ildə prezident Heydər Əliyev N.İmranovu əfv edib və o, azad olunandan sonra Rusiyaya yollanıb. Bu illər ərzində N.İmranovun adı gündəmə 4 iyun qiyamı ilə bağlı xatirələrdə gətirilirdi. N.İmranov isə Rusiyada oturub susmağa üstünlük verirdi.

Onun yenidən siyasi səhnəyə qayıtmasını öz saatını, vaxtını gözləməsi kimi də dəyərləndirmək olar. Vaxtilə Abbas Abbasovun kuratoru olmuş N.İmranovun bu gün də Surət Hüseynovla əlaqələrinin olması haqda məlumatlar var. Maraqlıdır ki, N.İmranovun yaratdığı təşkilatda sabiq müdafiə naziri Rəhim Qazıyevlə yanaşı Surət Hüseynovun da adı hallanıb. R.Qazıyev təşkilata hər hansı bir formada bağlılığının olmadığını bəyan etsə də, S.Hüseynov hələ də susur. Susmaq isə həmişə razılıq əlaməti kimi qəbul olunur...

Nəriman İmranovun gözlənilmədən ictimai-siyasi fəaliyyətə başlaması yeni və daha təcrübəli kadrların Azərbaycan uğrunda mübarizəyə qoşulması kimi də qiymətləndirilir. Görünən odur ki, Rusiya siyasi dairələri Azərbaycanı öz nüfuz dairəsinə qaytarmaq üçün yeni oyuna başlayıblar. Komandanın başçıları ortadadır, onların ətrafına toplaşacaq üzvlərinin meydana çıxmasına da elə də çox vaxt qalmayıb.

Sonda bir məsələni də xatırladaq. Ötən ay Abbas Abbasov "Milyarderlər İttifaqı" kimi tanınan Rusiya Azərbaycanlıları Təşkilatları İttifaqı (RATİ) adlı təşkilatın rəsmən buraxıldığını elan etdi. Mətbuat bunu Moskvanın Azərbaycan hakimiyyəti ilə anlaşması, ölkəmizi özünün nəzarətindəki agentlər vasitəsi ilə qarışdırmaqdan imtina kursu kimi təqdim etdi. Lakin görünür, Kreml Azərbaycan hakimiyyətini gərginlikdə saxlamaqda maraqlıdır. Rusiya daha "çox basqı, daha çox güzəşt" taktikasına bu dəfə hərbçiləri də qatıb. Abbas Abbasovun da bu hərəkatda yaxından iştirak edəcəyi, əsas fiqurlardan olacağı indidən istisna edilmir.

❑ **E.HÜSEYNOV**

# Corat sahilində İbiza tarifi



**Xalid KAZIMLI**

**Iyulun son, avqustun ilk günləri ölkəmizdə anomal istilər olur, bilirsiniz. Bu vədələr yaylağa çıxanlardan fərqli olaraq, insanlar qovurucu istidən yaxa qurtarmaq üçün dəniz sahilinə axışır. Ötən həftənin şənbə günü biz də elə etdik. Etibarlı termometrdə hərarəti 41.8 ölçərək, üzü dənizə doğru hərarətin 37-38-ə enəcəyi ümidi ilə yolumuzu Coratdan saldıq. Hava nə qədər isti olsa da, suyun hərarəti 27-dən artıq olmayacaqdı, əl-əlbət.**

O tərəflərdə yaşayan dost-tanış deyirdi, inanmırdım, mənim gördüyüm vaxtlarda buralarda dənizin sahili bu qədər də zəbt olunmamışdı. İndi isə sahil boyunca restoranlar bir-birinə söykənib. İki-üç il öncə beləydi ki, restoran adıyla zəbt olunmuş sahildə, iaşə obyektinin həyətində maşını saxlayıb dəniz sahilinə enmək, orda 1 kvadratmetrlik qum sahəsini kirayələmək və dənizə baş vurmaq olurdu. Heç demə, vəziyyət artıq dəyişib.

Bizim və həyətinə buruldüğumuz "Xanəgah" restoranının sahibinin şanssızlığından, belə bir hadisə baş verdi. Biz maşını əyləyəndə kabinetlərdən, çətirlərdən ibarət restoranın "baş ofisi"ndən bir ağsaqqal və 16-17 yaşlarında bir gənc çıxaraq bizə yaxınlaşdı. Ağsaqqal soruşdu: "Oturacaqsınızmı?". Dedik, əsasən uzanacağıq və çiməcəyik. Ağsaqqal yenidən soruşdu: "Yəni yemək yeməyəcəksiniz?" Dedik, yox, sadəcə, sahilə enib dənizə girəcəyik. Bir də soruşduq ki, bəs buradan dənizə tərəf getmək üçün cığır, yol-riz varmı. Ağsaqqal bizə yolu göstərməkdəykən, gənc müdaxilə etdi: "Olmaz, olmaz. Yemək yeməyəcəklərsə, bura düşə bilməzlər, maşın da saxlaya bilməzlər".

Ağsaqqal güman ki, gözətçiydi və maşın saxlama işlərinə də baxırdı, ona görə də dedi ki, nə olacaq, qoy saxlasınlar. Gənc isə görünür, restoran sahibinin əziziydi və daha səlahiyyətliydi, dedi, yox, olmaz, burda maşın saxlamaq üçün oturub yemək yeməlidirlər və ən azı 40 manat hesab verməlidirlər.

Bu məzənnə bizə qəribə göründü. Dedim, ay oğul, bəlkə mənim cibimdə 5 manatım var və gücüm iki lavaşarası dönər yeməyə çatır, bu da bəs edir, ta niyə 40 manat verməliyəm. Gənc dedi ki, bizdə belədir, bura girən ən azı 40 manat hesab verməlidir, həm də biz dönər vermirik.

Daha höcətləşmədik, restoranın adını soruşdum, qürur duya-duya "Xanəgah" dedilər.

50 metr o tərəfdə hasarlanmış "xalq çimərliyi" varmış, 1 manat verdik, maşını saxlayıb istidən qurtulduq. Daha burada "parkovka" qiymətinin iri şəhərlərin mərkəzi yerlərində olduğundan artıq olmasına da fikir vermədik.

İndi vergi müfəttişlərinin, iaşə obyektlərinə nəzarət edən səlahiyyətli şəxslərin diqqətini "Xanəgah"ın tarif siyasətinə cəlb etmək istəyirəm. Onlar bir maraqlansınlar, bu necə bir iaşə obyektidir, necə xidmətdir ki, başını qapıdan içəri salan ən azı 40 manat verməlidir. Qapnı açıb oturanda dərhal pul yazan taksi sayğacıdır, nədir?

Dünyanın hansı ölkəsində, hansı kurort şəhərində, tətil kəndində belə bir tarif var? Bunun adı iaşə xidməti ola bilməz, bu, soyğunçuluq kateqoriyasına aiddir. Qoy müfəttişlər bu yazıdan şikayət ərizəsi kimi istifad edib "Xanəgah" rəhbərliyindən suallarına cavab alsınlar. "Bizdə qiymətlər belədir" deməklə deyil ki. "Belə qiymətlər"in, aran camaatı demişkən, "ebilə" vergisi də olur, baxaq görək doğru-dürüst ödəyirlərmi?

İstirahət məqsədilə qonaq getdikləri ölkələrdə infrastrukturun, xidmətin, komfortun yüksək səviyyəsindən, qiymətlərin ildən-ilə aşağı endirilməsindən gen-bol yazan dost-tanış bu dəfə də haqlı çıxır. Turizmdən milyardlar qazanan ölkələr ildən-ilə daha çox xidmət, daha aşağı qiymətlər təklif etdikləri halda, bizimkilər dəniz qırağında iki daxma tikən kimi adama İbiza qiyməti oxuyurlar. Bu xudmət 17-25 yaşlı ofisiant gənclərin əvvəldə "nə yeəssiz" sualı ilə başlayır, sonda dörd adamın yediyi yeməyə görə bir kazarma əsgərin iki günlük ərzağının parası qədər hesab istəyəndə və buna heyrət doğuranda "bizdə belədir" cavabıyla bitir.

Bəli, bizdə belədir: acgözlük, tamahkarlıq, nadanlıq. Biz hələ turizm sektorundan, iaşə xidmətindən pul-para qazanmağın elementar qayda-qanunlarını bilmirik. Bizimki odur ki, təsadüfən əlimizə düşən 2-3 müştəridən 15 adamın pulunu alaq.

Bu tamahla bizdən turizm sektoru inkişaf etdirən olmaz.

**P.S.** *Bilməyənlər üçün deyim ki, İbiza İspaniya tərəflərdə sırf tirzmlə dolanan möhtəşəm kurort adasıdır.*



# Alınmır ki, alınmır...

Hüseynbala SƏLİMOV

**İyul da keçdi. Nə yaxşı ki, dünyada xarici siyasət varmış! Bu isti yay günlərində o, bir saat olsa belə, bizi darıxmağa qoymadı. Ölkənin içində isə... Mən burada məktəb illərindən bir detalı xatırlamaq istəyirəm...**

Bizim sinifdə bir nadinc oğlan vardı. Civə kimi bir saat bir yerdə dayanmazdı.

Amma müəllim onu növbəti dəfə danlamaq üçün ayağa qaldıranda elə heyrətlə və təəccüblə baxırdı ki, sanki niyə danlandığının səbəbini başa düşə bilmirdi...

İndi bizim hakimiyyət də bu isti yay günlərində öz işindədir, bircə an dayanmır. Amma bir müddətdən sonra bu "iş"lərə reaksiya olanda özünü elə aparacaq ki, sanki heç nə başa düşmür...

Fəqət, hər şey göz önündədir. Hər şey başadüşüləndir. Deyilənə görə kriminal aləmin öz qanunları var - kiçik səhv belə bağışlanmır..

Mən indi ölkə siyasətinin bəzi təfərrüatlarına baxanda haradasa bununla oxşarlıq görürəm - bir kimsə "tabu"lara toxuna bilməz, əgər toxunsa, buna görə mütləq cəzalandırılacaq...

Absurd sözünü indi çox mənalarda işlədirlər. Amma o, mənə daha çox ilk dəfə V.Havelin işlətdiyi kontekstdə yaxındır. Bu baxımdan yanaşanda indi dünyanın ən absurd ölkələrindən birində dünyanın ən absurd məhkəmələri gedir və biz də bu məhkəmələri seyr etməklə məşğuluq...

Əgər bu ölkənin məhkəmələrini tanımasydıq bunu çox adi bir iş kimi qəbul edər və çox sakit yanaşardıq: vətəndaş məhkəməyə çəkilə bilər və o, həqiqətən də təqsirsizdirsə, bunu sübut edəcək və hər şey bitib keçəcək...

Amma... "Amma"sı isə budur ki, yenə də yadıma bir detal, daha doğrusu, bir lətifə düşdü. Görürlər ki, dovşan bərk qaçır. Soruşurlar ki, ay dovşan, nə olub, niyə qaçırsan? Deyir ki, meşəyə komissiya gəlib, kimin üç qulağı varsa kəsir...

Deyirlər ki, sən niyə narahatsan, sənin ki, iki qulağın var?! Dovşan qayıdır ki, yox, əvvəl kəsir, sonra isə sayırlar...

Qərəz, klassik bir lətifədir, hamı bəlkə bunu əzbər bilir... Amma məntiq həmin məntiqdir: əvvəl kəsir, sonra isə sayırlar...

Qayıdaq əvvələ, necə deyərlər, mətləb üstünə... Dedik ki, iyul da keçdi. İndi bizi seçkinin fəal fazasından olsa-olsa, bircə ay ayırır. Bir aydan, ay yarımdan sonra nəhayət ki, buzlar əriyəcək və seçki haqqında danışmağa başlayacaqlar...

Yenə də yadıma bir detal düşür. Prezident seçkilərilə bağlı ikidəfəlik məhdudiyyət götürüləndə deputatlar öz problemlərini də həll etməyə cəhd etdilər və qayıtdılar ki, ölkədə müharibə getdiyi bir vaxtda hər beş ildən bir xərc çəkib parlament seçkiləri keçirməyə ehtiyac varmı?..

Təsəvvür edirsinizmi? Hətta deputatların da ürəyindən ömürlük deputat olmaq keçir... Amma niyə də yox? Məsəl var, deyirlər ki, iştah yemək vaxtı gəlir...

Jurnalistlik fəaliyyəti zamanı adam çox şey görür, çox şey eşidir. Mən də bir neçə dəfə bizim şanlı deputatlarımızla söhbətlərdə iştirak etmişəm...

Amma hər dəfə özümü bir sualı verməkdən zorla saxlayırdım: axı sən kimi və nəyə görə sorğu-suala tutmusan?... Axı bu adamlar bir neçə dəfə deputat olsalar da, hələ də əsl seçkinin və həqiqətən seçilməyin nə demək olduğunu və əsl qələbə fərəhinin necə yaşandığını bilmirlər!..

İndi biz belə bir "siyasi material"la növbəti seçkiyə getməliyik... İnanın, mən həqiqətən də istəyirəm ki, hakimiyyət "köhnə üsul"lara əl atmadan seçkini uda bilsin. Amma "köhnə üsul"larsız keçinmək mümkün olacaqmı?..

Doğrusu, düşünürdüm ki, Avropa oyunları kimi məsələlər hakimiyyətin reytinqini çox artıracaq. Amma yox, insanlar çox diqqətlidir. Onlar belə zahiri parıltıya aldanmırlar. Hətta sizə deyim ki, adi bir detal bu hakimiyyəti insanların gözündə endirir. Bu yaxınlarda təyyarə biletlərilə bağlı belə oldu və AZAL-ın çox çətinliklə biletlərin qiymətini aşağı salmağa iki dəfə cəhd etməsi həqiqətən də adamlarda gülüş doğurdu...

Yenə də bu günlərin söhbətidir. Dərmanların qiymətlərinin aşağı salınması elan ediləndən bir gün sonra bir tanışıma rast gəldim. Söhbət bu yerə çatanda əlini yelləyərək güldü... Doğrusu, mən bunun səbəbini başa düşmədim. Amma tanışım belə məsələlərdə çox ciddi adamdır, deməli, nəsə var ki, buna gülməklə cavab veirir...

Bunları niyə görə deyirəm? Bir rus mahnısında deyilir ki, onlar nə edirlərsə alınmır, sanki anaları onları bazar ertəsi doğub. İndi elə biz də nə ediriksə, heç bir şey alınmır... Bəli, alınmır ki, alınmır...

# Murad Köhnəqaladan "Yeni Müsavat"a hücum edənlərə şillə kimi cavab

**"Belə ört-basdır işlərinə görə qəzetçilikləri də inkişaf eləmir"**

**Tanınmış yazar-şair Murad Köhnəqala sosial şəbəkədə son günlərin ən aktual mövzularından birinə münasibət bildirib. "Cəbhə-Müsavat gərginliyinə bir arayış" təqdimatlı açıqlamada Köhnəqala medianın bu məsələdə tutmalı olduğu rol mövzusuna da toxunub.**

Yazar fikrini aşağıdakı formada başlayıb: "Cəbhədən narazılıq eləyənlərin ürək sözlərini çap elədiyinə görə "Azadlıq" qəzeti "Yeni Müsavat"a hücumlar eləyir, qəzetin baş redaktorunu hakimiyyətə işləməkdə suçlayır.

Hər iki tərəfi babat tanıyan biri kimi bu yazımla məsələyə azacıq müdaxilə etmək istəyirəm.

Dostlar, hamıya məlumdur ki, Mirzə Sakitin cəbhəçilərə birinci dalğa etirazı "Azadlıq"da çap imkanından məhrum olandan sonra cücərdi. Dalbadal narazılıq və konfliktlərdən sonra Mirzə Cəbhəni tərk etmək qərarına gəldi. O vaxtdan bəri "Azadlıq"da Mirzənin nəinki bir yazısını çap eləmək, şairin hətta adını belə (elə mənim də adımı) çəkmək yasağa çevrilib. Bu halda sual yaranır: bəs onda ələcsiz Mirzə Sakit "Yeni Müsavat"a danışanda niyə həm satirikin özü, həm də qəzetin baş redaktoru satqın elan olunur? Yaxşı, "Yeni Müsavat"a danışan satiriki niyə bircə dəfə də olsun "Azadlıq" özü söylətmir? İkinci bir əhvalatda: nədən Ağaşirin Tanrıverdioğlunu söz demək üçün "Azadlıq"a buraxmayan cəbhəçilər onun "Yeni Müsavat"a verdiyi müsahibələrinə görə Rauf Arifoğluna araqızışdıran damğası vururlar? Bəylər, sizin fikrinizcə, Ağaşirin bəyi "Yeni Müsavat" qəzeti də öz qapısından qovub ürəyini partlatmalıdır?"



Murad Köhnəqala

M.Köhnəqala daha sonra Q.Zahidin qardaşı oğlu Tariyel Zahidovun verdiyi müsahibəyə də toxunub: "Qənimət Zahidin televerilişinə görə onun kənddəki qohumları tutuqlananda qardaşı oğlu bu hadisəyə geniş şərh verib televiziyanın dayandırılmasını arzu elədi, həm də Əmisi Qənimət bəyin bir əmi kimi heç də keyfiyyətli adam olmadığından söz açdı. Tariyel bəy xaricdən internet vasitəsilə əlaqə saxlayaraq "Yeni Müsavat"a dərdini danışıb. Tariyel bəy həm də Qənimət bəylə gərgin münasibətdə olan Mirzə Sakitin kürəkənidi. "Azadlıq" qəzeti yenə başlayıb ki, jurnalist kimi dövlətdən ödüllənən Rauf Arifoğlu Tariyel bəyin o yazısını hakimiyyətə satıldığına görə çap eləyib.

A kişilər, siz də qəzetsiniz, o boyda jurnalistiniz mövcuddur, belə çox marağınız varsa, Tariyel bəyi arayıb tapın, qoyun bu dəfə də sizə danışsın. Münasibəti çap eləmək haçandan satqınlıq olub? İkincisi, ödülə qalarsa, elə keçən il "Azadlıq" qəzetinin iki əməkdaşı mənzillə təmin edilmədimi? O jurnalistlər sizin qəhrəman elan elədiyiniz Qənimət bəyin işçiləri deyilmi? Və sairə..."

M.Köhnəqalanın statusunun altında da xeyli müzakirələr gedib. Onu dəstəkləyənlərlə yanaşı, fikirlərinə daha da aydınlıq gətirməsi üçün əlavə suallar verənlər də olub. M.Köhnəqala bu məqamda da qəzetçiliyin qızıl qaydalarından sitat gətirib: "Şəxsən mən qəzetçi olsam, mübahisə doğuran adamı nəinki bircə dəfə söylətmək, əksinə, cəmiyyətin durulması naminə, insanları tam tanıtmaq naminə, onu çox söylədib belə hadisələrin dibinə qədər gedib çıxaram. Ancaq bunlar xırdaca bir aydınlıq yaratmaq cəhdinə görə Rauf Arifoğlunu satqın çıxarırlar. Belə ört-basdır işlərinə görə də qəzetçilikləri inkişaf eləmir".

❑ Hazırladı: SEVİNC

# Tanınmış müxalifət namizədləri seçki dairələrində toqquşacaqlar

## Partiyalar bu vəziyyətlə qarşılaşmamaq üçün nə etməlidirlər? **Elman Fəttah:** "Ola bilər, kimlərinsə namizədliyi Məclisdə təsdiqlənməsin..."

**1 noyabrda keçiriləcək parlament seçkilərinə üç aydan az vaxt qalıb. Hazırda seçki kampaniyasına rəsmi start verilməsə də, siyasi partiya və təşkilatlar seçki hazırlıqları istiqamətində işlərə başladıqlarını bəyan edirlər. Əksəriyyət hazırlıq işləri sırasında daha çox deputatlığa namizədlərinin dairələr üzrə müəyyənləşdirilməsini qeyd edirlər.**

Artıq bir sıra partiyalar dairələrin üçdə ikisindən namizədlərinin bəlli olduğunu açıqlayıblar. Seçki dairələrində müxalifətdən olan nüfuzlu namizədlərin bir-birinə rəqib olmaması, toqquşmaması üçünsə indidən hansısa razılaşmalar, uzlaşmaların əldə edilməsi istiqamətində hansısa iş aparıldığı haqda isə açıqlamalara rast gəlinmir. Belə çıxır ki, ya müxalifət partiyaları bu işi gizli aparırlar, ya da heç bir iş getmir və dairələrdə müxalifətdən olan tanınmış namizədlərin rəqib olması və beləliklə də səslərin parçalanması ehtimalı böyükdür.

Bu mövzuda "Yeni Müsavat"a danışan Müsavat Partiyası başqanının müavini Elman Fəttah bildirdi ki, hakimiyyət tanınmış müxalifətçilərin namizədliyinin rəsmi qeydiyyatına problemlər yaratdığı üçün indidən namizədlər arasında razılaşmalar üçün danışıqlar aparmaq effektsizdir: "Məsələ burasındadır ki, Azərbaycan hakimiyyəti seçkilərə olan münasibətdə təkcə təbliğat imkanlarını məhdudlaşdırmaqla, seçkini saxtalaşdırmaqla kifayətlənmir. Namizədlərin qeydiyyata alınması prosesində ciddi qanunsuzluqlara yol verilir. Ona görə Müsavat Partiyası olaraq biz düşünür ki, öncə namizədlər irəli sürülməlidir. Qeydiyyatdan keçmiş namizədlər arasında əgər toqquşma olarsa - bir dairədə bir neçə nüfuzlu müxalif namizəd olarsa, həmin vaxt məsləhətləşmələrə başlamaq lazımdır. İndi belə məsləhətləşmələrin effekti yoxdur. Ona görə ki, kimin namizədliyinin qeydə alınacağını indidən dəqiq bilmək olmur. Çünki bu proses qanunla yox, təəssüflər olsun ki, rejimin iradəsi ilə tənzimlənir. 2010-cu il parlament seçkilərində 70-dən artıq kifayət qədər ciddi namizədin qeydə alınmasını qanunsuz olaraq ləğv eləmişdilər. Bu gün Avropa Məhkəməsində şikayətlərin ən böyük həcmi 2010-cu ildə namizədliyin qeydə alınmaması ilə bağlı olan şikayətlərdir. Müsavat Partiyası olaraq biz çalışacağıq ki, Müsavatın nüfuzlu namizədlərinin olduğu dairələrdə başqa nüfuzlu müxalif namizədlərlə toqquşma olmasın, belə dairələrdə olan namizədlərlə danışıqlar aparmağa çalışacağıq. Müsavatçı olmayan hər hansı nüfuzlu şəxsin namizədliyi olan yerlərdə də biz bu məsələyə diqqətlə yanaşmağı, uzlaşma əldə etməyi nəzərdə tuturuq".



Elman Fəttah

"Qeydiyyat prosesi bitdikdən sonra Müsavatın hansı siyasi qüvvələrlə konkret dairələrlə bağlı uzlaşma əldə etmək istiqamətində məsləhətləşmə aparmasını mümkün hesab edirsiniz" sualına E.Fəttah belə cavab verdi: "Ümumiyyətlə, indilikdə heç bir siyasi partiya ilə danışıqlar yoxdur. Müsavat Partiyası uzun müddət çox cəhd elədi ki, əməkdaşlıq və müttəfiqlik münasibətləri çərçivəsində siyasi partiyalarla müəyyən işlər görsün. Amma təəssüflər olsun ki, biz digər siyasi partiyaları bu peşəkar siyasi fəaliyyətə cəlb edə bilmədik və onlar bu prosesə qoşulmağa həvəs göstərmədilər. Ona görə də biz bu istiqamətdə addımları namizədlərin rəsmi qeydiyyatı başa çatdıqdan sonra başlayacağıq. Yenə də bizim nəzərimizdə var ki, istənilən halda müxalif siyasi düşərgəyə aid olan müxtəlif partiya və təşkilatlarla ən azı seçkilərin müşahidəçiliyi, sənədlərin birlikdə toplanması müstəvisində müəyyən bir əməkdaşlığa nail olaq".

E.Fəttah hazırda Müsavat Partiyasının namizədlərinin müəyyənləşməsi prosesinin davam etdiyini və namizədlərin Məclis tərəfindən təsdiqlənəcəyini söylədi: "Namizədlərin siyahısının müəyyənləşməsi işi, yəqin ki, yaxın günlərdə yekunlaşacaq. Avqustun sonu Müsavat Partiyasının Məclisi çağırılacaq və namizədlərin təsdiq olunması haqqında qərar qəbul olunacaq. Bu, seçki qanunvericiliyinin və Müsavat Partiyasının Nizamnaməsinin tələbidir. O ki qaldı hazırda namizədliyini irəli sürən şəxslərdən kimlərinsə namizədliyinin Məclisdə təsdiq olunmaması ehtimalına, tamamilə mümkündür ki, kimlərinsə namizədliyi Məclisdə təsdiq olunmasın. Bunu Məclis üzvlərinin səsverməsi müəyyən edir. Xüsusilə bir dairəyə bir neçə iddiaçının olduğu dairələrə görə rəqabət olacaq. Kim daha çox nüfuza sahibdirsə, təbii ki, Məclis onun namizədliyini təsdiq edəcək. Biz Müsavat Məclisinə bu məsələlərin bütün sənədləşməsini yekunlaşdıraraq çıxaracağıq. Müsavatda namizədliyin irəli sürülməsi və sair məsələlər ciddi rəsmi prosedurlardan keçir".

❑ Etibar SEYİDAĞA

# “Real təhlükə artıq qapıdadır”

## Fazil Mustafa: “Bəzi insanların həbsdə saxlanması yaxşı hal deyil”

**“Baxış bucağı”**

**Parlament seçkisi ilində, xüsusilə də seçkilərə 90 gündən də az zaman qalması şəraitində Azərbaycanın siyasi gündəmini tamam ayrı mövzular zəbt edib. Uzaq-yaxın demokratik ölkələrin təcrübəsində isə seçkilər ölkə vətəndaşının taleyüklü məsələsi olduğu üçün aparıcı mövzu olur və digər məsələlər arxa plana keçir. Böyük Quruluş Partiyasının (BQB) sədri, deputat Fazil Mustafa “Yeni Müsavat”a müsahibəsində bu situasiyanın obyektiv və subyektiv səbəbləri barədə danışdı.**

***- Fazil bəy, parlament seçkilərinə artıq 3 aydan da az zaman qaldı. Seçki ili olduğunu hiss edirsinizmi?***

- Azərbaycanda seçkilərin son illərdə daha ajiotajsız keçməsinin səbəbi müxalifətin ildən-ilə gücünün azalması ilə bağlı olsa da, digər faktorları da diqqətdən qaçırmamalıyıq. Çevrəmizdəki ölkələrdə baş verənlər insanları daha tələtümsüz, qarşıdurmasız dəyişiklik barədə düşünməyə alışdırmış. Hətta siyasiləşməmiş insan qrupları belə, hansısa sərt dirənişin idarəolunmaz xaosa çevrilməsi qorxusu içindədir. Ona görə də siyasətdənkənar çoxluğun siyasətə bulaşmamaq barədə səssiz qərarı hiss olunur, bu səssizlik isə bütün hallarda hakimiyyətin xeyrinə işləyir və ona görə də seçki ilinin necə hiss olunması ancaq iqtidarın istək və davranışı ilə əlaqələndirilir. Yəni iqtidar istədikdə canlanma olacaq, istəməzsə, hər şey köhnə qaydasında gedəcək.

***- Siz özünüz də partiya sədrisiniz. Nədən siyasi partiyalar gözləmə mövqeyindədir? Sanki hakim partiya müxalifəti, müxalifət də YAP-ı gözləyir. Bu, normaldırmı?***

- Azərbaycanda partiya demokratiyası zəif səviyyədə olduğuna görə onların edə biləcəyi cəhdlərin cəmiyyət həyatına əhəmiyyətli təsiri olacağını düşünmürəm. Əgər partiyalar öz proqramı və kadr arsenalı ilə bir siyasi institut kimi seçki rəqabətinə qoşula bilmirsə, o zaman onların inkişafı üçün ciddi bir stimul yaranmır. Proporsional seçki sistemi partiyanın cəmiyyətə açılımıdır, onunla daha məsuliyyətli təmasıdır və hər şeydən öncə rəqabətə davamlılıq potensialının yoxlanışıdır. Partiyanın məqsədi həm də hakimiyyətə gəlməkdir, hakimiyyətin də bir qolu qanunverici orqandır. Hökumət koalisiyası imkanı yox, müxtəlif təftiş-nəzarət qurumlarında təmsilçilik imkanı yox, fraksiya yaratmaq imkanı yox, o zaman partiyaların sistemli fəaliyyətindən daha çox, fərdlərin partiya adından çalışması, mövqe qazanması daha qalıcı bir reallığa çevrilir. Hətta hakim partiyanın özü də siyasi proseslərə yön vermək imkanına sahib deyil, çünki qanunverici orqanda partiya modeli kimi deyil, dövlətin idarə olunmasına yardım etməklə kifayətlənən məhdud bir fəaliyyəti öz üzərinə götürüb. Bu isə partiya demokratiyasının inkişafına mənfi təsir göstərir.

***- Seçkilərin nəticələrinin tanınması bu dəfə ənənəvi qaydada müzakirə və mübahisə predmetinə çevrilə bilərmi? Hakimiyyət ATƏT və Avropa Şurasına seçkini müşahidə üçün dəvət göndərib, lakin beynəlxalq qurumlarla münasibətlər heç də normal deyil. Bu mənada seçkisonrası situasiyanı necə təsəvvür edirsiniz?***

- Bu məsələdə hakimiyyətin arqumentləri Avropa qurumlarından daha güclüdür. Təbii ki, Avropa qurumlarından uzaqlaşmaq bizim üçün doğru seçim olmazdı, hətta qarşılaşdığımız ədalətsizliklərin miqyası böyük olsa belə. Bu məkandan biz fayda və dəstək gözləməsək də, orada mövcudluğumuz əleyhimizə olan total hücumları, Ermənistanın daha imtiyazlı bir mövqeyə çıxarılmasına mane ola bilir. Bununla belə, Avropa oyunları zamanı istər Avropa İttifaqının, istərsə də Avropa Şurasının açıq qərəzli mövqe nümayiş etdirməsi bu qurumların Azərbaycan üzərində etimadını və təsirini xeyli azaltdı. Əvvəllər hətta neytral insanda belə az da olsa ümid vardı ki, Azərbaycanda insan haqlarının vəziyyəti buradakı təmsilçiləri narahat edir və səmimi şəkildə müəyyən nöqsanların ortadan qaldırılmasını istəyirlər, lakin indi baxış bucağı xeyli dəyişmiş oldu. İnsan haqları artıq Avropa qurumları üçün alver vasitəsindən başqa bir şey kimi sezilmir. Üstəlik də Ermənistanı işğalçı dövlət kimi tanıyaraq sanksiyalar tətbiq etməkdən yayınan bu qurumların, halımıza necə yanmasını görməkdə çətinlik çəkmərik. Ona görə də bu qurumların müşahidə edib-etməməsinin və ya verdiyi rəyin hansısa problem yaradacağını inandırıcı saymıram.

***- Yəqin ki, şəxsən seçkidə iştirak qərarınız var. Bəs, dairə seçimində necə, dəyişiklik ola bilərmi?***

- Seçkidə iştirak etmək niyyətim var. Hələlik yeni dairə barədə düşüncəm yox, seçicilərini daha yaxşı tanıdığım dairədə resurslarımın daha güclü olduğunu düşünürəm.

***- KXCP-nin qurultayında sizi görmədik. Uzun illər bir partiyada fəaliyyət göstərdiyiniz keçmiş cəbhədaşlarınızın ali tədbirində iştirak etməməyiniz nə ilə bağlı idi?***

- Dəvət olunmuşdum, sadəcə, rayondaydım, sırf texniki səbəbdən iştirak etmədim. Ancaq Mirmahmud bəyə dəvət edərkən təbriklərimi çatdırdım.

***- Hakimiyyətdən əfvlə bağlı gözləntilər özünü doğrultmadı. Hazırda Tofiq Yaqublunun səhhətində problemlər yaşanır. Belə bir situasiyada təklifiniz nədir?***

- Dəfələrlə bəyan etmişik ki, Tofiq Yaqublu kimi bir Qarabağ qazisinin, həm də müxalifət partiyasının sədr müavininin bu qədər həbsdə saxlanması yanlışdır və onun azadlığa buraxılmasını iqtidarın ən doğru qərarlarından biri olacağına inanıram. Təəssüf ki, səsimiz eşidilmir, ancaq ölkənin imici üçün hansı motivlə olursa-olsun, bəzi insanların həbsdə saxlanması yaxşı hal deyil.

***- Qənimət Zahidin, Emin Millinin qohumlarının həbsi, ikincinin qohumlarının isə ondan imtina bəyanatından, yəqin, sizin də xəbəriniz var. Sizcə, nə baş verir, belə vəziyyət Azərbaycan üçün nə vəd edir?***

- Siyasi və ictimai fəaliyyətdə belə presedentlərlə qarşılaşmaq olur. Ancaq burada qohumların hansı motivlərlə imtina etməsi maraqlıdır. Belə bir hüquqi prosedur yoxdur, bu sadəcə bir qınaq prosedurudur. Bu da qohumların seçimidir, hər halda daha sağlam qohumluq əlaqəsi olan insanlarla bağlı belə hadisələr baş vermir. Yaxşı hal deyil, ancaq ictimai-siyasi fəaliyyətlə məşğul olan insanlar belə sürprizlərdən sığortalana bilməzlər.

***- AZAL-dakı qiymətlərdən siz də şikayətlənmişdiniz. Doğrudanmı, prezident iradəsindən də yuxarıda iradə sahibi var? Cahangir Əsgərov kimə və nəyə arxayındır?***

- Burada sadəcə iki prinsipdən biri işləməlidir: özüm çox qazanım, vətəndaş cəhənnəmə və yaxud da özüm normal qazanım, vətəndaş da xidmətimdən razı qalsın. Hələlik birinci prinsip seçildiyindən, həm prezidentin iradı, həm də bizlərin tənqidi bu şirkəti ikinci prinsip üzərində işini qurmağa çağırışdır. Ümid edək ki, ora-bura oyalanmadan bu çağırışı ciddi qəbul edəcəklər və vətəndaşa qarşı soyğunçuluğa son qoyacaqlar.

***- Qarabağa sülhməramlıların yerləşdirilməsi, Azərbaycanda Avrasiya Hərəkatının yaradılması və bu kimi məsələlər gündəmin əsas müzakirə mövzularına çevrilməkdədir. Bütün bunlar real təhlükədən xəbər verir, yoxsa keçici polemikalardır?***

- Artıq real təhlükədən xəbər verməyin yeri yoxdur. Real təhlükə qapıdadır və bu yanğını hansı küləyin haraya daşıyacağı riskini bütün insanlarımız görməlidir. Bu gün Azərbaycanda hər bir insanın əsas hədəfi sadəcə hakimiyyət naminə deyil, birbaşa öz marağı naminə sabitliyi qorumaqdır. Elə məsələlər var ki, orada tərəddüdsüz uzlaşma yolu seçilməlidir. Qarabağda sülhməramlıların yerləşdirilməsi terminini yaxına buraxmaq indiki halda ölkəmiz üçün təhlükəlidir. Sülhməramlılar torpaqlar işğaldan azad olunduqdan sonra ancaq Azərbaycanın razılığı ilə Ermənistanla bütün dövlət sərhədi boyunca yerləşdirilə bilər. Avrasiya Hərəkatının isə ciddi bir qurum olaraq yaradılması barədə məlumatım azdır. Hər halda başqa ölkələrə işğalçılıq üçün dəvət göndərməyə çalışan qüvvələrə cəmiyyət olaraq sərt mövqe göstərməliyik. Bu Vətənə toyda iştirak üçün xaricdəki dostların dəvəti hamımızın ürəyincədir, lakin müstəqilliyimizə toy tutmaq üçün xaricə dəvət göndərənlərin nikah tortunu yemək olmaz.

***- Fazil bəy, son günlər avtomobil qəzalarında və dənizdə həlak olanların sayı sürətlə artmaqdadır. Normalda bu fəlakətlərdən xilas yolları ümummilli müzakirələrə səbəb olmalıdır. Lakin biz hətta Qarabağ cəbhəsindəki itkilərimizi də ümummilli diskussiyaya çevirə bilmirik. Sizin bu kimi bədbəxt hadisələrdən sığortalanmaq üçün konkret təklifiniz varmı? Özü də həlak olanların əksəriyyəti gənclər, potensial döyüşçülər...***

- Bu, çox üzücü bir haldır və hər dəfə insanların bu kimi qəzalarda doğan faciəsini eşidərkən, nəyinsə yerində olmadığını düşünürsən. Bütövlükdə hər bir insan özünün qoruyucusu olmalıdır. Bir çox hallarda bu insanlar öz məsuliyyətsizliklərinin, səhlənkarlıqlarının qurbanına çevrilirlər. İçkili dənizə girmək, maşın sürmək, canqurtarıcı köynəyi geyməkdən imtina etmək, maşında kəmər taxmağa xor baxmaq xoşagəlməz nəticələr doğurur. Ancaq bir reallıq var ki, insanların hamısı qaydalara əməl etsəydi, dünyamız da fərqli olardı. Bütün hallarda yorulmadan profilaktik xəbərdarlıq tədbirləri görülməlidir. İnsanlara öz həyatına dəyər verməyə alışdırmalıyıq. O zaman başqasının da həyatına anlayışla, hörmətlə yanaşarlar. Yanımızda siqaret çəkən gəncə, maşınından zibil atan sürücüyə, vəhşicəsinə spirtli içmiş qohumumuza, tanışımıza, yolda xuliqanlıq edən kimsəyə yaxınlaşıb irad bildirməyi öz vəzifə borcumuz hesab etməyənə qədər laqeydlərin, dəyərsizlərin çoxluğu altında əzilməyə davam edəcəyik. Həm də o halda Qarabağ cəbhəsindəki hər itkini də öz ailə üzvümüzün itkisi kimi qəbul etmək əxlaqından da çox-çox uzaq olacağıq.

❑ **Elşad PAŞASOY**



**“Hətta hakim partiyanın özü də siyasi proseslərə yön vermək imkanına sahib deyil”**

**“Avropa qurumlarından uzaqlaşmaq bizim üçün doğru seçim olmazdı, hətta qarşılaşdığımız ədalətsizliklərin miqyası böyük olsa belə”**



# Şahdağın Sulutəpəyə gətirilməsi

Zamin HACI
zaminhaci@gmail.com

"Mastino minnətdarlıqla mırıldandı. O, yuxusunda sərin, xoş suları olan dağ gölündə üzdüyünü görürdü. Üzə-üzə o, kefi istəyən qədər su içir, özü də yavaş-yavaş suya çevrilirdi. Onun sudan quyruğu, su qulaqları və fəvvarənin şırnaqları kimi nazik, uzun dörd su pəncəsi var idi"

**(Canni Rodari "Çipollinonun macəraları")**

**Mən həmişə bu qənaətdə olmuşam, hər gün də bu fikrimi təsdiqləyən çoxlu faktlar görürəm: Azərbaycanda siyasi saxtakarlığın kökləri sosial saxtakarlıqdan su içir. Hökumət nə qədər yalançıdırsa, xalq, cəmiyyət də azı onun qədər yalançıdır. Yəni, bir-birimizin tayıyıq, uzağa getməyək. Gedib İsveçdən xalq və ya hökumət gətirəsi deyilik. Yəqin heç gəlmək də istəməzlər.**

Bakı dükanlarında marqans qatılmış kimi əcaib rəngi olan bir su satılır, adını da "Kəhriz" qoyublar. Ancaq bu suyun etiketində məlumat yerində yazılıb ki, su Abşeron yarımadasında, Zirə tərəfdə artezian quyusundan çıxır. Bəs, ay fırıldaqçı, buna nədən kəhriz sözünü yapışdırmısan? Bəyəm sən kəhrizin arteziandan fərqini bilmirsən? Gözəl bilirsən. Sadəcə, milləti aldatmaq sərfəlidir.

Hörmətli oxuculara məlumat üçün yazım, kəhriz bütün dünyada yayılmış qədim su çıxarma üsuludur, bu zaman maili quyular içindən adam keçəcək qədər böyük yeraltı arxlarla bir-birinə birləşdirilir, yığılan sular axırıncı quyudan üstə çıxır. Kəhrizin suyu adətən inanılmaz dərəcədə təmiz, duru, sərin olur. Uşaqlığımda Füzuli rayonunun Gorazıllı kəndi yaxınlığında belə bir kəhrizin içində olmuşam. Fantastik gözəl bir yer idi. İndi işğal altındadır. Artezian quyusu isə bir-birinə birləşdirilən, vertikal yerə sancılan metal borularla suyu çıxarmaqdır.

Yay olduğu üçün sulu yalanlardan yazıram. Bir yalan da "Şahdağ" adlı su qablarının üzərindədir. Ümid edirəm dövlətin İstehlakçı Hüquqlarını Qoruma Xidməti və Standartlar Komitəsinin başları rüşvət yığmaqdan açılanda bu yöndə tədbir görərlər. Çünki qabın üstündəki informasiyadan suyun doldurulma yeri "Şamaxı şossesi-5" ünvanıdır. Bura isə Bakının Sulutəpə yaşayış massividir. Şahdağ haçandan Sulutəpədə yerləşir? Axırıncı dəfə bu dağ Qusar rayonu ərazisində idi. Bəlkə iqtidardakı hansısa "Hacı İbrahim" dağı gətirib Xırdalana qoyubdur, xəbərimiz yoxdur?

Hər gün, hər yerdə müxtəlif belə məişət xarakterli yalanla, saxtakarlıqla qarşılaşırsan, adamlardan soruşmaq istəyirsən ki, qardaşlar, axı siz niyə belə edirsiniz, bunun xeyri nədir? Bəyəm o "Kəhriz" suyunu "Zirə", "Şahdağ" adı qoyulanı isə "Sulutəpə" adıyla satsanız üzüyünüzün qaşı düşər, gəliriniz azalar? Heç inanmıram. Əksinə, düzgünlük örnəyi verərsiniz, bəlkə satışlar artar.

Amma yenə yazıram, görünür o firmalar da millətimizi yaxşı tanıyır, "çoxbilmiş quşu hansı yerindən (məsələ dimdikdən - Z.H.) tutmağı" bilirlər. Hər kəs başqasını aldatmağı, kiməsə "atıb qabağa düşməyi" fürsət bilir, nəticədə millət olaraq geri düşürük, heç kim də qabağa getmir. Yaxşı yadıma düşdü, bir firma var, məşhur çips istehsalçısı "Lays"-ın faktiki loqosunu çırpışdırıb saxta "Liss" adlı çips buraxırdı. Mən bundan neçə il qabaq yazmışdım, guya hökuməti mübarizə aparmağa səsləmişdim. Bəs axırı nə oldu? Heç nə. Hökumət özü həmin çipsin saxtasını buraxdı! Qablaşdırma, loqonun rəngi tam "Lays"ın bənzəri olan, uşaqları aldatmağa yönələn həmin markanın adını "Çipsim" qoyublar, firma isə oliqarx-nazirlərdən birinə məxsusdur.

Sonda öz sahəmizə aid bir lətifə. Keçən ay hökumət jurnalistlərə ənam verəndə "Tərəqqi" medalı alanların sırasında bir "Kalaşnikova" soyadı var idi. Biz jurnalistlər uzun müddət fikirləşdik görəsən bu "avtomat-qələmli" xanım kimdir, hansı nöqtədə qələmi silaha çevirmişdir. Nəhayət, iki gün qabaq Gəncədə icra başçısı prezidentin mükafatlarını yerli şəxslərə çatdıranda Kalaşnikova ortaya çıxdı. Sən demə, bu adam "Novosti Qyandji" rusdilli qəzetinin baş redaktoru imiş. Bir növ fantom (kabus) qəzetdir, hələ görən olmayıb. Çünki hazırda 300 min camaatı olan Gəncədə nəinki rusca, heç azərbaycanca qəzet çıxmır.

# Pentaqonda kritik Qarabağ danışıqları - gerisayım başlayır...




# Obama prezidentləri Nyu-Yorka toplayır

## Əliyevlə Sərkisyanın Amerika görüşünə Putinin də qatılacağı iddiası ciddiləşir; ABŞ sülhməramlılar məsələsində təşəbbüsü Rusiyaya verə bilər, ancaq hansı geosiyasi güzəştin qarşılığında - rəsmi Bakıya "hesab makinası" lazımdır...

**Ötən həftəsonu Azərbaycanın müdafiə naziri Zakir Həsənov Moskvada, Ermənistanın müdafiə nazirinin 1-ci müavini David Tonoyan isə Vaşinqtonda səfərdə oldular. İlk baxışda təəccüblü görünən belə səfər marşrutlarında əslində qeyri-adi bir şey yoxdur, çünki vaxtaşırı bu cür kontrast xarakterli təmaslar baş verir.**

Ancaq nəzərə alsaq ki, son vaxtlar Moskva Güney Qafqazdakı yeganə forpostu Ermənistanda hələ də davam edən etirazlarda israrla "Qərb izi" axtarır, o zaman erməni generalının böyük bir nümayəndə heyəti ilə ABŞ-da (Pentaqon və Dövlət Departamentində) müzakirələr və məsləhətləşmələr aparması, sözsüz ki, Kremlin diqqətindən yayına bilməz.

Rəsmi açıqlamalara görə, Pentaqonda və Amerikanın xarici siyasət strukturlarındakı görüşlər zamanı Qarabağ məsələsi əsas diqqət mərkəzində olub. Ermənistan müdafiə nazirinin 1-ci müavini bildirib ki, ABŞ Qarabağ münaqişəsi zonasında sakitliyin qalmasında maraqlıdır və müvafiq mexanizmlərin tətbiqi ilə buna yardımçı olmağa hazırdır. Müzakirələr zamanı atəşkəsi qorumağın mexanizmlərinin də nəzərdən keçirildiyi bildirilir.

"Həm Pentaqonda, həm də Dövlət Departamentində yekdil fikir o oldu ki, preventiv tədbirləri gücləndirmək lazımdır" - deyib Tonoyan və belə tədbirlər qismində iki mexanizmin mümkün sayıldığını qeyd edib: "Sərhədyanı insidentlərin monitorinqi üçün beynəlxalq müşahidəçilərə mandat verilməsi və beynəlxalq müşahidəçilərin himayəsi altında dedektorlar sisteminin qurulması. Bu - çox ciddi tədbirdir, o, hansısa addımı atmazdan öncə möhkəm fikirləşməyə məcbur edir".

***

Erməni hərbi rəsmisinin açıqlaması, onun ABŞ səfəri bir daha göstərir ki, işğalçı tərəf bütövlükdə Azərbaycanın müharibəyə başlaya biləcəyindən yana əndişə içindədir, odur ki, sərhəd insidentləri ilə bağlı daha ciddi mexanizmlərin tətbiqinə, perspektivdə isə işğal altındakı ərazilərlə Azərbaycanın yerdə qalan ərazisi arasında sülhməramlı qüvvələrin yerləşdirilməsinə can atır.

Təbii ki, belə perspektiv Azərbaycanı qane eləmir, çünki o halda Dağlıq Qarabağın işğalının rəsmiləşməsi sürətlənərdi. Bölgəyə sülhməramlılar yerləşdiriləcəksə də, bu, işğal müddətində yalnız Azərbaycan-Ermənistan sərhədi boyu mümkün ola bilər. Hələ onu demirik ki, məsələ ilə bağlı Rusiya ilə Qərb arasında ciddi fikir ayrılığı var. Ancaq yenə də əsas söz sahibi Dağlıq Qarabağın yuridik tərkib hissəsi olduğu Azərbaycandır.

***

Məlumdur ki, ABŞ sentyabrda - BMT-nin Baş Məclisinin yubiley sessiyası çərçivəsində Azərbaycan və Ermənistan prezidentlərini Nyu-Yorkda görüşdürməyi planlaşdırır. Sessiyada Rusiya prezidenti Vladimir Putinin də iştirakı və çıxışı gözlənilir. Bəzi müşahidəçilərə görə, Putinin Nyu-York səfəri ABŞ-la Rusiya arasında növbəti yeni mərhələnin başlanğıcı ola bilər və belə bir yaxınlaşma, yaxud ılıqlaşma fonunda mümkündür ki, Qarabağ problemi üzrə 4-5 tərəfli formatda görüş olsun və konfliktlə bağlı hansısa ilkin razılığa gəlinsin.

Söhbət həm də qarşıdurma zonasına beynəlxalq sülhməramlı qüvvələrin yerləşdirilməsindən gedir - hansına ki, Moskva uzun müddətdir can atır. Heç şübhəsiz, Rusiya neytral zonaya öz qoşunlarını yerləşdirmək, Qarabağ və Azərbaycan arasında yeni sərhədi özü müəyyənləşdirmək, bununla da hərbi cəhətdən Azərbaycana rəsmən geri dönmək arzusundadır.

Amerika buna razı olarmı? Olarsa, nəyin - hansı ciddi geosiyasi güzəştin qarşılığında? Bunu öncə rəsmi Bakı hesablamağı bacarmalıdır. Burada qeyd edək ki, ABŞ-la Rusiya arasında Ukrayna, Gürcüstan, Suriya, NATO-nun genişlənməsi mövzularında ciddi fikir ayrılıqları var. Lakin İranın nüvə məsələsindəki anlaşma göstərdi ki, Vaşinqtonla Moskva arasında regional problemlərə dair konsensus imkanları da aradakı gərginliyə rəğmən, hər halda qalır - yetər ki, tərəflərin buna siyasi iradəsi olsun. Söz düşmüşkən, Vladimir Putin İran- "Altılıq" anlaşmasına görə Barak Obamanı təbrik eləmiş, Ağ Ev başçısı isə öz növbəsində prosesə verdiyi töhfəyə görə ona minnətdarlıq etmişdi...

***

Qayıdaq Qarabağ mövzusuna. Bu arada ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik bildirib ki, Birləşmiş Ştatlar Dağlıq Qarabağ üzrə beynəlxalq sülhməramlı qüvvələrin yaradılması haqqında BMT-nin yeni qətnaməsinin qəbulunda maraqlıdır. Erməni mətbuatı bu xüsusda yazır (anspress): "Çox ehtimal ki, Ermənistanın müdafiə nazirinin birinci müavini David Tonoyanın ABŞ-a səfəri ən əvvəl bununla bağlı olub. O, Nyu-Yorkda BMT-nin sülhməramlı missiyalar üzrə nümayəndəsi ilə görüşüb. Onların Qarabağda BMT sülhməramlılarının ehtimal edilən yerləşdirilməsi haqqında danışıb-danışmaması haqda rəsmi informasiya yoxdur. Amma hadisələrin gedişatı və məntiq onu göstərir ki, görüşdə bu mövzu əsas olub. Göründüyü kimi, Qarabağ probleminin nizama salınması Rusiya və ABŞ arasında yeni əməkdaşlığın əlaməti kimi BMT Baş Assambleyasının iclasında imperativ olacaq. Ehtimal edilir ki, Azərbaycanın ərazi bütövlüyü əsasında, müəyyən sərhədlər çərçivəsində Dağlıq Qarabağa hansısa status verilsin. Belə olan təqdirdə Ermənistanın Rusiya, yaxud beynəlxalq sülhməramlılar arasında seçim üçün manevr etməyə imkanı qalmayacaq".

Rusiyanın və ABŞ-ın sülhməramlıları hansı sərhədlərdə yerləşdirmək barədə Ermənistana verəcəkləri təklifdən, təbii ki, çox şey asılı olacaq. İstisna deyil ki, Tonoyan ABŞ-a həm də bu məsələyə görə gedib. ABŞ-ın sərhədlə bağlı nə təklif etdiyi isə hələlik bəlli deyil. Diqqəti çəkən həm də Tonoyanın səfərinin KTMT başçısı Nikolay Bordyuja və Rusiya hərbi kəşfiyyatının (QRU) başçısı, general İqor Serqyun İrəvana ziyarətindən dərhal sonraya təsadüf etməsidir.

***

Belə görünür, Qarabağ münaqişəsi ətrafında indiki status-kvonun saxlanılması getdikcə çətinləşir. Bəs, onun dəyişməsindən ən çox kim dividend götürəcək? Əsas sual da budur və o, açıq qalır. Onu da nəzərdən qaçırmaq olmaz ki, İrana qarşı sanksiyalar götürüldükdən və Tehran-Qərb münasibətləri sürətlə ılıqlaşmağa üz tutduqdan sonra Azərbaycanın Qərb üçün əvvəlki önəmi azalıb. Yəni Moskva ilə Vaşinqton arasında yeni geosiyasi bazarlıq üçün daha bir motiv yarana bilər.

❑ **Siyasət şöbəsi**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində gərginlik səngimir. Son günlərin statistikası və hər iki tərəfin itkiləri də bunu təsdiqləyir. Cəbhə xəttində gərginlik yaradan Ermənistan ordusu atəşkəsi Goranboy rayonu istiqamətində 87 dəfə, Qazax rayonu istiqamətində 60 dəfə, Gədəbəy rayonu istiqamətində 44 dəfə, Tovuz istiqamətində 31 dəfə, Göygöl rayonu istiqamətində 12 dəfə, Ağstafa rayonu istiqamətində isə 4 dəfə pozub. Ötən ay bir hərbi qulluqçumuz şəhid olub, düşmən tərəfi isə 5 nəfər itki verib.**

Ötən ay ərzində düşmənin 4 pilotsuz uçan aparatı bölmələrimizin sayıqlığı nəticəsində vaxtında aşkar olunaraq açılan atəş nəticəsində məhv edilib. Qeyd edək ki, erməni silahlı bölmələri iyun ayında atəşkəs rejimini 738 dəfə pozmuşdu. Maraqlısı odur ki, erməni tərəfi həyasızcasına 26 iyul-1 avqust tarixləri arasında Azərbaycan tərəfinin atəşkəsi 1100 dəfə "pozduğunu" iddia edib. Düşmən itkilərini də gizlətməkdə davam edir.

***

Bu arada Ermənistanın müdafiə nazirinin 1-ci müavini David Tonoyanın ABŞ-a işgüzar səfəri də diqqət çəkir. Erməni KİV-ləri xəbər verir ki, nazir müavini Dövlət Departamentinin rəsmiləri, o cümlədən regional təhlükəsizlik məsələləri direktorları S.Volander və V.Teylorla , həmçinin ABŞ-dakı erməni lobbisinin təmsilçiləri ilə bir araya gəlib. Öz ərazisində Rusiyaya bir sıra digər sahələrdə olduğu kimi, hərbi sahədə də geniş meydan tanıyan, həmçinin Azərbaycan ərazilərini on illərdir işğalda saxlayan bir ölkənin cinayətkar generalının ABŞ-da yüksək səviyyədə qəbul olunması şübhəsiz ki, Bakını razı sala bilməz. Düzdür, bir sıra hallarda Azərbaycan dövlətlər arası münasibətlər hansı reaksiya bildirməyi zəruri saymır.

Amma istənilən halda dünyada terrora və işğala qarşı olduğunu bəyan edən superdövlətin antiterror koalisiyasının üzvü olan Azərbaycanın ərazilərini zəbt etmiş ölkənin ordu rəhbərliyinə yuxarı başda yer göstərməsi işğalın uzanmasına rəvac verən amillərdən biri kimi dəyərləndirilə bilər. Xüsusilə də Vaşinqtonun Azərbaycan-Ermənistan prezidentlərini görüşdürməyə çalışdığı bir məqamda Ermənistana göstərilən diqqət heç yerinə düşmür. Əslində İŞİD-dən mahiyyətcə heç nə ilə fərqlənməyən erməni terroruna qarşı sayğılı davranılması yolverilməzdir, lakin ikili standartlar hələ də Qarabağ məsələsində davam etməkdədir.

Eyni vaxtda isə Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov Rusiyaya səfər edib. Rusiyanın müdafiə naziri ordu generalı Sergey Şoyqu azərbaycanlı həmkarı ilə görüşüb. Görüşdə iki ölkə arasında hərbi əməkdaşlıq məsələləri müzakirə olunub. RF Müdafiə Nazirliyinin məlumatına əsasən, görüş zamanı regional təhlükəsizliyin aktual məsələləri, həmçinin Rusiya və Azərbaycan arasında hərbi əməkdaşlığın inkişaf perspektivləri və vəziyyəti barədə fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, Azərbaycanın müdafiə naziri Z.Həsənov Beynəlxalq hərbi oyunların açılış mərasimində iştirak etmək üçün Moskvada səfərdədir. Ancaq ekspertlər nazirlərin görüşü zamanı Ermənistanın işğalçılıq hərəkətlərinin davamı, vaxtaşırı cəbhə xəttində törədilən təxribatlar və digər məsələlərin də müzakirə olunduğuna şübhə etmirlər.

***

Bakı ilə Moskva arasında zahirən normal münasibətlərin olması görüntüsünə rəğmən, bu arada yayılan sensasion məlumat isə Rusiyanın Dağlıq Qarabağ separatçıları ilə bağlı xüsusi projesinin olmasını bir daha təsdiqləyir. Qeyd edək ki, rus milyarder Serliqovun Şuşaya ailəsi ilə birgə köçməsi, burada at yarışları keçirəcəyini bəyan etməsi, onun arvadının isə Cıdır düzündə moda müsabiqəsi təşkil etməsi, lakin rəsmi Bakının etirazına, Rusiya vətəndaşı barədə cinayət işi qaldırılmasına baxmayaraq, Moskvadan hər hansı reaksiya verilməməsi məsələnin qaranlıq tərəfinin olması barədə gümanları ortaya çıxartmışdı.

Yayılan son məlumat isə Moskvanın doğrudan da Qarabağ erməniləri ilə bağlı alternativ layihəsinin olmasını təsdiqləyir. Məsələnin sensasion tərəfi budur ki, Dağlıq Qarabağdakı qondarma erməni rejiminin rəhbəri Bako Saakyan Rusiyanın "Böyük Pyotr" ordeninin birinci dərəcəsi ilə təltif olunub. Virtualaz.org saytı yaydığı xəbərdə bildirir ki, bu fakt Saakyanın rəsmi bioqrafiyasında yer alır və müstəqil erməni jurnalist Vaqram Ağacanyan Rusiyanın İrəvandakı səfirinə, habelə qondarma "DQR prezidenti"nin mətbuat katibinə məktub yazaraq ordenin hansı xidmətlərə görə verildiyini soruşur. Jurnalistin Rusiyanın İrəvandakı səfiri İvan Volınkinə göndərdiyi məktubda deyilir ki, Bako Saakyanın rəsmi bioqrafiyasında onun "Rusiya dövlətinin möhkəmlənməsində xidmətlərinə görə" ölkənin ali ordenlərindən biri - I dərəcə "Böyük Pyotr" ordeni ilə təltif edildiyi göstərilib. Habelə orada göstərilir ki, Dağlıq Qarabağdakı rejimin indiki rəhbəri Rusiya Federasiyasının Təhlükəsizlik, Müdafiə və Qanunçuluq Akademiyasının həqiqi üzvüdür.

"İvan Kirilloviç, jurnalist kimi mənə maraqlıdır ki, Bako Saakyan Rusiya Federasiyasına hansı xidmətləri göstərib və hansı xidmətlərinə görə "Böyük Pyotr" ordeninə layiq görülüb? Həmçinin bilmək maraqlıdır ki,



# Kremlin Qarabağ separatçılarına jestinə sərt təpki gəldi

## Rusiya qondarma rejimin quldur başçısını gizlicə təltif edibmiş; **Üzeyir Cəfərov:** "Bakı məsələyə ciddi reaksiya verməlidir..."



cənab Saakyanın hansı elmi əməyi Rusiya Federasiyasının Təhlükəsizlik, Müdafiə və Qanunçuluq Akademiyasına onu həqiqi üzv etmək üçün əsas verib? Hesab edirəm ki, əgər bu vəziyyətə aydınlıq gətirilsə, erməni ictimaiyyəti Rusiya səfirinə minnətdar olardı",- deyə erməni jurnalist səfirə bu gün ünvanlandığı açıq məktubda yazır.

Vaqram Ağacanyan analoji məzmunda məktubu qondarma "DQR prezidenti"nin mətbuat katibinə də ünvanlayıb.

Rusiya Federasiyasının ali dövlət mükafatları haqda qanunda göstərilir ki, "Böyük Pyotr" ordeni hərbi, xidməti və vətəndaş borcunu yerinə yetirərkən mərdlik, igidlik və qəhrəmanlıq göstərənlərə verilir. Həmçinin Rusiya dövlətinin möhkəmləndirilməsi naminə dövlət işlərində, elmi-tədqiqatda, istehsalda və digər sahələrdə yüksək nailiyyətlər əldə edənlərə bu orden verilə bilər.

Erməni jurnalistin Bako Saakyanın bu ordenlə təltif olunmasının səbəblərini aydınlaşdırmağa cəhd göstərməsi Rusiyadan Dağlıq Qarabağa dair birmənalı olmayan siqnalların göndərilməsi ilə bir vaxta təsadüf edir. Əvvəlcə avantürist rusiyalı biznesmen German Sterliqov müəmmalı şəkildə Qarabağa yerləşən Rusiya və Dağlıq Qarabağ arasında əlaqələrin genişləndirilməsi haqda danışmağa başladı. Daha sonra Rusiya Baş Kəşfiyyat İdarəsinin rəisi, general İqor Serqun İrəvana müəmmalı səfər etdi və bütün bunlarla eyni vaxtda təmas xətti boyu vəziyyətin gərginləşməsi müşahidə olundu. Bako Saakyan Qarabağda "KQB tulası" ləqəbi ilə tanınır, Rusiyanın xüsusi xidmət orqanlarının keçmiş agentidir və bioqrafiyası xeyli dumanlıdır.

***

Azərbaycanla münasibətlərə önəm verdiyini daim bəyan edən həmsədr Rusiyanın Qarabağ separatçısına yüksək mükafat verməsi heç də sadə məsələ deyil. Hələlik rəsmi Bakının məsələyə reaksiyası bəlli deyil. İş günü olmadığından XİN-dən münasibət ala bilmədik. Lakin yəqin ki, Azərbaycan Moskvadan hansısa formada izahat istəyəcək. Rusiyanın Saakyanı mükafatlandırması faktiki olaraq "DQR"-in Rusiya tərəfindən tanınması, onun separatçı liderinin Rusiyanın canişini kimi rəsmiləşdirilməsi anlamı daşıyır.

Hərbi ekspert Üzeyir Cəfərov da "Yeni Müsavat"a açıqlamasında təəccübünü gizlətmədi: "Dağlıq Qarabağdakı qondarma erməni rejiminin rəhbəri Bako Saakyanın Rusiyanın "Böyük Pyotr" ordeninin birinci dərəcəsi ilə təltif olunması xəbərini eşidəndə ağlımdan ilk keçən bu fikir oldu ki, doğrudan da qulaq gündə bir söz eşitməsə, kar olar. Özü də bunu hansısa kənar şəxs deyil, müstəqil erməni jurnalist Vaqram Ağacanyan Rusiyanın İrəvandakı səfirinə, habelə qondarma "DQR prezidenti"nin mətbuat katibinə ünvanladığı məktubunda sadalayır. Hələ ki, bu məsələyə nə separatçılar, nə də onların Moskvadakı ağaları heç bir aydınlıq gətirməyiblər. Doğrusunu deyim ki, burada dezinformasiya da ola bilər, bəlkə də həqiqət də olsun. Ancaq bu, öz təsdiqini taparsa, onda vəziyyət tamam başqa şəkil almalıdır və Azərbaycan XİN də öz tərəfindən bu məsələ ilə bağlı izahat tələb etməlidir. Separatçılığı təbliğ edən, bütün beynəlxalq hüquq və normalara etinasız yanaşan bir adamı Rusiya kimi nəhəng bir dövlətin belə ali mükafatına necə layiq görmək olar? Onu da başa düşürəm ki, indi artıq heç nəyə təəccüblənmək olmur deyə, hər şeyin elə deyilənlər kimi olması da mümkündür. Əslində isə bütün dünya birliyi, aparıcı dövlətlər hər addımlarında separatşılığa, bölücülüyə meyilli adamları ifşa etməli və onların ən ağır cəzaya məhkum olunmasına nail olmalıdırlar".

Ü.Cəfərov qeyd etdi ki, təsdiqlənəcəyi halda Bakı məsələyə ciddi reaksiya verməlidir: "Əgər bu fakt öz təsdiqini tapmış olsa, biz hətta Rusiyanın ATƏT-in Minsk qrupundakı fəaliyyətinə son qoyulması tələbini də irəli sürə bilərik. Şəxsən mənə bu yaramaz separatçıya bu ordenin nə zaman verilməsi də çox maraqlıdır. Əgər bu, yaxın tarixdə baş vermiş hadisədirsə, onda biz Qarabağ məsələsində özümüzü aldatmamalıyıq və Rusiya kimi onbaşlı oyun oynayan dövlətin hiylələrinə sərt təpki göstərməliyik. Onu da qeyd edim ki, biz dövlət olaraq bu mühüm məsələnin Rusiya ictimaiyyəti arasında da geniş şəkildə işıqlandırılmasına nail olmalıyıq. Çünki «Böyük Pyotr" ordeni sıradan adi bir dövlət mükafatı deyil və onun hansısa qatı separatçıya verilməsi əslində RF-nin özü üçün böyük utanc olmalıdır. Hər şeyi öz adı ilə çağırmaq lazımdır. Belə başa düşmək olar ki, Bako Saakyanın bu ordenlə təltif olunmasının əsl səbəblərindən biri də Rusiyadan Dağlıq Qarabağa aşıq və ya gizli şəkildə göstərilən dəstədir. Elə ona görə də bu münaqişə 20 ildən artıqdır ki, öz həllini tapmır - məhz Saakyan kimi avantürist və yaramazlara görə. Ağaları da onları mükafatsız qoymurlar ki, qoy bundan sonra da onlar regionda gərginliyin artmasında maraqlı olan digər separatçılara yol göstərib, min hoqqalardan çıxsınlar. Azərbaycanın isə səbir kasası isə dolub daşmağa yaxınlaşır".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Cavid TURAN

YENİ MÜSAVAT
N 167 (6195) 3 avqust 2015



# Öldürülən məhkumun işindəki şahid məhkuma daha bir cinayət işi açıldı

## Yadigar Nuriyevi həqiqəti söyləməkdən imtina etməyə məcbur edirlər?

**2014-cü il dekabrın 22-də Penitensiar Xidmətin 14 saylı cəzaçəkmə müəssisəsində öldürülən məhkum Elşad Babayevin işi üzrə şahidlik edə biləcək məhkumlara qarşı xüsusi xoş olmayan münasibətin sərgiləndiyini yazmışdıq. Aldığımız son məlumata görə, belə məhkumlardan biri də Yadigar Nuriyevdir.**

E.Babayevin işi üzrə istintaq aparan müstəntiqə çəkinmədən həqiqəti söyləyən məhkuma az sonra təzyiqlər başlayıb. Ondan ifadələrindən imtina etməsi tələb olunub. Nuriyev razılaşmadıqda isə ona vəziyyətinin pis olacağını deyiblər. Bir müddət əvvəl isə Y.Nuriyevə daha bir cinayət işi başlanıb. Aldığımız məlumatda bildirilir ki, məhkumu 1 gün fasilə verməklə periodik Əfəndiyev adına 4 saylı xəstəxanaya gətirib hemodializ aparatına qoşub qanını təmizləyirlər. Onun hər 2 böyrəyi fəaliyyətini dayandırıb və bu üzdən onun böyrəkləri əməliyyat olunaraq çıxarılıb.

Növbəti belə bir prosedurdan sonra kamerasına qaytarılan məhkum surprizlə qarşılaşıb - onun kamerasında yoxlama aparan nəzarətçilər oradan telefon "tapıblar". Və məhkumun qeyri-qanuni telefon saxlamasını aktlaşdırıb cinayət işi başlanması üçün Ədliyyə Nazirliyinin İstintaq İdarəsinə göndəriblər. Fakt üzrə cinayət işi başlanıb və məhkum müstəntiqlərin suallarını cavablandırmalı olub. Hazırda iş üzrə istintaq gedir.

Y.Nuriyev əlavə olaraq 2 il cəza almaq təhlükəsi qarşısındadır. Belə bir şəraitdə onun E.Babayevin ölümü ilə bağlı həqiqəti söyləyib-söyləməyəcəyi bəlli deyil. Maraqlıdır ki, belə bir şəraitdə Elşad Babayevin işi üzrə aparılan istintaqın nəticəsi olacaqmı?

Qeyd edək ki, məhkum E.Babayevin ölümündən sonra onun bacısı Simuzər Babayeva morqda qardaşının meyitinin şəkillərini çəkməklə ictimailəşdirib. O, qardaşının vəhşicəsinə döyülərək öldürüldüyünü bəyan edib. S.Babayeva bildirib ki, qardaşını öldürən şəxslər layiqli cəzalarını almayınca mübarizə aparacaq: "Hamı bilir ki, Elşada işgəncəni dekabrın 13-də veriblər. Qardaşımı məhkumları döyməklə, işgəncə verməklə ad çıxaran nəzarətçilər Firdosi, Faiq, Rahib vəhşicəsinə döyüb, işgəncə verib öldürüblər. Ölümündən 10 gün əvvəl "do prixod"a aparıb orada döyüb işgəncələrə məruz qoyublar. Onu orada 10 gün betonun üstündə saxlayıblar. Dekabrın 22-nə qədər qardaşıma çörək, su verməyiblər. Sonradan onu ölümcül durumda "kars"a köçürüblər".

S.Babayeva müraciətlərində Baş Prokurorluqda iş üzrə araşdırma aparan vəzifə sahiblərinə səslənib: "Mənim qardaşımı türmə işçiləri məhkumların gözü qarşısında döyüb öldürüblər. Həmin məhkumların bəzilərinin başına oyun açdılar. Onları xəstə adı ilə "tubzon"a göndərib orada amansız işgəncələrə məruz qoydular. Bu qanunsuzluqlar bu gün də davam edir. Sizlərdən bu qanunsuzluqlara göz yummamağı, qardaşımın ölümündə günahı olan şəxsləri qanun qarşısında cavab verməyə məcbur etməyi tələb edirəm".

Qeyd edək ki, S.Babayeva qardaşının meyitinin fotolarını iş üzrə araşdırma aparmalı olan istintaq orqanına da təqdim edib. Məhkumun ölümü ilə bağlı Qaradağ Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 309.1-ci - vəzifə səlahiyyətlərini aşma maddəsi ilə cinayət işi başlanıb. Elşad Babayevin işgəncələrlə öldürülməsini Qaradağ Prokurorluğunda məhz belə qiymətləndiriblər.

Sonradan iş Qaradağ Prokurorluğundan alınaraq Bakı Şəhər Prokurluğuna verilib. Bir qədər əvvəl isə iş materialları Bakı Şəhər Prokurluğundan alınaraq Baş Prokurorluğa aparılıb. Göründüyü kimi, iş sayca 3-cü və daha yüksək instansiyada istintaq ediləcək. Nəticə haqda da məlumat verəcəyik.

❑ E.MƏMMƏDƏLİYEV




# Məhkəmədə bələdiyyə sədrinin həbsi tələb olundu

## "Sevil Massivi" MMC işi üzrə zərərçəkənlər "od püskürür"; onlara pul ödənilməyib...

**Bu gün Bakı Ağır Cinayətlər Məhkəməsində "Sevil Massivi" MTK-nın vəzifəli şəxslərinin cinayət işi üzrə məhkəmə prosesi davam edəcək. Hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən ötən prosesdə məhkəmə baxışının başlaması barədə qərar qəbul edilib, dövlət ittihamçısı ittiham aktını elan edib.**

İş üzrə zərərçəkən Aybəniz Abbasovanın nümayəndəsi Abdulla Əfəndizadə deyir ki, məhkəmədə Hökməli bələdiyyəsinin sədri Mirnemət Mirəziz oğlu Miradıyev barəsindəki qətimkan tədbirinin başqa növü ilə əvəzlənməsi və digər şəxslərin cinayət məsuliyyətinə cəlb olunması üçün vəsatətlə çıxış edib.

Nümayəndə hesab edir ki, Hökməli bələdiyyəsinin sədri barəsində seçilmiş heç yerə getməmək haqda qətimkan tədbiri həbs qətimkan tədbirş ilə əvəz olunmalıdır: "Məlum olduğu kimi, 2014-cü ilin avqust ayında "Sevil Massivi" MMC-nin təsisçisi və rəhbərliyi dələduzluq və vergidən yayınma halları ilə əlaqədar barələrində cinayət işi başlanıb və onlar həbs edilib. Çox təəssüflər olsun ki, ibtidai istintaq sona çatarkən zərərçəkən tərəfə iş materialları ilə tanış olmağa, vəsatətlər təqdim etməyə imkan yaradılmadı. Belə ki, zərərçəkən kimi tanınmamız barədə məktub bizə gec çatdı. Prokurorluğa iş materialları ilə tanış olmaq üçün getdikdə müstəntiq yerində olmadı.

Ən qəribəsi odur ki, iş materiallarının xeyli müddətdir ki, Bakı Ağır Cinayətlər Məhkəməsinə daxil olmasına baxmayaraq, zərərçəkən tərəfə heç bir rəsmi məlumat verilməyib. Bu isə tərəflərin çəkişmə prinsipinə məhkəmə tərəfindən də əməl edilməməsidir. Mətbuatdan xəbər tutdum ki, demə, 7 iyul 2015-ci il tarixdə məhkəmənin hazırlıq iclası keçirilib. Sonradan məhkəməyə zəng vurduqda məhkəmə iclasının 16 iyul 2015-ci il tarixə salındığı bildirildi. İyulun 10-da ibtidai istintaq vaxtı təqdim etdiyim sənədləri təkrarən məhkəməyə təqdim etdim".

A.Əfəndizadə deyib ki, məhkəməyə təqdim etdiyi sənədlər sırasında təqsirləndirilən şəxslər - Aynur Zeynalov və digərlərinin barəsindəki həbs qətimkan tədbirinin heç yerə getməmək barədə qətimkan tədbirinə dəyişdirilməsi haqda vəsatət də olub: "Belə ki, onların təmsil etdikləri "Sevil Massivi" MMC müqavilə ilə fiziki və hüquqi şəxslərə verdikləri torpaq sahələrini, tikdikləri mənzilləri həmin şəxslərdən başqa digər şəxslərə satmayıblar. Yəni vətəndaşları aldatmayıblar. Vətəndaşların da bütün pulları istintaq orqanları tərəfindən onların ofisindən götürülüb, pullar əvvəlcə Hökməli bələdiyyəsində olub, Xırdalan şəhər İnzibati Ərazi Dairəsi üzrə nümayəndəliyə təhvil verilib. Nümayəndəlik də kefi istədiyi adamlara həmin pulların müəyyən faizini almaqla ödəyib. Lakin biz zərərçəkən tərəflər bu neçə ay ərzində dəfələrlə gedib, pullarımızı tələb etsək də, bizə pulu növbəti ayda ödəyəcəkləri vədi ilə aldadaraq yola salıblar. Sonda 3 iyul 2015-ci ildə bildiriblər ki, pullar ödənməyəcək. Əgər həqiqətən də təqsirləndirilən şəxslər tərəfindən həmin torpaq sahələri və tikintilərlə əlaqədar hər hansı cinayət xarakterli əməllər var idisə, nəyə görə Abşeron rayon Hökməli bələdiyyəsinin rəhbəri Mirnemət Miradıyev və icra hakimiyyəti rəhbərliyi cinayət məsuliyyətlərinə cəlb edilməyiblər?"

Nümayəndə deyir ki, iş materialları ilə onlara ətraflı tanış olmağa imkan verilmədiyindən təqsirləndirilən şəxslərin neçə nəfər olması, Hökməli bələdiyyəsinin sədri M.Miradıyevin cinayət məsuliyyətinə cəlb olunduğunu, lakin digərlərindən fərqli olaraq barəsində qətimkan tədbirinin hələ ki, həbslə yox, başqa yerə getməməklə əvəz olunmasından xəbərsiz olub: "16 iyul 2015-ci il tarixli məhkəmə iclasında hakim bütün vəsatətlərimizi səthi elan edərək, təqsirləndirilən şəxslərin barəsindəki həbs qətimkan tədbirlərinin başqa yerə getməməyə dair iltizamla dəyişdirilməsi barədə fikirlərimi qəsdən, bilərəkdən dəqiq göstərmədi. Hələ bu azmış kimi vəsatətimə qoşmada təqdim etdiyim 5 nüsxədə surətlərini də nə təqsirləndirilən şəxslərə, nə də onların vəkillərinə verdi. İclas vaxtı hakim tələm-tələsik bütün zərərçəkənlərdən məcburən ancaq pulları istəmələri barədə ifadələr almağa çalışdı. Amma bizimlə yanaşı bir çox zərərçəkən Mirnemət Miradıyevin həbs olunmasını tələb etsək də, hakim buna da qanuni reaksiya verməkdən yayındı".

Nümayəndə qeyd edir ki, "Sevil Massivi" MMC-nin rəhbərindən külli miqdarda rüşvət aldığını etiraf etmiş Mirnemət Miradıyev həbs olunsun: "Camaata kömək edən, başqaları kimi bir yeri 5-10 nəfərə satmayan şəxslər - Aynur Zeynalov və başqaları isə buraxılsınlar. Külli miqdarda rüşvət almasını boynuna almış Mirnemət Miradıyev azadlıqda gəzdiyi bir vaxtda MMC-nin vəzifəlilərinin həbsdə olması böyük ədalətsizlikdir".

Xatırladaq ki, Baş Prokurorluğun mətbuat xidmətinin ötən il iyulun 25-də yaydığı məlumata görə, "Sevil Massivi" MTK-da külli miqdarda vergilərin dövlət büdcəsindən yayındırılması faktına əsasən Vergilər Nazirliyində başlanmış cinayət işi üzrə istintaq aidiyyəti üzrə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində davam etdirilib. Kooperativin təsisçisi Aynur Zeynalovun kooperativin direktoru Elçin İsmayılov və digərləri ilə qabaqcadan əlbir olub 2013-2014-cü illərdə 172 min 507 manat məbləğində sadələşdirilmiş vergini dövlət büdcəsinə ödəməkdən yayınmalarında, habelə xüsusi razılıq (lisenziya) tələb olunduğu halda, belə razılıq alınmadan qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olaraq 99 min 597 manat məbləğində gəlir əldə etmələrində şübhələr üçün əsaslar olduğundan Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən onlara Cinayət Məcəlləsinin 192.2.2 (qanunsuz sahibkarlıq) və 213.2.2-ci (vergi ödəməkdən yayınma) maddələri ilə ittiham elan edilməklə barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Qeyd edilənlərlə yanaşı, Hökməli bələdiyyəsinin sədri Mirnemət Miradıyevin bələdiyyə ərazisində yerləşən torpaq sahələrini A. Zeynalov və E.İsmayılovun bilavasitə şərait yaratmaları ilə müxtəlif şəxslərə sataraq ümumilikdə sonunculardan 170 min manat məbləğində rüşvət almasında şübhəli bilinməsi üçün əsaslar olduğundan Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən ona Cinayət Məcəlləsinin 311.3.3-cü (rüşvət alma) maddəsi ilə ittiham elan edilməklə ağır xəstəliyi ilə əlaqədar barəsində həbslə bağlı olmayan qətimkan tədbiri seçilib. İstintaqla həmçinin müəyyən edilib ki, "Sevil Massivi" MTK-nın məsul şəxsləri Hökməli bələdiyyəsinin sədri M. Miradıyevlə əldə etdikləri şifahi razılaşmaya əsasən, bələdiyyənin mülkiyyətində olan 30 hektar perspektiv inkişaf torpaqlarını, eləcə də ayrı-ayrı şəxslərin mülkiyyətində olan "At yalı" və "Sonalı sahəsi" adlandırılan 110 hektar örüş torpaqlarını qanunsuz olaraq zəbt edərək həmin torpaqların vətəndaşlara faizsiz kreditlə satışını həyata keçiriblər. Vətəndaşlar tərəfindən isə həmin torpaq sahələrində layihə-smeta sənədləri olmadan, dövlət qeydiyyatına alınmadan 200 fərdi yaşayış evinin tikintisi həyata keçirilib. Kredit ödənişləri başa çatdıqdan sonra bələdiyyəyə məxsus olmayan sahələr bələdiyyə tərəfindən hərraca çıxarılmaqla satılaraq vətəndaşların adlarına rəsmiləşdirilib. Bundan başqa, "Sevil Massivi" MTK tərəfindən qeyd olunan ərazinin təyinatına uyğun olmadan orada 100-dən artıq çoxmənzilli yaşayış binalarının tikintisi nəzərdə tutulub, onlardan 4-də ilkin tikinti işləri həyata keçirilib. Bununla belə, təyinatına görə örüş torpaqları olan həmin sahələrdə qanunsuz tikiləcək çoxmənzilli yaşayış binalarından vətəndaşlara mənzillər satılıb.

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 167 (6195) 3 avqust 2015


Orxan Qafarlı

# Türkiyədə siyasətçilər hökumətin yeni seçkilərə getməsindən narahatdır

## Orxan Qafarlı: "Bu gün Türkiyədə yaşananlar 2008-ci ildə Gürcüstanın Cənubi Osetiyaya qəfil müdaxiləsini xatırladır"

**Türkiyədə parlament seçkilərinin ardınca başlayan koalisiya hökuməti danışıqları artıq sona çatmaqdadır. Ancaq müşahidəçilərin bir çoxu yeni koalisiya hökumətini mümkünsüz sayır. Bir sıra ekspertlərə görə, proseslərin bu cür gedişi yeni seçkiləri qaçılmaz edəcək.**

Ölkədə yeni hökumətin qurulması fonunda isə müvəqqəti hökumət PKK və İŞİD terror təşkilatlarına qarşı geniş miqyaslı hərbi əməliyyatları davam etdirir. Artıq 11 gündür davam edən əməliyyatlar nəticəsində çoxlu sayda PKK yaraqlısı öldürülüb, yüzlərlə İŞİD və PKK üzvü həbs olunub. Ancaq Türkiyə ordusu və polisi də hər gün PKK hücumları nəticəsində itki verir. PKK yaraqlıları şərq vilayətlərində hökumət qüvvələrin, eləcə də mülki əhaliyə hücum edir, yolları bağlayır. Bu isə Türkiyə üçün acınacaqlı nəticələr doğura bilər.

Artıq ölkə iqtisadiyyatının və onun əsas pay sahibi olan turizmin ziyanı barədə fikirlər səslənir. Bir sıra ölkələrin hökumətləri vətəndaşların Türkiyənin bir çox bölgələrinə getməməklə bağlı xəbərdarlıq edir. Vəziyyətin bu həddə çatması ölkədə ciddi narahatlıqlara səbəb olub. MHP sədri Devlət Baxçalı Twitter hesabından ölkənin siyasi gündəmi ilə bağlı açıqlama yayıb. AKP və CHP-ni "dərhal koalisiya" hökuməti qurmağa səsləyən milliyyətçilərin lideri hazırkı vəziyyətin ölkəni xaosa apardığını yazıb.

MHP sədrinin çağırışı birmənalı qarşılanmasa da, siyasət adamlarının mövqeyi ölkədə hökumət danışıqlarının qeyri-müəyyənliyi, digər tərəfdə qanlı savaşın getməsi ilə yaranan narahatlığın gündəmə daşınması kimi yozulur. Ötən gün şərq vilayətlərindən olan vətəndaş cəmiyyəti nümayəndələri ilə görüşən baş nazir Əhməd Davudoğlu HDP-ni tənqid edib, PKK-nın HDP ilə hesablaşmadan terroru başlatdığını qeyd edib. Baş nazir dolayısı ilə kürd partiyaların parlamentə daxil olması ilə siyasi barışıq olacağı ilə bağlı ümidlərin doğrulmadığına işarə edib.

Yeni Türkiyə Araşdırmaları Mərkəzinin eksperti Orxan Qafarlının fikrincə, MHP sədrinin müraciəti həm də ölkədə siyasi proseslərin gedişi ilə bağlıdır. Ekspertə görə, müxalifət hökumətin yeni seçkilərə getməsindən narahatdır: "Türkiyədə gərginliyin azalması üçün tərəflərin danışıqlar masası arxasına keçməsi lazımdır və silahların durması istənilməlidir. Baxçalı bunu gözəl bilir. Bəlkə də indiki halda Baxçalı narahatdır ki, bu gedişlə AKP yeni seçkilər keçirmək istəyir. Narahatdır ki, yenidən seçkilər keçirilsə AKP 4-5 % MHP gedən səslər yenidən iqtidar partiyasına qayıtsın. Bunun üçün MHP indiki halda yenidən seçki istəmir. İndiki gərginlik AKP-nin milliyyətçi camiədən itirdiyi səsləri yenidən geri qaytarmasına imkan yaradır. Çünki AKP tamamən kürd sülh prosesini dayandırıb. Adətən gərginlik, müharibə vəziyyətləri hər zaman mövcud sistemin qorunmasına yardımçı olur. Nədənsə bu gün Türkiyədə yaşananlar 2008-ci ildə Gürcüstanın Cənubi Osetiyaya anidən müdaxiləsini xatırladır. AKP-nin PKK ilə anidən savaş qərarını alması həm dövlət bürokratiyasının və ordunun ağır təzyiqləri nəticəsində oldu. Məhz AKP bu qrupların içində səslərini itirdiyini düşünür. Bu qruplar da Türkiyədə mövcud siyasi və iqtisadi sistemin qorunmasını istəyir. Əgər Gürcüstanın ozamankı iqtidarı da Cənubi Osetiyaya anidən müdaxilə etməsəydi, Saakaşvili iqtidarı və siyasi sistemi çökəcəkdi. Türkiyədə də bənzər durumdur".

Orxan Qafarlı deyir ki, həftənin ilk günündə AKP və CHP arasında növbəti koalisiya müzakirələri olacaq. Ekspert deyir ki, hər iki partiya koalisiya məsələlərində bəzi mövzularda anlaşsalar da, hələlik anlaşa bilmədikləri məqamlar da var: "Avqustun 3-də CHP ilə AKP arasında heyətlərarası son görüş olacaq. Hələlik demokratik islahatlar və iqtisadi məsələlərdə anlaşma əldə olunub. Danışıqlarda son mərhələ isə yəqin ki, sülh prosesi, yəni silahların susması için necə bir siyasət aparılması olacaq. Ən sonda siyasi postların bölgüsü və dövlət başçısının qurulacaq hökumətə müdaxilə edilməməsi müzakirə ediləcək. Əgər bu prinsiplər üzərində anlaşma əldə edilsə CHP və AKP koalisiya qurula bilər. Lakin əldə edilməsə AKP-nin MHP-nin dəstəyini alaraq azlıq hökuməti qurması və yeni seçkilərə getməsi ehtimalı böyükdür".

Qeyd edək ki, "Azadlıq" qəzeti son sayında PKK mövzusunun Azərbaycan və Türkiyə prezidentləri arasında danışıqlar mövzusu ola biləcəyini yazıb. Qəzet özəl mənbələrinə istinadən yazır ki, Azərbaycanda PKK-nın dayaqları olması məsələsi və buna qarşı mübarizə aparılmasını Türkiyə prezidenti azərbaycanlı həmkarı qarşısında qaldıra bilər. Ekspert O.Qafarlıya görə, PKK-ya qarşı mübarizə dərinləşdikcə bu kimi məsələlər gündəmə gələ bilər: "Yəni belə bir ehtimal ola bilər. Amma rəsmi bir açıqlama yoxdur bu barədə. Ola bilsin Naxçıvan-Türkiyə sərhədində təhlükəsizlik tədbirlərinin gücləndirilməsi kimi addımlar nəzərdə tutulur".

❑ KƏNAN

# Beynəlxalq anti-İŞİD koalisiyası niyə uğur gətirmədi?



## Elxan Şahinoğluna görə, hazırkı şərtlərdə ABŞ-ın bölgə "müttəfiqləriylə" İŞİD üzərində qələbəsi mümkün deyil, çünki...

**Qərb ölkələrinin ABŞ başda olmaqla region müttəfiqləri ilə birlikdə İŞİD-ə qarşı mübarizə koalisiyasının yaradılmasının bir ili tamam oldu. Ötən ilin avqustunda ilk dəfə ABŞ və Britaniya ordusu hərbi hava qüvvələri İraq ərazisində İŞİD mövqelərini bombalamağa başladı. İŞİD-in Suriyanın Kobani şəhərinə hücumu ilə koalisiyanın daha da genişlənndirilməsi məsələsi gündəmə gəldi.**


Elxan Şahinoğlu

Çox tezliklə 64 ölkənin qatıldığı böyük bir antiterror koalisiyası yaradıldı. Bir sıra ölkələr hərbi qüvvələri ilə, əksər ölkələr isə sadəcə siyasi və diplomatik dəstək verməklə ani-İŞİD koalisiyasına üzv oldu.

2014-cü il sentyabrın 11-də Ciddədə keçirilən konfransda terrora qarşı mübarizə ilə bağlı bir sıra mühüm qərarlar alındı. Ancaq ötən müddətdə bu istiqamətdə yalnız ABŞ və bir neçə müttəfiq ölkənin hava zərbələri davam etdi. Faktiki olaraq ötən illə müqayisədə İŞİD-ə qarşı mübarizədə ciddi dəyişiklik olmayıb. Baxmayaraq ki, bu müddətdə ABŞ aviasiyası minlərlə İŞİD terrorçusunu, onlara məxsus texnika və silahları məhv edib.

Beynəlxalq anititerror koalisiyasının uğur qazana bilməməsi, terrorun əksinə, Orta Şərq və Afrikada daha da genişlənməsinin səbəbi nə idi? Siyasi şərhçi Elxan Şahinoğlunun fikrincə, heç bir dövlət İŞİD-ə qarşı açıq savaşmağa risk etmir. Yalnız ABŞ irəli çıxaraq antiterror koalisiyası qurdu, lakin ekspertin fikrincə, bu prosesin özü çox ağırdır: "Bu proses ABŞ-ın üzərinə məsuliyyət qoyur. Bu məsuliyyətdən biri də İŞİD-ə qarşı mübarizənin ön sırada olmasını diktə edir. Çünki əslində İŞİD ABŞ-ın bölgədə yeritdiyi siyasətin nəticəsidir. Vaşinqton bölgədəki diktatorları yıxdı, ancaq yıxılan rejimlərin yerində ədalətli sistemin bünövrəsini qoya bilmədi. Bəli, Səddam Hüseyn diktator idi, bu ölkədə alternativ səsdən söhbət belə gedə bilməzdi. Ancaq heç olmazsa, Səddam Hüseynin dövründə vahid İraq var idi, terrorzim bu ölkəyə yad ünsür idi. İndi bunların heç biri İraqda yoxdur, yaranan boşluğu İŞİD doldurub. Vaşinqton isə İŞİD-lə nə edəcəyini bilmir. Doğrudur, bu illərdə ABŞ "əl-Qaida" terror təşkilatını xeyli zəifltdi, başçısını öldürdü. Ancaq İŞİD "əl-Qaida"ya bənzəmir. "əl-Qaida" fərqli ölkələrdə terror törətməklə məşhur idi, üzvləri gizlənirdi, böyük əməliyyatlar həyata keçirə bilmirdi. İŞİD isə həm xarici ölkələrdə terror törədir, həm üzvlərinin sayını xarici ölkələrdən gələnlərin hesabına artırır, həm ordusu ilə ərazilər işğal edir. Bunların heç birini "əl-Qaida" edə bilmir. Ona görə də ABŞ "əl-Qaida"nı zəiflətdiyi kimi İŞİD-i yox edə bilmir. Hadisələrin inkişafı göstərir ki, Vaşinqtonun buna heç həvəsi də yoxdur. Müharibələrin yaxın tarixi göstərir ki, yalnız hava bombardmanları ilə qarşı tərəfi zəiflətmək mümkün deyil. İŞİD-i məğlub etmək üçün piyada qüvvələrini Suriya və İraqa yeritmək lazımdır. ABŞ isə 30 minlik terror qruplaşması ilə baş-baş mübarizəyə hazır deyil. Çünki qarşısındakı düşmən elə bunu gözləyir. İŞİD amerikalıları əsir götürüb başlarını kəsmək üçün fürsət axtarır. Prezident Barak Obama isə İŞİD-ə bu fürsəti vermək, əsgər və zabitlərini ölümə göndərmək istəmir".

E.Şahinoğlu deyir ki, Vaşinqton başqalarının əli ilə İŞİD-i zəiflətmək istəsə də, hazırda bu plan alınmır: "Birincisi, ABŞ-ın İŞİD-ə qarşı savaşmaq üçün təlim keçdiyi İraq və ya Suriyadakı qüvvələr canları hesabına qarşısındakı vəhşilərlə vuruşmağa hazır deyillər. İŞİD üzvləri baş kəsir, özünü partladır, istənilən məntəqədən hücuma keçirlər. Qarşısındakı isə açıq döyüşdən çəkinir, baş kəsən İŞİD-in girovluğuna düşmək istəmir. Ona görə Pentaqon zabitlərinin təlimatları illərdir nəticə vermir. Həm də axı bu təlimlər mərkəzləşdirilmiş şəkildə həyata keçirilmir. İkinci səbəb ABŞ-ın müttəfiqləri olan Səudiyyə Ərəbistanı ilə Qətərin İŞİD-ə qarşı koalisiyada həvəssiz iştiraklarıdır. Bu iki dövlət vaxtilə İŞİD-in boya-başa çatmasında xüsusi rol oynayıb. İŞİD Suriya diktatoru Bəşər Əsədə qarşı savaşa başladıqda bu terrorçu təşkilat Səudiyyə Ərəbistanı ilə Qətərdən açıq dəstək alırdı. Doğrudur, hazırda Səudiyyə Ərəbistanı bu təşkilatla iplərini qopartsa da, özündə İŞİD üzvlərini həbs etsə də, istisna deyil ki, Səudiyyə Ərəbistanı şeyxləri arasında İŞİD-ə gizli kömək edənlər var. Həmin şeyxlərin əsas tələbləri odur ki, İŞİD Səudiyyə Ərəbistanının Suriya və İraqdakı rəqiblərini neytrallaşdırsın, sərhədi aşmasın. Qətərə gəldikdə isə bu ölkənin İŞİD-ə simpatiyası olduğu gizli deyil. İndi ABŞ-ın bu "müttəfiqləriylə" İŞİD üzərində necə qələbə çalmaq olar?"

Türkiyənin də İŞİD-lə mübarizəyə həvəsli olmadığını deyən E.Şahinoğluna görə, Ankara üçün bu təşkilat ciddi təhdid yaratmadığı üçün Türkiyə hakimiyyəti daha ciddi təhdidlərə qarşı mübarizə aparmağa çalışır: "Şanlı Urfadakı son terror aksiyasını çıxmaq şərtilə İŞİD Türkiyəyə ciddi problem yaratmır. Əksinə, İŞİD Türkiyənin düşmənləri olan terrorçu kürd qruplaşmalarının özünün hədəf seçib. Doğrudur, hazırda Ankara ABŞ-ın Adananın İncirlikdəki hərbi bazasından İŞİD-ə qarşı hava hücumlarına yaşıl işıq yandırıb. Ancaq Türkiyə ordusu Suriya və İraqla sərhədi keçib başqalarının əvəzinə İŞİD-lə savaşan deyil. Türkiyə ordusu sadəcə, Suriyada ara bölgə yaradıb oradan kürd silahlı təşkilatlarının hücumlarını neytrallaşdırmağa çalışacaq. Türkiyə bundan artığına hazır deyil. Ankaranın əsas məqsədi İraq və Suriyada PKK və onun Suriyadakı tör-töküntülərini mümkün qədər zəiflətməkdir. Ankaranın siyasəti doğrudur. Əgər İŞİD ABŞ-ın yanlış regional siyasətinin övladıdırsa, qoy bu təşkilatla mübarizəni də Vaşinqton aparsın. Digər tərəfdən Ankaranın İncirlik hərbi bazasından istifadəyə razılıq verməsinin də riskləri üzə çıxıb. Çünki ABŞ həmin bazadan İŞİD-in mövqelərini vuracaq, bu isə İŞİD-in rəqiblərini mövqelərini gücləndirəcək, başqa sözlə, həmin mövqeləri sonradan kürd silahlı qruplaşmalar ələ keçirəcəklər. Bunun nəyi Türkiyəyə xeyirdir ki? PKK-nın arzusudur ki, Türkiyə ordusu İŞİD-lə savaşsın, hər iki tərəf itki versin, silahlı kürdlər də bundan öz məqsədləri üçün istifadə etsinlər. Ona görə də bir müddət sonra Ankara İŞİD-ə qarşı mübarizə siyasətini korrektə etməli olacaq. Sadəcə, hazırda PKK ilə mübarizədə Ankaranın Vaşinqtonun dəstəyinə, ən azı neytral qalmasına ehtiyacı var. Vaşinqton da bunun əvəzində İncirlik bazasından istifadə hüququ qazanıb. Ancaq bu sövdələşmənin uğurlu olacağına şübhə edirəm. Bu, müvəqqəti işbirliyidir. Çünki hədəflər və maraqlar fərqlidir".

❑ KƏNAN

YENİ MÜSAVAT
N 167 (6195) 3 avqust 2015



# İŞİD-in yox olmasını əngəlləyən güclər

Kənan RÖVŞƏNOĞLU

## Terror qruplaşmanın indiyədək yaşamasının səbəbləri haqda

**ABŞ-ın liderliyi ilə beynəlxalq antiterror koalisiyasının yaradılmasının bir ili tamam olur. 2014-cü ilin avqustunda ABŞ İraq və Suriyada İŞİD-ə qarşı mübarizə məqsədi ilə beynəlxalq koalisiya qurdu. Suriyanın şimalında Kobani (Ayn əl-Ərəb) şəhərinə hücumunun qarşısını almaq üçün ABŞ və Britaniya (daha sonra bir neçə ölkə də qoşuldu - K.R) aviasiyası İraq və Suriyada İŞİD mövqelərini bombalamağa başladı. Daha sonra koalisiya böyüyərək 64 dövləti özündə birləşdirdi.**

Ancaq bir il ötüb və ortada ciddi nəticə yoxdur. Əksinə, İŞİD Kobani istisna olmaqla Suriyada bir qədər də irəliləyib, İraqda isə mövqelərini qoruyub saxlayıb. Ancaq bunun əvəzinə Nigeriyada, Liviyada, Misirdə, Yəməndə, Əfqanıstanda və Pakistanda İŞİD-ə beyət edən və ya onun yerli "özəklərini" yaradan qruplaşmalar meydana çıxıb. ABŞ-ın İŞİD üzərində "zəfəri" bir neçə min yaraqlını öldürməsi və silah, texnikanı məhv etməsidir. Bu məlumatlar da Amerika ordusuna aiddir.

Doğrudur, hələ ilk günlərdə amerikalı generallar İŞİD-ə qarşı mübarizənin uzun illər (hətta 30 il deyən də vardı - K.R) vaxt tələb edəcəyini bildirirdilər. Ancaq bir il vaxt az müddət deyil. 64 dövlətin birləşdiyi bir koalisiyanın nədən bir terror təşkilatını yox edə bilməməsinin arxasında hansı səbəblər dayanır? Nəzərə almaq lazımdır ki, məsələn, "əl-Qaidə"dən fərqli olaraq İŞİD gizlənmir, mövqeləri, "sərhədləri", qərargahları, səngərləri bəllidir. Üstəlik "əl-Qaidə"dən fərqli olaraq İŞİD-ə qarşı İraq və Suriyada çox böyük sayda silahlı qüvvələr yerüstü savaş aparır. İraq, Suriya ordusu, könüllü dəstələr, kürd silahlı birləşmələri, Suriyada müxalif qruplar və sair. Yəni faktiki olaraq İŞİD-ə qarşı böyük bir cəbhə var. Hətta oturuşmuş dövlət olsaydı belə, bu qədər rəsmi, qeyri-rəsmi düşmənləri olan dövlət artıq süquta uğramalı idi.

İŞİD-ın hələ də davam gətirməsinin bir çox səbəbləri var. Daha doğrusu, bölgədə baş verənləri, yayılan xəbərləri incələyəndə bir sıra səbəblər, məqamlar ortaya çıxır. Onları sıralayaq.

Birincisi, İŞİD-ə qarşı mübarizə ciddi şəkildə aparılmır, yalnız müəyyən görüntü üçün və ya məqsədli olanda təşkilata zərbə vurulur. Məsələn, İŞİD-in Kobanidən çıxarmaq üçün koalisiya aviasiyası 5 ay davamlı bombaladı və faktiki kürdlərin (YPG) İŞİD üzərində qələbə çalmasına nail oldu. Yaxud da Ərbilə yönələn İŞİD qüvvələrinin qarşısını almaq üçün sürəkli bombalanmalar oldu və İŞİD geri çəkildi.

İkincisi, İŞİD mövcudluğunu davam etdirməsi və yaranma səbəbi İraqda və Suriyada mövcud hakimiyyətlərin devrilməsi olub və bu gün də əsasən bu istiqamətdə savaşır. Bu isə ABŞ da daxil olmaqla, demək olar ki, anti-İŞİD koalisiyası üzvlərinin əksəriyyətinin hədəfidir. Yəni koalisiya və İŞİD-in ortaq düşməni Bəşər Əsəd və qismən İraq hökumətidir. Bu mənada İŞİD-in məhv olması deyil, əksinə, qorunub saxlanıb Suriya ordusu ilə vuruşması koalisiya dövlətlərinə sərf edir.

Üçüncü məqam, İŞİD-in var olması İraq və Suriyada böyük xaos və deməli, qara bazarda neft, qaz, antik əşyalar, insan, orqan ticarəti kimi "qara" işlərin bölgədə ayaq tutması üçün böyük imkanlar açır. Təbii ki, illik dövriyyəsi yüz milyardlarla dollar edən bu bazarın sahibləri İraq və Suriyada bu cür xaotik vəziyyətin davam etməsində, onun əsas səbəbkarı kimi İŞİD-in qalmasında maraqlıdır. Bu siyahıya silah ticarətini əlavə edəndə nəticə fantastik alınır.

Dördüncü məqam, klassik xaos nəzəriyyəsində olduğu kimi, bölgədə xaosun olması "böyük qardaşlar", himayəçi gücə, eləcə də dövlətlərə ehtiyac yaradır. Beləliklə, İŞİD-in tərkibində sonu olmayan mücərrəd hədəflər uğurunda savaşan, özünü fəda edən, partladan, saysız qətllərə, cinayətə əl atanlarla yanaşı, onun varlığında, davam etməsində maraqlı olan böyük dövlətlər, güclər var. Onlar üçün İŞİD-in varlığı böyük önəm daşıyır, maraqları təmin olunur. Bu isə İŞİD-in hələ uzun müddət, ən azı daha bir alternativ ortaya çıxana qədər davam edəcəyini deməyə əsas verir.

# "Rusiyadan göndərilən vəsaitlərin yarıbayarı azalması sosial gərginliyə gətirə bilər"

**Rusiyadan Azərbaycana göndərilən vəsaitlərin ümumi həcmi 50 faiz azalıb. APA-nın məlumatına görə, bu ilin I rübündə pulköçürmə sistemləri vasitəsilə Rusiya və Azərbaycan arasında transfertlərinin həcmi 182 mln. dollara çatıb. Rusiyanın Mərkəzi Bankı xəbər verir ki, bu, 2014-cü ilin I rübü ilə müqayisədə 109 mln. manat və ya 37,4% azdır.**



**Vahid Əhmədov:** "Bu, regionlarda yaşayan insanların da həyat şəraitinə müəyyən qədər təsir edəcək"



**Natiq Cəfərli:** "Rusiyada vəziyyət pisləşdikcə orada çalışan soydaşlarımızın göndərdiyi vəsaitlər də azalacaq"

Məlumata görə, bu ilin 3 ayında Rusiyadan Azərbaycana 126 mln. ABŞ dolları həcmində vəsait köçürülüb ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 124 mln. ABŞ dolları və ya 49,6% azdır. Qeyd edək ki, bu ilin ilk üç ayında hər əməliyyat üzrə orta hesabla 419 ABŞ dolları köçürülüb.

Xatırladaq ki, 2014-cü ilin I rübündə pulköçürmə sistemləri vasitəsilə Rusiyadan Azərbaycana 250 mln. ABŞ dolları göndərilib. Bu zaman hər əməliyyat üzrə pulköçürmənin orta məbləği 609 ABŞ dolları olub.

Azərbaycandan Rusiyaya pul köçürmələrinin həcminə gəlincə, burda artım müşahidə olunub. Belə ki, bu ilin yanvar-mart aylarında hər əməliyyat üzrə orta məbləğ 700 ABŞ dolları olmaqla ölkəmizdən şimal qonşumuza ümumilikdə 56 mln. ABŞ dolları həcmində pul köçürülüb. Bu isə 2014-cü ilin müvafiq dövründəkindən 15 mln. ABŞ dolları və ya 36,6% çoxdur. Başqa sözlə, ötən ilin ilk rübündə Azərbaycandan Rusiyaya hər əməliyyat üzrə orta məbləğ 754 ABŞ dolları olmaqla ümumilikdə 41 mln. ABŞ dolları həcmində vəsait daxil olub.

Heç kimə sirr deyil ki, Rusiyadan Azərbaycana göndərilən vəsaitlərin böyük bir qismini o ölkəyə qazanc dalınca getmiş həmvətənlilərimizin ailələrinə göndərdikləri pullar təşkil edir. Bu vəsaitlərin böyük bir qismi isə regionlarda yaşayan kasıb əhalinin sosial durumunun yaxşılaşmasına xidmət edirdi. Lakin həmin vəsaitlərin kəskin azalması insanların dolanışığı və sosial durumu ilə bağlı da suallar yaradır.

"Yeni Müsavat"a açıqlamasında mövcud durumu dəyərləndirən iqtisadçı ekspert Natiq Cəfərli bildirdi ki, əgər vəziyyət bu cür davam etsə, regionlarda sosial gərginlik yarana bilər: "Əslində, gözlənilən bir durum idi. Rəsmi rəqəmlərdə qeyd olunanlar da gözləntiləri təsdiqlədi. Ötən ilin sonundan etibarən Rusiyada iqtisadi vəziyyətin ağırlaşması, rublun kəskin dəyərdən düşməsi, iqtisadi aktivliyin azalması, iş yerlərinin itirilməsi prosesi gedir. Rəsmi rəqəmlərə görə, Rusiyada ümumdaxili məhsulun 3-4 faiz azalması baş verib. Bu durum Rusiyada çalışan yüz minlərlə azərbaycanlının gəlirlərinə təsir etməyə bilməzdi. 2012-ci ilin rəsmi rəqəmlərinə görə, Azərbaycana Rusiyadan rəsmi kanallarla 1,8 milyard dollar vəsait daxil olmuşdu. Qeyri-rəsmi daxil olmaları da nəzərə alsaq, gələn vəsaitlərin həcmi 3 milyarda yaxın idi. Bu vəsaitlər Azərbaycanda, xüsusən regionlarda sosial gərginliyin artmasında mühüm rol oynayırdı. Bu vəsaitlər iqtisadiyyatın digər sahələrinin də canlanmasında rol oynayırdı. Daşınmaz əmlak bazarında, avtomobil bazarında, məişət əşyaları bazarında Rusiyadan göndərilən vəsaitlərin ciddi rolu olurdu. İnsanlar hətta kredit götürəndə belə hesablamalarını ona görə aparırdılar ki, Rusiyadan yaxınlarının göndərdikləri vəsaitlər hesabına kreditlərini ödəyəcəklər. İndi bu azalma həm regionlarda sosial vəziyyətin gərginləşməsi prosesini sürətləndirir, həm də iqtisadiyyatın digər sahələrində daralmalara səbəb olur. Artıq həm daşınmaz əmlak, həm avtomobil bazarında satışlar 30-40 faizdən çox düşüb. Regionlarda və Bakıda bir çox satış məntəqələri bağlanıb, məişət əşyaları bazarı iflas edib".

İqtisadçı ekspert bildirdi ki, Azərbaycandan Rusiyaya göndərilən vəsaitlərin həcminin artmasının da səbəbləri var: "Bu səbəb ondan ibarətdir ki, Rusiyada çalışan həmyerlilərimiz qazanclarının yaxşı vaxtında xeyli vəsaiti daşınmaz əmlak bazarına yatırmışdılar. İndi oradakı biznes vəziyyətləri gərginləşdikcə, nağd pula ehtiyac yarandıqca onlar Azərbaycanda olan daşınmaz və daşınar əmlaklarını sataraq bu şəkildə valyutanı ölkədən çıxarıb oradakı bizneslərini ayaqda tutmağa çalışırlar. Bu proses ölkədən külli miqdarda valyutanın çıxması ilə nəticələnir və həm də manata təzyiqləri artırır. Ölkəyə nə qədər az valyuta daxil olursa, bu, manatın məzənnəsinə basqını artırır. Rusiyadan yüz milyonlarla vəsait daxil olarkən manatın məzənnəsini stabil saxlamağa ciddi dəstək olurdu. Ancaq indi o, dəstək azalıb. Neftin qiymətinin azaldığı bir vaxtda yəqin ki, yaxın vaxtlarda Mərkəzi Bankın açıqlamalarında biz bunu görəcəyik".

Natiq Cəfərlinin proqnozlarına görə, yaxın gələcəkdə Rusiyanın vəziyyətinin yaxşılaşması gözlənmir: "Bütün proqnozlar bədbindir. Hətta Rusiya rəsmi dövlət orqanlarının və Mərkəzi Bankının açıqlamalarında da ən yaxşı halda 2017-ci ildə vəziyyətin stabilləşəcəyi deyilir. Bu, o deməkdir ki, gələn il də vəziyyətin ağır keçəcəyi proqnozlaşdırılır. Rusiyada vəziyyət pisləşdikcə orada çalışan soydaşlarımızın göndərdiyi vəsaitlər də azalacaq, bu da sosial gərginliyin artması üçün zəmin yarada bilər. Çünki regionlarda əhalinin əsas dolanışığı məhz Rusiyadan gələn vəsaitlər hesabına idi. Bu proses işsizliyin artmasına, yoxsulluğun artmasına gətirib çıxaracaq. Hökumət artıq çoxdan bu istiqamətdə proqram hazırlamalı idi. Çünki hazırda baş verənlərin proqnozu bir il öncədən verilmişdi. Lakin bu sahədə hər hansı proqramın tətbiq olunduğunu biz görmürük".

Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü Vahid Əhmədov da "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, açıqlanan rəqəmlər gözlənilən idi: "Bu, demək olar ki, gözlənilən bir hal idi. Çünki Rusiyada yaşayan soydaşlarımız tərəfindən Azərbaycana göndərilən vəsaitlərin azalacağı proqnozu verilmişdi. Rublun kəskin devalvasiyası, Rusiyaya qarşı tətbiq edilən sanksiyalar və sair bu ölkədə iş yerlərinin azalması və gəlirlərin bir qisminin itirilməsi ilə nəticələndi. Bundan sonra Azərbaycana köçürülən vəsaitlərin də həcmi kəskin azalmağa başladı. Bu insanların əksəriyyəti Azərbaycanın regionlarından gedən insanlardır. Göndərilən vəsaitlərin azalması regionlarda yaşayan insanların da həyat şəraitinə müəyyən qədər təsir edəcək, sosial vəziyyət bir qədər pisləşə bilər. Ancaq bu problem qısa müddətə olmasa da, müəyyən zamandan sonra öz həllini tapacaq. Yəqin ki, Avropa ölkələri ilə Rusiya müəyyən mərhələdən sonra ortaq məxrəcə gələcəklər və bu problemləri aradan qaldıra biləcəklər".

V.Əhmədovun sözlərinə görə, həm Rusiya, həm də Azərbaycan neft ixrac edən ölkədir, bu prosesdə neftin qiymətinin kəskin azalması da az rol oynamır: "Mən inanmıram ki, Rusiyadan gələn vəsaitlərin azalması hansısa sosial gərginliyə səbəb olacaq. Çünki orada işləyənlərin Azərbaycana göndərdiyi vəsaitlərin əksər hissəsi müəyyən tikinti işlərinə sərf olunurdu. İndi bu sahədə müəyyən durğunluq olacaq. Azərbaycan hökuməti də yəqin ki, müəyyən addımlar atacaq. Orada yaşayan insanların həyat şəraitinin yaxşılaşması, qazanclarının normal olması üçün xaricdə yaşayanlar üzrə komitə müəyyən işlər görəcək. Ümumilikdə bu proses bütün dünyada gedir, ciddi siyasi təlatümlər baş verir, hər kəs də buna hazır olmalıdır".

Azərbaycandan göndərilən vəsaitlərin artmasının səbəbinə gəlincə, deputat qeyd etdi ki, bu daha Rusiyadan idxal olunan malların artması ilə əlaqədardır: "Biz idxalı müəyyən qədər artırdığımız üçün göndərilən vəsaitlərin həcmi də artıb. Rusiya ilə Azərbaycan arasında iqtisadi əlaqələr normal səviyyədə olduğu üçün iki ölkə arasında pul dövriyyəsi də olur. Ola bilər ki, müəyyən oliqarxlar var, vəsaitlərini Rusiyadakı banklarda saxlamağa üstünlük verirlər. Yəni göndərilən vəsaitlərin strukturuna baxmaq lazımdır ki, hansı sahələrə yönəldilib".

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 167 (6195) 3 avqust 2015

**Kəlbəcər köçkünü Əli Bayramov rayonun icra başçısı Aqil Məhərrəmovu ondan külli miqdarda rüşvət almaqda ittiham edir. O iddia edir ki, başçı rüşvət kimi aldığı pulu qaytarmamaq üçün oğlu Qalib Bayramovun həbsinə nail olmaq və bununla onu puldan imtinaya məcbur etməyə çalışır. Redaksiyamıza təşrif buyuran Ə.Bayramov deyib ki, icra başçısı onu aldadıb pulunu əlindən alana qədər köçkün rayon sakinləri arasında imkanlı şəxslərdən hesab olunub.**



# Kəlbəcərin icra başçısına 300 min manatlıq rüşvət ittihamı

## Rayon sakini Əli Bayramov: "Aqil Məhərrəmov pulu aldıqca yuxarıdakıların ünvanına elə hey asıb-kəsir, söyüş söyməkdən belə çəkinmirdi"

Hazırda isə çörək almağa belə pul tapmır. Bildirir ki, hazırkı duruma onu icra başçısı Aqil Məhərrəmov salıb.

Ə.Bayramov prezident İlham Əliyevə, millət vəkili Mehriban xanım Əliyevaya, Dövlət Sosial Müdafiə Fondunun sədri Elman Mehdiyevə, baş prokuror Zakir Qaralova, Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin rəisi Kamran Əliyevə, milli təhlükəsizlik naziri Eldar Mahmudova, millət vəkili Cavid Qurbanova ünvanladığı məktubu redaksiyamıza təqdim edib. Həmin məktubda Ə.Bayramov yazır: "Oğlum Qalib Bayramov 2006-cı ilin oktyabrında Dövlət Sosial Müdafiə Fondunun Kəlbəcər rayon şöbəsində məsləhətçi kimi işə başlayıb. İşlədiyi müddətdə heç bir hüquq pozuntusuna yol verməyib. Yaxşı işinə və yerli kadr olduğuna görə Elşən Əlizadə tərəfindən daim irəli çəkilib, hazırda isə həbs olunmaq təhlükəsi ilə üz-üzədir. Bunu yaradan səbəblər isə aşağıdakılardır: DSMF-nin Kəlbəcər rayon şöbəsinin müdiri 2013-cü ilin sentyabr ayında dünyasını dəyişdi. Boş qalan həmin vəzifəyə ən real namizəd mənim oğlum idi. Bu barədə yerli camaat da söhbət edirdi, rayonun rəhbərliyi səviyyəsində də danışılmışdı. Bu ürək açan, hər bir atanı sevindirə biləcək xəbəri eşitmək mənim üçün qürurverici idi. Bu xəbərlər dolaşan vaxt günlərin birində Kəlbəcər rayon İcra Hakimiyyətinin başçısı Aqil Məhərrəmov məni qəbuluna çağırdı. Aqil müəllim məni mehriban qəbul edib oğlum haqda xoş sözlər söyləməsi deyilənləri təsdiq etdi. Oğlumun DSMF-nin Kəlbəcər rayon şöbəsinə müdir təyin edilməsinin reallığına tam əmin oldum. Bunun üçün nələr etmək lazım olduğunu Aqil müəllimdən soruşdum. Məni "başa" saldı, bildirdi ki, yuxarılardakıları razı salmaq, oğlumun təsdiqi üçün "nəsə" etməlisən. Mən bu "nəsə"nin nə qədər olacağını soruşdum. Aqil müəllim məndən 90 min manat gərək olduğun bildirdi. "Fikirləşərəm" deyib Aqil müəllimin qəbulundan çıxdım. Bütün əmlakım gözüm önünə gəldi. İstənilən məbləğ də az deyildi. Bir neçə günün içində 70 min manat düzəldib başçısı Aqil Məhərrəmovun qəbuluna gəldim. Gətirdiyim 70 min manatı Aqil müəllimə verdim. Aqil müəllim pulun azlığından şikayət edib qalanının da tezliklə çatdırılmasını tapşırdı. Bu minvalla Aqil müəllim hər 5-10 gündən bir mənə qalığın çatdırılmasını, bir az da üstünün düzəldilməsini tapşırırdı. Birinci dəfə istənilən 90 min manatın qalığı 20 min manatı aparanda evdə də 10 min manat saxlamışdım. Aqil müəllim narazılıq edəndə 10 min manat da gətirə biləcəyimi deyib, icazə alıb çıxdım. Aqil müəllimə bu pulu da gətirib verib, vaxt-vədəni gözləməyə başladım. Bir müddətdən sonra Aqil Məhərrəmov məni qəbuluna çağırtdırıb hər şeyin həll olunduğunu, yuxarılardan kiminsə iştahasının böyük olduğundan əmrin gecikdiyini söylədi. Buna görə 50 min manat da gətirməyi söylədi. Hər dəfə Aqil müəllim pulu aldıqca yuxarıdakıların ünvanına elə hey asıb-kəsir, söyüş söyməkdən belə çəkinmirdi. Bir neçə gündən sonra deyilən 50 min manatı da Aqil Məhərrəmova çatdırdım. Bir müddətdən sonra eşitdim ki, Gürcüstanda şübhəli ali məktəbə qəbul olunan, sonradan Gəncədəki ali məktəblərin birində təhsil almış Elşən Əlizadə adlı biri DSMF-nun Kəlbəcər Rayon Şöbəsinə müdir təyin olunub. Bu barədə Aqil Məhərrəmova danışdım, məsələnin niyə bu cür alınmasını soruşdum. Aqil müəllim məni arxayın etdi ki, bu müvəqqətidir. Bu yandan da təzə müdir Elşən Əlizadə oğluma bildirib ki, bu yer sənlikdir, mən müvəqqəti bura təyin olunmuşam. Oğlumsa öz yeni müdirinə bildirib ki, mənim heç o yerdə gözüm yoxdur, əl-ələ verək işləyək. Prosesin bu cür aldadıcı manevri məni bir az sakitləşdirdi".





Əli Bayramov

Məktub müəllifi yazır ki, sonradan bilib ki, bu oğluna cinayət işi başlanılması üçün bir oyun olub: "Verdiyim 150 min manatın istənilməməsi üçün yeni müdir oğlumun işlədiyi dövr ərzində pensiya təyinatı üçün sənədlərini hazırladığı şəxslərin işlərini təftiş etdirib, onların pensiyasını dayandırmaqla, oğlumun əleyhinə ərizələr toplayırmış. Bir gün məni çağırıb oğlum haqda topladığı sənədləri göstərdi, bunları rayon prokurorluğuna göndərəcəyini bildirdi. Bunun prokurorluğa göndərilməməsi üçün məndən 100 min manat pul istədi. Mən əlimdə, ovcumda olan, bütün malımı, mülkümü satıb icra başçısı Aqil Məhərrəmova verdiyimi səmimi ona danışdım. Elşən Əlizadə elə oradaca mənə bildirdi ki, bəs onda niyə Aqil Məhərrəmov ona bu sənədlərin toplanıb prokurorluğa verilməsin tələb edib? Bu sual qarşısında aciz qaldım. Aqil Məhərrəmovun qəbuluna getdim. Lakin məni qəbula buraxmadılar. Elşən Əlizadə isə məsələni tezliklə həll etməsəm, sənədləri prokurorluğa verəcəyi ilə məni təhdid etdi. Məcburiyyət qarşısında qalıb ailə üzvlərimin, yaxın qohum və tanışların adına banklardan kredit götürüb 80 min manat düzəldib DSMF-nun Kəlbəcər rayon şöbəsinin müdiri Elşən Əlizadəyə verdim. Lakin bir gün Elşən Əlizadə oğluma bildirdi ki, DSMF-nin müdiri Elman Mehdiyev şəxsən özü tapşırıb ki, adı prokurorluqda hallanan işçinin mənim idarəmdə qalması yol verilməzdir. Mən işi prokurorluğa göndərib səni də işdən azad edəcəm. Mən bu proseslər zamanı Mehriban Əliyevayaya, Baş Prokurorluğa məktub yazıb, teleqramın vurmuşdum. Buna görə də Respublika Prokurorluğunda izahatım alınıb, dindirilmişdim. Verdiyim pulların qaytarılması üçün cəhd etdikcə ailəmə təhdidlər artırdı. Oğlumun həbs ediləcəyi, öldürüləcəyi təhdidləri ara vermirdi. Lakin yenə işin sakit həll olunması üçün istənilən məbləği ödəməyə belə gedirdim ki, təki sakitlik olsun, Aqil Məhərrəmova verdiyim pulu geri alım. Bütün bunlardan sonra dövriyyəyə rayon prokuroru Ariz müəllim buraxıldı. Ariz müəllimə 90 min manat pul verdim ki, sakit olsunlar. Lakin bunlar məndən əl çəkmədilər. Bu işlə bağlı 300 min manatdan yuxarı xərcim çıxıb".

Məktub müəllifi səlahiyyət sahiblərinə müraciətində yazır ki, ondan rüşvət şəklində alınan pulları əmlaklarını, 600 baş qoyunu, 30 baş inəyi, 3 atı, 2 avtomobili, 1 ət mağazasını, bütün şəraiti olan evini satmaqla, 30 nəfərdən çox qohum, qonşu, dost-tanış adına müxtəlif banklardan hər birinin adına götürdüyü kreditlər hesabına toplayaraq verib: "Bu özbaşınalığa son qoyulması, mənə dəymiş ziyanın ödənilməsi, bu hadisələri başıma gətirənlərə qarşı cinayət işinin başlanılmasını xahiş edirəm".

Ə.Bayramov adlarına kredit götürdüyü yaxınlarının ad-soyadları olan siyahıları da təqdim edib.

❑ **E.MƏMMƏDƏLİYEV**

***P.S*** *Yazıda adı hallanan hər kəsi dinləməyə hazırıq.*





# Adı kimi bahalı olan "Mirvari" restoranı

## Müştərilər necə "soyulur"? "Bu restoranda bir dəfə yemək üçün ödənilən məbləğə ötən il Tiflisdə bir gün dincəlmişdim..."

**Yay ayları gəldisə, deməli, tətilin əsl vaxtıdır. Hər kəs istirahət üçün bir yerə üz tutur. Bəzilərimizin isə uzaqlara getməyə nə vaxtımız, nə də maddi imkanımız olmur. Buna görə də, Bakıətrafı yerlərə, dəniz kənarındakı istirahət mərkəzlərinə gedirik.**





Amma görünən odur ki, adıçəkilən yerlərə getmək, başqa bir ölkədə istirahət etməkdən daha baha başa gəlir. Misal üçün, Buzovna qəsəbəsində yerləşən "Mirvari" restoranında müştərilərə, deyəsən, "tükü yolunmalı toyuq" kimi baxırlar. Çünki əllərindən gələni edirlər ki, buraya ayaq basan şəxsin cibindəki, hətta evindəki bütün pulunu ondan alsınlar.

Bura avtomobillə girmək üçün xüsusi ödəniş etmək lazımdır. Təbii ki, ödənişin qarşılığında heç bir qəbz verilmir. Yəni vergidən yayınırlar. İçəri daxil olub, bir masada əyləşirsiniz ki, dəniz mənzərəsi qarşısında bir çay içəsiniz. Bu istəyiniz sizə nə az, nə çox, cəmisi 40 manata başa gələcək. Belə ki, minimum 30 manatlıq yemək sifariş etməyənə çay verilmir. Elə düşünməyin ki, 30 manat ödədikdən sonra çayı sizə pulsuz verəcəklər, xeyr, heç elə şey olar? Axı bura Bakıdır. Çay üçün də xüsusi şərtlər və ödəmələr var.

Ofisianta "Bizə bir çay gətir" dedinizsə, çayın yanında gələcək olan şirniyyat, şokolad və digər şeylərə hazır olun. Əgər çaydan öncə yayın bu istisində 30 manat "tərləmisinzsə" sizə sadə çay verəcəklər. Qiyməti də 10 manat... yox, əgər ilk sifarişiniz çaydırsa, onda 25 manat qiyməti olan dəstgaha hazır olun. Bu, təklif deyil, qaydadır.

Restoran sahibləri "uzagörən" olduqları və "müştəriləri düşündükləri" üçün onları yormurlar. Sizin yerinizə içəcəyiniz çayı da, yeyəcəyiniz yeməyi də onlar təyin edir. Sadəcə, cüzdan boşaltmaq sizə qalır. Bütün bunlarla yanaşı, qiymətlər çox bahadır. Məsələn, hər birimizin evdə tez-tez düzəltdiyi "çoban" salatının qiyməti 3 manat, bir kiloqramı 50-60 qəpik olan qarpızın 300 qramı 3 manat, bir neçə ucuz meyvənin bir boşqaba yığılaraq, adına "assorti" deyilməsi 25 manat və s... Və özünüz sifarişlərinizi hesablamasanız, onsuz da baha olan xidmət üçün əlavə 10-15 manat da ödəyə bilərsiniz. Bu da sizə restoran tərəfindən xüsusi "hədiyyə"dir.

Sadaladığımız halları şəxsən yaşamış Rövşən Dadaşov deyir ki, burada bir dəfə yediyi yemək üçün ödədiyi pulla ötən yay Gürcüstanda istirahət edib: "Öncədən bu restoranın bu qədər bahalı olduğunu bilmirdik. Dostumla girdik içəri, əyləşdik masada... Çay içmək istəyirdik. Ofisiant dedi ki, sadə çay vermirlər. Səbəbini soruşanda isə "Müdiriyyətin əmri belədir. Əgər 30-40 manatlıq sifariş versəniz, sadə çay 10 manat olacaq. Yox, əgər yemək sifariş vemək istəmirsinizsə, çay dəstgahı gələcək. Onun da qiyməti 25 manatdır. Şərtimiz budur" dedi. Məcbur razılaşdıq. O qədər yol gəlmişdik axı... Amma mən bu qədər pula, ötən il Gürcüstanda 1 gün qalmışam və 3 dəfə müxtəlif restoranlarda yemək yemişəm".

Ölkəyə turist cəlb etmək üçün hökumət əlindən gələni edir. Tutaq ki, bir ingilis Bakıya gəldi və dəniz kənarında olan restoranda yemək yeyib, dənizə girmək istədi. Üstəlik də gəlib, çıxdı "Mirvari" restoranına... Ona ofisiantlar necə başa salacaqlar ki, bizdə menyu zorladır. Restoranın sahibi yemək üçün sizə limit qoyub. Yalnız onun istəkləri uyğun şəkildə çay içib, yemək yeyə bilərsiniz.

Buna görə də turistləri ölkəyə cəlb etməyin yollarını axtarmaqdan öncə, onların burada görəcəkləri şəraiti araşdırmaq lazımdır. Bu xidmət və qiymətlər nəinki turistlərə, heç öz vətəndaşlarımızın cibinə uyğun deyil.

Elə düşünməyin ki, sadaladığım bu problemlər sadəcə, "Mirvari" restoranında var. Xeyr, vəziyyət demək olar ki, dəniz sahilində olan bu tipli bütün istirahət məkanlarının hamısında eynidir. Pis xidmət, bahalı yeməklər, xüsusi şərtlər və s...

Bax, buna görə də, hər il yay aylarında Gürcüstanda, Türkiyədə istirahət edənlərin sayı Bakıda istirahət edənlərdən daha çox olur.

❑ **Məhəmməd TÜRKMƏN**

YENİ MÜSAVAT
N 167 (6195) 3 avqust 2015

# Keçmiş icra başçısı Başkənd gölünü satıbmış

## Kamran Rzazadə gölün ətrafına çəpər çəkdirərək insanların istirahət etmələrinə də imkan verməyibmiş

**1992-ci ildə Gədəbəyin ermənilərdən azad edilən Başkəndinin gölü acınacaqlı durumdadır. 2010-cu ilə qədər regionda balıqların bolluğuna görə öndə gedən göldə hazırda qıtlıq yaşanır. Buna səbəb rayonun keçmiş icra başçısı Kamran Rzazadənin 5 il öncə gölü qurutduraraq, üç tondan çox balığı Azərbaycanın müxtəlif bölgələrində, eləcə də, Rusiya ərazisində satdırmasıdır. Hazırda göldə balıqlar böyüklüyünə görə də əvvəlki illərdən kəskin fərqlənir.**

Balıqçılarla söhbətimiz zamanı onlar buna səbəb kimi beş il öncə baş verən hadisəni göstərdilər. Məlum oldu ki, keçmiş icra başçısı etdiyi cinayəti 2010-cu ildə baş verən Kür daşqınları ilə ört-basdır etməyə çalışıb. Dolayısı yolla buna nail olub. Hətta bununla bağlı yuxarı dairələrə də məlumat verib. Prezident Administrasiyasını bu məsələdə inandıra bilib. Qanunları tapdalayan K.Rzazadə gölün ətrafına çəpər çəkdirərək, bir aya yaxın insanların istirahət etmələrinə imkan verməyib. Gölün ətrafına heç kəsi buraxdırmayıb. Yalnız o zaman Gədəbəyin deputatı olan Nazim Məmmədovun işə qarışmasından sonra çəpər götürülüb. Məhz bundan sonra sabiq deputatla K.Rzazadə arasında soyuqluq yaranıb. N.Məmmədovdan qisas almaq üçün keçmiş icra başçısı üç ay sonra keçiriləcək parlament seçkilərində 103 saylı dairədən YAP-ın namizədi olacaq Rafiq Məmmədhəsənovun 104 saylı Tovuz-Gədəbəy seçki dairəsindən namizədliyinin irəli sürülməsinə nail olub. Bu yolla N.Məmmədovun növbəti dəfə deputat seçilməsinin qarşısını alıb. Çünki hakim partiya bu dairədən hazırda deputat olan R.Məmmədhəsənovu dəstəkləyərək, seçkilərə günlər qalmış N.Məmmədovu namizədliyini geri çəkməyə məcbur ediblər. 103 saylı seçki dairəsindən isə K.Rzazadə öz yaxın adamı Sevinc Hüseynovanın deputat seçilməsinə nail olub.

Araşdırmalarımız zamanı o da üzə çıxdı ki, hazırda Ceyrançölü deyilən ərazidə böyük sürülərə sahib olan K.Rzazadə Başkənd gölünü üç imkanlı şəxsə satıb. Sonralar həmin şəxslər verdikləri yüksək məbləğin qarşılığını görməyəndə sabiq icra başçısını məhkəmə ilə hədələyiblər. Yalnız bundan sonra K.Rzazadə onların pullarını geri qaytarmağa məcbur olub.

Mövzuda adı keçən N.Məmmədovun məsələyə münasibətini öyrəndik. Sabiq deputat baş verənləri təsdiqlədi: "Deyilənlər qismən də olsa həqiqətdir. Gölün çəpərlənməsinə deputat olarkən etiraz etdim və sökülməsinə nail oldum. Bundan sonra "Azərbaycan Cümhuriyyəti" adlı qəzetdə rayon rəhbərliyinin tapşırığı ilə əleyhimə silsilə yazılar getdi. Guya ki, mən qızıl zavodunun bağlanmasını istəmişəm, halbuki Gədəbəy rayonunda keçirilmiş hesabat iclasında hamının yanında qızıl zavodunda baş vermiş ekoloji qəza ilə bağlı ətrafda yaşayan kənd sakinlərinə vurulmuş maddi ziyanın ödənilməsini tələb etmişdim. Prezident Administrasiyasında bununla bağlı doğru olmayan fikir formalaşdırdılar. Bundan seçkilər zamanı təbliğat kompaniyasında mənə qarşı istifadə olundu. Bu məsələlərin keçmiş başçıya nə qədər aidiyyəti olduğunu təsdiq edə bilmərəm, mənim hər kəslə münasibətim normal olub, indi də normaldır"

Mövzuda adı keçən digər şəxslərin də mövqeyini dərc etməyə hazırıq.

❑ **Cavanşir ABBASLI**
**Fotolar müəllifindir**










## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

- **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
- **Cinsi marağın** və **cinsi aktların** azalması
- **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
- **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
- **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
- **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
- **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
- **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
- Əvvəldən **xarici cinsi üzvün** balaca olması
- **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
- **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
- **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
- **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
- Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
- **Yuxusuzluq və yuxu pozuntuları**
- Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
- Sidik aktlarının çətinlikləri və tutulmaları
- Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
- **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
- **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
- **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
- **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
- Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34




# "Qarabağ" -"Seltik" oyunu təhlükə altında

**UEFA Çempionlar Liqasının üçüncü təsnifat mərhələsi çərçivəsində Azərbaycan çempionu "Qarabağ"la Şotlandiyanın "Seltik" klubu arasında keçiriləcək cavab qarşılaşmasına cəmi üç gün qalıb.**

Azerisport.az xəbər verir ki, bu oyun ərəfəsində qarşılaşmanın keçiriləcəyi Tofiq Bəhramov adına Respublika stadionu ilə bağlı ciddi problem yaranıb. Belə ki, arenanın ot örtüyü sıradan çıxıb. Bir neçə gün öncəyə qədər hər şey qaydasında olsa da, mərkəzi arenanın qazonuna cavabdeh olan şirkətin apardığı kosmetik işlər əks effekt verib. Qazonun 30 faizi hazırda dəhşətli vəziyyətdədir. Bir sözlə, ot örtüyü belə qalacağı halda, mərkəzi arena avrokubok matçını qəbul etməyə bilər.

Lakin Ağdam klubunun başqa variantı da yoxdur. Çünki "Qarabağ" UEFA-ya ehtiyat stadion kimi "Bakcell Arena"nı təqdim edib. Bu stadionda isə avqustun 6-da Avropa Liqasının üçüncü təsnifat mərhələsi çərçivəsində "Qəbələ" - "Apollon" (Kipr) matçı keçiriləcək. Bu üzdən də sözügedən arenanın iki gün ardıcıl oyun qəbul etməsi mümkünsüzdür. Çünki avqustun 5-də "Qəbələ" ilə "Apollon"un bu stadionda oyun öncəsi son məşqi də keçirilməlidir.

Yaranmış vəziyyətlə əlaqədar artıq "Qarabağ" rəhbərliyi mərkəzi arenaya baş çəkib. Onlar qazonun son vəziyyəti ilə tanış olublar. Gördükləri isə klub rəsmilərini məyus edib. Çünki böyük ehtimalla komanda belə acınacaqlı ot örtüyündə oynamaq məcburiyyətində qalacaq.

Qeyd edək ki, ötən ilin sentyabr ayında Gənclər və İdman Nazirliyi, eləcə də AFFA hazırda Tofiq Bəhramov adına stadionun ot örtüyünə nəzarət etmək üçün bu şirkətlə bir illik müqavilə imzalamışdı. Həmin dövrdən bəri arenanın qazonuna məhz həmin şirkət cavabdeh idi. Bir neçə gün öncəyə qədər onların işində heç bir problem olmasa da, sonra baş verən hadisə ciddi narahatlığa və narazılığa səbəb olub.

Maraqlıdır ki, "Qarabağ" azarkeşləri "Seltik"lə ilk oyundan sonra cavab qarşılaşmasının Bakı Olimpiya Stadionunda keçirilməsi istəyi ilə AFFA rəhbərliyinə açıq məktub ünvanlamışdı. Amma həmin vaxt qazonun pis vəziyyətdə olması yox, komandamızın oyununa daha çox azarkeş toplamaq məsələsi gündəmdə idi. Gəl ki, Ağdam klubu 60 minlik yeni arenanı UEFA-ya təqdim etmədiyindən, matçın Olimpiya Stadionunda keçirilməsi mümkünsüzdür.


*Əyləncəli, sürətli, asan!*






## Elan

**Şəxsi yük maşınımı girov qoymaq şərtilə "DAF"-(105) kub qara bazarda qiyməti 50.000 AZN bahadır. 1 il müddətinə aylıq (3-4)%-dan çox olmamaq şərtilə 25.000 AZN kreditə ehtiyacım vardır.**

**Yalnız Notorius qaydasında.**

**Əlaqə telefonu: (050) 387-47-57; (070) 387-47-57**

YENİ MÜSAVAT
N 167(6195) 3 avqust 2015

# Ay Allah, bu müdirdən 5 dənə ver...

## Biri şirkətin gəlirini işçilərlə bölür, o biri ən bahalı tətillərə zorla göndərir...



## Dünyanın ən səxavətli müdirləri və onların çılğın jestləri

**"Yemeksepeti'nin qurucusu Nevzat Aydının Türkiyə mətbuatına verdiyi müsahibə ciddi rezonans doğurub. Məlumdur ki, adam öz müsahibəsində necə səxavətli olduğunu açıqlayıb: "Şirkətin satışından gələn 27 milyon dolları 114 işçimiz arasında bölüşdürdük".**

Biz Azərbaycanda belə şirkət rəhbərləri ilə qarşılaşmamışıq. Amma iş dünyası olduqca səxavətli olan rəhbərlərlə tanışdır. O siyahıya nəzər salaq və "nə üçün mənim müdirim elə deyil" sualını özümüzə verək... 9 böyük insan... Etdiklərinə və səxavətləri, anlayışları ilə insanları necə təəccübləndirdiklərinə baxaq.

**Öz məvacibindən vaz keçən müdir**

ABŞ-da, «Seattle»da Gravity adlı bir texnologiya şirkətinin qurucusu və rəhbəri olan Dan Price insan qaynaqları departamentindən gələn "işçilərin bədbəxt olması ilə bağlı" analiz sənədi ilə tanış olandan sonra unikal addım atıb. O, öz məvacibini haradasa sıfıra qədər azaldıb və hər kəsə yüzdə 400-ə qədər məvacib artımı edib. Pricenin bu radikal qərarı nəticəsində şirkətdəki ən aşağı məvacib isə aylıq 18 min, illik 70 min dollar oldu.

**"İndi ofisi tərk edib, dərhal istirahətə çıxın"**

FullContact şirkətinin rəhbəri Bart Lorant isə hər kəsi istirahətə çıxmağa məcbur edir və bunun üçün işçilərinə hər il məvacib xaricində 7 min 500 dollar ödəyir. Amma iki şərti var: birincisi bu tətil, həqiqətən də, yaxşı bir tətil olacaq və işçilər yaxşı tətil keçirdiklərini sübut edəcəklər. İkincisi də, iki həftə boyunca bir dənə də elektron məktuba cavab verməməli, şirkətdən heç kimlə əlaqə qurmamalıdılar. Lorant bir müsahibəsində aşağıdakıları deyib: "Bunu işçilərimin xoşbəxtliyi üçün yox, işimin uğuru üçün etdim. Və gözlədiyim nəticəni də aldım".

**"Lazım olmadıqca ofisə getmək qadağandır"**

Hər şeyi başlayan əslində NetflixE Dijital yayıncılığın lider firması, şirkətin bütün siyasətini "ofissizlik" və "iclassızlıq" üzərində qurub. Bunun ardınca media dünyasının başqa bir nəhəngi olan Virgin Group'un rəhbəri Riçard Branson işçilərinə ofisə gəlməyi qadağan edib. O, bildirib ki, təcili bir vəziyyət olmadığı halda, iclas keçirməyəcək və işçilərini də bir araya gətirməyəcək. Hazırda Virgin Group şirkəti işçilərinin 80 faizi evdən işləyir.

**6 400 nəfər işçisi ilə Fransaya uçub**

"Tiens Group Company"nin sahibi, məşhur çinli milyarder Li Jinyuan şirkətinin 6 min 400 nəfər işçisi ilə birlikdə eyni anda Fransaya tətilə gedib. Məşhur iş adamının bu səxavətinə isə şirkətin qurulluşunun 20-ci ildönümü səbəb olub. Maraqlıdır ki, 6 min 400 nəfər işçinin Fransa və Monakko tətilinin maliyyəti 15 milyon dollar olub.

**1700 işçisi ilə gəmiyə minib getdi...**

Başqa bir toplu tətil həvəskarı isə məşhur televiziyaçı Oprah Vinfreydir. O isə şirkətin yox, özünün 55-ci ad günündə 15 günlük bir Ağdəniz turu təşkil edib və 1700 işçisini də özü ilə aparıb. Nəhəng bir gəmi ilə Türkiyədən İspaniyaya bütün Ağdəniz sahillərini dolaşan heyətin tək bir əməkdaşının tətilinin maliyyəsi isə 7 min dollar olub.

**"Təhsil xərcləri məndən..."**

"Boxed" adlı oyun şirkətinin rəhbəri Chieh Huangın addımı isə olduqca fərqli olub. Belə ki, o, işçilərinin daha çox öz uşaqlarının gələcəyi ilə bağlı narahatçılıq keçirdiyini hiss edib. Günlərin bir günü o, 1222 işçisinə heç gözləmədikləri bir anda bu açıqlamanı verib: "Neçə uşağınızın olmasının və onların xərclərinin nə qədər olmasının heç bir önəmi yoxdur. Onların bütün universitet xərcləri mənim üzərimdədir".

Huang məhz bu hərəkətinə görə 2015-ci ilin ən yaxşı müdiri seçilib.

**"100 milyon dolları bölüşün"**

Single Platform adlı start-upın qurucusu və rəhbəri Viley Cerilli isə şirkətini sıfırdan qurub, 100 milyon dollara satıb. Özü heç bir pul almadan, bu məbləği işçiləri arasında bölüşdürüb. Bölmə zamanı işçilərin iş stajı, performansları da nəzərə alınıb. Maraqlıdır ki, ən yüksək məbləğ 1 milyon dollar, ən aşağısı isə 10 min dollar olub.

**"Hər kəsə məndən ev, maşın, almaz..."**

Almaz taxanların dünyanın ən varlı adamları, onu çıxaranların isə ən kasıb olmaları iqtisadi ədalətsizliyin ən böyük simvollarından biri sayılır. Ancaq Divalidə vəziyyət fərqlidir. Almaz şirkəti Divali bütün işçilərinə lotoreya ilə 570 maşın, 200 ev və 300-dən çox almazdan hazırlanmış ləl-cəvahirat hədiyyə edib. Üstəlik, bunun üçün xüsusi bir səbəb də olmayıb.

Hər şey pul, tətil deyil hər halda. Önəmli olan niyyətdir. Kiçik bir texnoloji şirkətin qurucusu olan Dan Rice və heyəti bir Game of Thrones azarkeşi idi. Həm özünün, həm də heyətinin bu aludəçiliyini görüb, o, bazar ertəsi günü yayımlanan verilişi izləmək üçün ildə 10 gün (10 bölüm üçün) işə gəlməyi qadağan edib.

**Bu da onların xəsis versiyası...**

ABŞ-da aparılan müşahidələr göstərir ki, hər 4 amerikalı milyonerdən biri 100 dollardan baha olmayan ayaqqabı geyinir və hər 10-u isə öz kostyumuna maksimum 200 dollar pul ödəyir. Yalnız 50 faiz milyoner 240 dollardan baha olmayan saat almağa razıdır və onların üçdə bir hissəsi hələ 3 ili tamam olmamış avtomobil istifadə edirlər.

Varlıların harada yaşamasına gəlincə, qeyd edək ki, onlar daha çox London və Nyu-York şəhərlərini tərcih edirlər. Araşdırmalara görə, dünyada illik xərclənə biləcək sərvəti 100 milyon dollardan çox olan 63 min nəfər yaşayır. Bu adamların toplam sərvətləri isə 39,9 trilyon dollar təşkil edir.

Rəqəmlərlə bu qədər. Bu günlərdə mərkəzi Nyu-Yorkda olan The Luxury Institute maraqlı araşdırma hazırlayıb. Həmin araşdırmaya görə, sərvət sahibləri və milyarderlərin lüks həyat tərzi ilə bağlı bir çox yanlışlar var.

Yanlışların sıralaması isə belədir:

1.Varlılar pulu asanlıqla qazanıb, asanlıqla xərcləyirlər. Halbuki onlar nəyisə satın almadan öncə yanlarında çalışan araşdırmaçıları onlara məlumat verir, ən ucuz və sərfəlisini alırlar.

2.Varlılar başqa bir aləmdə yaşayan harınlardır. Bu da elə birinci bəndəkinə bənzər bir yanlışdır. Əslində varlılar bir çox kasıblardan və ya orta sinif nümayəndələrindən fərqli olaraq daha az alış-veriş edir. Milyonerlərin həyata dair ən böyük narahatlığı isə uşaqlarını yaxşı yetişdirmək, yaşadıqları həyat standartını qoruya bilmək, eyni şəkildə valideynlərinin də yaşlılıqlarında rahat yaşayışını təmin etməkdir.

3. Milyonerlər üçün bir malın bahalı olması hər şeydən önəmlidir. Bunun yanlışlığını isə iqtisadi araşdırmalar ortaya qoyub. Varlılar həyat təcrübəsinin də qatqısı ilə keyfiyyətli malı dərhal ayırd edə bilir. Onların qabağına onlarla marka qoysan, mütləq ən keyfiyyətlisini seçəcək.

4. Varlı müştərilər heç vaxt müştəri məmnunluğu ilə bağlı rəy sorğularına qatılmırlar. Əksinə, əksər varlı müştərilər savadlı olduqları üçün bilirlər ki, markanın önəmini bu cür rəylər müəyyənləşdirir. Ona görə də maksimum aktiv olurlar.

5. Milyonerlər internetdən çox istifadə etmir. Bu da yanlış bilgidir. Vaxtının çoxunu işləməklə keçirən varlılar onlara zaman qazandıra biləcək hər şeydən istifadə edirlər. Bunların sırasında isə internet ön yerlərdədir. Onlar internetə daha çox lüks mallar, lüks xidmətləri axtarmaqla yanaşı, işlərini daha sürətlə istifadə etmək üçün baş vururlar. Yəni bank əməliyyatları və internet vasitəsilə alış-veriş üçün...

6. Bazar araşdırmaları və rəyləri varlıların satın alma qərarları üzərində təsirli deyil. The Luxury Institute'un araşdırmasında məlum olub ki, varlıların 80 faizi güvənli hesab etdikləri şəxslərin və qurumların qərarlarına önəm verir.

7. Lüks marka sahibləri, sadəcə, ən varlıları hədəf almalıdır. Əslində araşdırmalar göstərib ki, savadlı və həyatı anlayan varlılar üçün uşaqlarının, özünün səyahət planları, sağlam yaşam tərzi daha çox önəm daşıyır.

Forbes jurnalında tez-tez ən varlı adamların sırasında yer alan, 67,8 milyard dollarlıq sərvəti ilə birinci olan Karlos Slim 12 yaşından bu günə qədər yediyi, içdiyi və aldığı paltarlar da daxil olmaqla, bütün xərclərini bir kənara qeyd edir. 13 ildən sonra dünyanın ən varlı insanı ünvanını əldən qaçıraraq ikinci olan Bill Geyts isə dünyanın ən bahalı evində yaşayıb. Amma özəl bir təyyarəsi, gəmisi olmayıb. Heç lüks partilərə də qatılmayıb. Sərvəti 56 milyard olan Geyts gündə 17 saat çalışıb və saniyədə 250 dollar qazanır. Dünyanın ən varlıları siyahısında üçüncü olan Varren Buffetti isə maliyyə dünyasının dahisi adlandırırlar. Amma bu dahi 20 ildir eyni pul qabından istifadə edir.

1930 təvəllüdlü iş adamı Varren Buffett isə öz sərvətinin 31 milyard dolarını Bill & Melinda Gates Vəqfinə keçirməklə ABŞ-da bu günə qədərki ən böyük xeyriyyə əməlinə imza atıb. 6 yaşında ikən Coca Colaları 5 sentlik gəlirlə sataraq pul qazanmağa başlayıb. Hələ də 1958-ci ildə satın aldığı 31 min 500 dollarlıq evdə yaşayır. Varren harasa getmək üçün sürücüdən istifadə etmir. Yuxarıda da dediyimiz 20 ildir eyni pulqabından istifadə edir. Və ən maraqlısı: günorta yeməyini yemək üçün özünün idarə etdiyi maşınla McDonalds-a gəlir.

Düzdür, bayaq Paris Hiltonu alış-veriş xəstəsi kimi təqdim etdik. Amma onun barəsində də bilmədiklərimiz var. 50 milyon dollarlıq bir sərvətə sahib olan, 1981-ci il təvəllüdlü Paris Hiltonun gördüyü işlər sırasında modellik, müğənnilik, aktrisalıq da var. Hər səhər 6-da yuxurdan oyanır. O ərəfədə hansı işlə məşğul olursa, səhər saatlarında o işin dalınca gedir. Cəmi bir gecədə qatıldığı bir məclisə və ya tanıtım tədbirinə görə 1 milyon dollar qazana bilir. Elə bunun nəticəsidir ki, Hiltonun 6,2 milyon dollarlıq evində 200 kvadrat metr sahəyə malik bir geyim otağı var. Həftədə orta hesabla 30 saatını alış-verişə sərf etsə də, bu, sərvətini azaltmır. Əksinə, bəzi markalar ona öz mallarını havayı verirlər ki, reklam olsun. Məhz bu cür məsuliyyətsiz davranışlarına görə bu xanım babası Barron Hiltonun 335 milyon dollarlıq sərvətindən məhrum edilib.

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT

Son səhifə

N 167 (6195) 3 avqust 2015



# Hillari Klinton saç kəsdirmək üçün 600 dollar ödədi

Amerikanın keçmiş xarici işlər naziri Hillari Klintonun saç kəsdirməsi ölkə mediasının gündəmindən düşmür. Keçmiş nazir sonuncu dəfə saç kəsdirərkən şəklinin çəkilməməsi üçün əlindən gələni edib. "Nyu-York Post"un xəbərinə görə, saçını kəsdirmək üçün gözəllik salonuna gedən Klinton üçün xüsusi yer ayrılıb. Klintonun saçı kəsilərkən gözəllik salonunun əməkdaşları xüsusi səy göstərib. İlk anda salonun liftlərinin fəaliyyəti dayandırılıb. Gözəllik salonundan çıxarkən 600 dollar ödəyən Klinton bir çoxlarını şoka salıb. Klintonun bütün çabalarına baxmayaraq yeni saç modelinin şəklini jurnalistlər çəkə biliblər. 67 yaşlı Klinton gözəllik salonundan çıxarkən maraqlı gözlərlə baxanlara "saçlarımı illərdir boyayıram. Ağ halını heç kəs görməyəcək" deyərək gülümsəyib.

# 21 gün avar çəkdi



Norveçli qayıqçı yeni rekorda imza atıb. Kjell Tore Solvang adlı qayıqçı 21 gün ərzində 3 min 300 kilometr məsafəni avar çəkərək Norveçi gəzib. Norveçin İsveç sahilinə yaxın Askoy bölgəsindən "kürək" çəkməyə başlayan Solvang Rusiya sahillərinə qədər getməyi bacarıb. Beləliklə, yeni bir kürəkçəkmə rekordu qırmış olub. Rekord təcrübəsi zamanı 8 kilo arıqladığını deyən Solvang özünü sağlam hiss etdiyini də deyib. Qayığın içində istifadə etdiyi əşyaların keyfiyyətli olduğunu da deyən heç bir problemlə qarşılaşmadığını da deyib. Qayıqçının sözlərinə görə, avar çəkdikcə əl və qolları da güclənir. Solvanq qayığını idarə edərkən qorxulu hadisələrlə də üzləşib. Belə ki, qayığına bir neçə dəfə su dolub və batma təhlükəsi ilə üzləşib. K.T.Solvang daha uzun müddətli rekordlar qırmağı planlaşdırdığını da deyib.

# 3 uşaq istəyənlərin diqqətinə

"Times" qəzetində yer alan araşdırma yazısına görə, mütəxəssislər 35 yaşdan sonra hamilə qalma ehtimalının ciddi şəkildə azaldığını deyiblər. Hollandiyalı mütəxəssislər tərəfindən aparılan araşdırmanın nəticələri belədir:

- 3, ya da daha çox uşaq istəyən bir qadın üçün 35 yaşdan sonra hamilə qalmaq ehtimalı olduqca azalır. Bu yaşdan sonra istədiyi qədər uşaq dünyaya gətirmək ehtimalı 90%-dir;
- İki uşaq istəyənlər ilk uşaq üçün 27 yaşı keçirməməlidirlər;
- Bir uşaq istəyənlər üçün isə tövsiyə edilən yaş həddi isə 32 yaşdır;
- 41 yaşından sonra qadınların hamilə qalma ehtimalı 50%-dir;

Süni mayalanma yolu ilə bu yaş həddini 5 il artırmaq olar. Lakin bunun üçün heç kəsə qarantiya verilmir. Araşdırmaçılar 10 min cütlüyün məlumatlarını bir yerə toplayıblar. Mütəxəssislər erkən yaşda ana olmağın ikinci hamiləlik üçün çox önəmli olduğunu deyirlər. Kişinin yaşı 40-dan az olduğu müddətdə ata olması üçün çox nadir hallarda problem yarana bilir.





# Kök sərnişinə görə 227 min dollar təzminat tələbi

Təyyarədə çox kök adamın yanında oturduqdan sonra bel ağrısı çəkdiyini iddia edən avstraliyalı sərnişin "Etihad" hava yolları şirkətinə qarşı təzminat davası açıb. James Brossos adlı sərnişin Sidneydən Birləşmiş Ərəb Əmirliklərinə gedərkən 14 saatlıq uçuş müddətində yanındakı kök sərnişinə toxunmamaq üçün yol boyunca narahat oturub. 14 saatlıq uçuş müddəti bitdikdən sonra isə bel ağrısından şikayət etməyə başlayıb. Hava yolu şirkətinə məhkəməyə verən sərnişin 227 min dollar təzminat tələb edir. Lakin məhkəmə onun bu iddiasını rədd edib və müayinədən keçməsi haqda qərar verib. Hava yolu şirkəti isə təyyarəyə kök adam olmasını və onlarla yanbayan oturulmasını adi hal hesab etdiyini deyib.




**QOÇ** - Maraqlı sövdələşmələrdə iştirakınız gözlənilir. Hətta ola bilər ki, bu amil növbəti bir neçə ayın uğurlarını da artırsın. Amma bütün işgüzar görüşləri günün ikinci yarısına salmalısınız.

**BUĞA** - Hansısa gərginliyi gözləməyə dəyməz. Ən azından bu gün ağıllı və təmkinli olmağınız bütün prosesləri xeyrinizə döndərəcək. Ən böyük uğurlarınız fəaliyyət zəminində mümkündür.

**ƏKİZLƏR** - Ümumi süstlüyünüzü nəzərə alıb qızğın fəaliyyətə ara verin. Bunun əvəzində ailə üzvlərinizlə, sizə yaxın olan insanlarla birgə olmaq, köhnə qayğılardan bir qədər uzaqlaşmaq məsləhətdir.

**XƏRÇƏNG** - Əgər hər hansı mübahisəyə yol verməsəniz, qərəzli çıxışlar etməsəniz, ulduzlar sizi sevindirəcək. Hətta şəxsi büdcənizdə müəyyən artımlar da mümkündür. Riskli dəvətlərdən yayının.

**ŞİR** - Hiss olunur ki, gərgin bir ərəfə yaşamaqdasınız və bu, daxili gərginliyinizi artırıb. Odur ki, gün ərzində daha çox istirahətə yer ayırın. Ulduzlar sizə maddi dəstək verəcək.

**QIZ** - Təcrübəniz olmayan, başınız çıxmayan məsələlərə münasibət bildirməyin. Bu, sizi gözdən sala bilər. Yaxşı olar ki, əsas diqqətinizi son vaxtlar güclənən ağrılarınıza yönəldəsiniz.

**TƏRƏZİ** - Ünsiyyətdə olduğunuz hər kəsi ciddi şəkildə dinləyin, onların problemlərinə laqeyd qalmayın. Elə davranın ki, sizə etibar edən şəxslərin gözündən düşməyəsiniz. Uzaq səfərləri təxirə salın.

**ƏQRƏB** - Yalnız sağlıq durumunuza diqqət ayırmalısınız. Yaxşı bilirsiniz ki, hirsli başda ağıl olmur. İndiki həssas məqamda isə ağılsızlıq heç kimə xeyir gətirmir. Qidanıza da fikir verin.

**OXATAN** - Münasibətlər zəminində yaranmış gərginliyi aradan qaldırmaq istəyirsinizsə, bu sətirləri oxuduğunuz andan hərəkətə keçin. Sonra gecikə bilərsiniz. Sevgiyə xüsusi həssaslıq göstərin.

**OĞLAQ** - Maliyyə uğurlarını nəzərə almasaq, ixtiyarınızda olan bu təqvimdən o qədər də razı qalmayacaqsınız. Buna baxmayaraq saat 14-17 arası yeni işlərin müzakirəsinə başlamaq olar.

**SUTÖKƏN** - İkitərəfli əməkdaşlıq zəminində uğurlarınız labüddür. Amma gərək daxili sabitliyinizi qoruyasınız ki, nəticə uğurlu olsun. Günün ikinci yarısında digər yeniliklər də olacaq.

**BALIQLAR** - Kənar məsləhətlərə ciddi şəkildə aludə olmayın. Amma bu, o demək deyil ki, kiminsə ədalətli qərarlarını tapdayasınız. Hər halda bu gün gələcək fəaliyyəti təyin etmək olar.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Fotoaparat uşağı kor edib



Çində yaşayan 3 aylıq uşaq 2,5 metr uzaqlıqdakı fotoaparatın işığına görə kor olub. Çinin media quruluşlarından verilən məlumata görə, fotoaparatın işığının açıq olduğunu unudan ata oğlunun şəklini çəkməyə çalışıb. Fotoaparatın işığı yandığı anda ağlamağa başlayan uşağın bir müddət sonra görmədiyi məlum olub. Xəstəxanaya aparılan uşağın gözündə müalicəsi mümkün olmayan problem yarandığı məlum olub. Mütəxəssislərin sözlərinə görə, qısa məsafədə olan güclü işıq seli uşaqların gözlərində ciddi problem yarada bilir. Xüsusi ilə 4 yaşından kiçik uşaqların şəkillərinin işıqla çəkilməsi tövsiyə edilmir.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 4.300

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.